# Vahidiyəm Azərbaycanımın!




# Qəzəllər
*(meyxana və müxtəlif şeirlər)*

Namiq Atabəyli

BAKI - 2014

**Namiq ATABƏYLİ**

# “VAHİDİYƏM AZƏRBAYCANIMIZIN...”

**Dahi şairimiz Əliağa Vahidin (18.II.1894— 30.IX.1965) anadan olmasının qarşıdan gələn 120 İlliyinə həsr və ithaf olunmuş**

# 120 QƏZƏL,

## MEYXANA və MÜXTƏLİF ŞEİRLƏR

**“Step.Ltd” kino şirkəti**

**BAKI—2014**

**Redaktorlar:**

**Firəngiz Vahid qızı (İsgəndərova)**
**Aynur Atabəyli (Fərəcova)**

**Məsləhətçilər:**

**Fərhad Quliyev.**
**Dilavər Arif**

**Rəyçilər:**

**Ağanəcəf Qədirov.**
**Osman Musayev.**
**Nəsir Əhmədov.**

**Texniki redaktor: Gülnar Namiqqızı.**
**Dizayner: A. Atabəyli.**
**Korrektor: T. Seyidzadə.**
**Namiq Atabəyli (Şirvani). "Vahidiyəm Azərbaycanımızın..."**
**Bakı, naşir:"STEP" ltd kino şirkəti, "El-Print" çap firmasında yığılmışdır. 2014., 210 səh.**

**Kitaba dahi şairimiz, milli klassik şeirimizin son mogikanı Əliağa Vahidin (1894-1965) anadan olmasının 120 İlliyi münasibətilə yazılmış 120 qəzəl, habelə ətraflı "Ön söz", klassik irsə müəllifin novator baxışlarını əks etdirən bir çox yeni əsərləri daxil edilmişdir.**

**Formatı: 84x108 1/32.**
**Tiraj: 1000.**
**Birinci buraxılış: yubiley üçün.**

**Müəllif:**
**E-mail: namiq_atabeyli @ yahoo.com**

**© Namiq Atabəyli (Fərəcov Namiq Rəşid)**

**AYNUR ATABƏYLİ**
**İstanbul, Bahçeşehir Universitetinin magistri, tənqidçi, şairə, dizayner-reklamçı, biotexnoloq.**

## "VAHİDƏM, ŞAİRİ-AZADPƏRƏSTƏM..."
## (Ön söz)

**Parlayar çöhreyi-qəsrində səadət günəşi,**
**Hər kimin dəhrdə dövlət quşu damində durar. (Ə Vahid).**
**Çinan istadə pişo nəse-tən**
**Ki, istadə əlifhayi-ətəna. (Ə.Xaqani Şirvani)**
**Durmuşam pişü pəsi-təndə, Sabir, necə kim,**
**O əliflər ki, pəsü pişi-ətənadə durar. (M.Ə.Sabir)**
**Məni məhv eyləməyə qalxışa minlərlə tufan,**
**Mənəm o Nuh gəmisi, dalğalı dəryada durar. (N. Atabəyli)**

**Dahi Əliağa Vahidin anadan olmasının qarşıdan gələn 120 İllik (18.II.1894—30.IX.1965) yubleyi üçün nəzərdə tutlan bu kitab mənim atamın Vahid irsinə sonsuz məhəbbətinin bir ifadəsidir. Həm də ənənəvi bir məhəbbətin özünəməxsus davamıdır. 1973-cü ilin 17 fevralında Bakının Maştağa qəsəbəsində 200 nəfərlik Vahidsevər alim və şairin, müxtəlif ölkələrdən gəlmiş qonaqların və geniş xalq kütləsinin iştirakı ilə ilk (qeyri-rəsmi) Vahid Xatirə Məclisi ("Vahid və müstəqil poeziya" axşamı) keçirilmişdir. İlk Vahidşünas alim, pedaqoq Məmməd Nuru oğlunun təşəbbüsü ilə küçirilmiş bu yubleylərin sorağı az sonra dünyanın bir çox ölkələrinə yayıldı. Bu məclislərdə hər kəsin Vahiddən xatirə danışması, qəzəl oxuması, yaxud ona ithaf etdiyi şeirləri söyləməsi vacib şərt sayılmışdır. Belə qonaqlardan 1981-ci ildə Vahid Yubleyində olmuş Azərbaycan və**

**Tacikistan xalq artisti Leyla Şərifovanın dahi şairimizə həsr etdiyi beytlər bu gün də həyəcansız oxunmur:**

**-Bir şəmə pərvanəyəm, minlərlə var pərvanəsi.**
**Bir kəsin məcnunuyam, çoxdur onun divanəsi.**
**Anlamaz qafil olan Vahid sözündə hikmət,**
**Hər kəlamında yatır dünya gəzən əfsanəsi.**
**Gah o bir gündür çıxır səthində çərxin nur ilə,**
**Gah bir şəmdir ki, var min Kəbəsi, bütxanəsi.**
**Gah onun arif əlində təsbeh olmuş bəndləri,**
**Gah canan sinəsində dürridir hər danəsi.**
**…Hər yerə bir Zöhrə tək qoysa qədəm vardır yeri,**
**Hər könüldə dikəlmişdir sevda quran kaşanəsi.**
**Baş əyər Leyla onun gül tək məzarı üstünə**
**Əldə mehrilə dolu Vahid verən peymanəsi.**
**(tərcümə: Əbülfəzl Hüseyni Həsrətindir)**

**Əlinizdəki bu kitaba Vahidin öz sənət müəliminə--Məşhədi Azərə (Buzovnalı Azər Məcid oğlu İmaməliyev:1870-1951 ) xitabən bir Azəri gözəli üçün söylədiyi “ Vahidiyəm Azərbaycanımızın!” və ya çağdaş təbirlə desək, “Vahidiyəm Azərbaycanımın!” özünütəqdimatı heç də təsadüfən başlıq seçilməmişdir. Kitaba N. Atabəylinin 120 lirik qəzəli, habelə meyxana və müxtəlif şeirləri daxil edilmişdir.**

**N. Atabəylinin hələ tələbəlik illərində modernist poeziyanın poetikası üzrə yazdığı ilk elmi işlərin ( “Verlibrin poetikası” və i. a.) Respublika Təhsil Nazirliyi, LKGİ MK, Tələbə Elmi-tədqiqat işləri üzrə Respublika Şurası tərəfindən “Qızıl medal” və Birinci dərəcəli Diploma (VIII Respublika elmi konfransında müvəffəqiyyətlərinə görə: 1980/1981-ci illər) və habelə digər mükafatlara layiq görülməsi indi bizim üçün onun klassik şeirə dönüşünün dərin mənasını aydın ifadə edir. Post-kommunist və post-kapitalist , yığcam desək, post-**

**sənaye erasının süqutu milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasını və inkişaf etdirilməsini bir zəruriyyətə çevirdi. Namiqin klassikaya yeni baxışı onun klassik ənənədə yaradıcılığı ilə eyni bir istiqamətə boylanır: Əliağa Vahid yaradıcılığına və şəxsiyyətinə!.. Bəlkə də, bu ona görədir ki, Vahid Azərbaycan klassik şeirini ömrünün sonuna kimi əsl cəngavər kodeksi ilə qorumuş tənha və son mogikanımızdır. Namiqin özünün yazdığı kimi:**

**Seyyid 50 yaşda idi nöqtə qoyanda qəzələ,**
**150 il çıxmaz deyə kimsə ismi-Şirvan ilə.**
**Gədalər zamanıdır: haqq piyadə, haqsız atlı—**
**Getmərəm bu yolu mən ölsəm də, bu dövran ilə.**
**Ey Atabəy, qəzəl eşqi deyirlər ki, ölüb gedir,**
**Şair adın yad eləyək "VAHİD" adlı divan ilə.**

**Atam hələ qəzəl yaradıcılığına keçməmişdən xeyli əvvəl, 2004-cü ildə Vahid haqqında silsilə yazılar hazırladı. Lakin nədənsə növbəti ildə "Yeni Azərbaycan" qəzetinə 25 il bundan əvvəl yazdığı "Verlibrin poetikası" əsərini təqdim etdi. Tədqiqatın "Giriş" qismi tam-tamına qəzetin 30 sentyabr 2005-ci il, N-189/2142 sayında bütöv bir səhifədə (səh.-10) çap edildi. Sonpa "ardı var" ilə gedən bu yazının çapını atam qəzetin " Yenisey" cümə bölməsinin rəhbəri Xanəmir vasitəsilə dayandırdı.Və bununla o nəinki poeziyada, bütünlüklə ədəbiyyatda sənaye erasının mirası olan modernizmlə bir dəfəlik xüdafizləşdi.**

**Dolayısı ilə, N. Atabəylinin klassik şeirə doğru ilk addımı onun "Verlibrin poetikası" tələbə işinin "Yeni Azərbaycan" qəzetində "Yenisey" cümə mədəniyyət əlavəsinin 25-ci, yəni son sayındakı çapından başladı...**

**Lakin o, yalnız qəzəl yazmaq, sadəcə Qəzələ baş vurmaq deyil, klassik vəzndə bəzi islahatlar da həyata keçirmək arzusuna**

**düşmüşdü. Ərəb əruzunun derivatlarını Xəlil ibn Əhməd miladi 767-ci ildə yaradarkən, onu öz dilinin "fel" sözünün üzərində qurmuş, saitlərə deyil, samit səslərə əsasən hazırlamışdı. O, "f", "e", "l" səslərini ifadə edən hərflərə daha 7 hərf əlavə etmiş, bunların üzərində əruz təfilələrini (misradaxili bölgüləri, kəsintiləri ) qurmuşdur.Bu hərflərin hamısı, o cümlədən uzun "a", uzun "u" və uzun "i" ərəb dilində samit sayılır. Xəlil əruzun təfilələrini 2 hərflidən 10 hərfliyəcən quraraq, onları müxtəlif səs kombinasiyalarına çevirmişdi. Ərəblərin özündə beyt daxilində qəliblərin tam təkrarlanmaması (ərəb və fars əruzunun türk əruzundan əsas fərqi) adi hal olduğu halda, Azərbaycan əruzunda vəzn vahidi qəbul edilmiş misralarda simmetrik eyniyyət və heç ərəb şeirinə də xas olmayan açıq-qapalı heca pozulmazlığı tələbi XXI əsrdə çox gülməli görünərdi. Bu dolayısı ilə bədii fikrin daxili ritmini zahiri ahəngə tamamilə qurban verməkdi. Umumtürk ədəbiyyatına Yusif Balasaqunlunun "Kutadqu-bilik" (XI əsr) poeması, Azəri türkcəsinə Həsənoğlu və Nəsir Bakuyi (hər ikisi XIII əsr) ilə qədəm qoymuş Əruz vəzninə yeni nəzəri baxış, əlbəttə, böyük məsuliyyət tələb edir. Amma həmişə ilk addımların atılması əsl çətinliyi yaradır... Buna görə də, açıq demək lazımdır ki, bu "Qəzəllər" kitabı N. Atabəylinin Azərbaycan əruzunda həm ilk addımları, həm də ilk "əl işləridir" (odur ki, kimlərdəsə müəyyən narazılıq da doğura bilər). Namiqin hal-hazırda Əruzun Azəri "rüknləri", yəni ritmləri əsasında üzərində işlədiyi yeni "Əruz: dilimizin simfoniyası" özünütəhsil dərsliyi klassik şeirmizi öz vəzni və bəhri üzrə düzgün oxumaqda çətinlik çəkələr üçün nəzərdə tutulmuşdur. Burada nə Ə.Cəfərin 6 əkrəmi ünsürü, nə də Ş.Ədillinin sadələşdirilmiş 2 ünsürü deyil, tamamilə ənənəvi bir sistem: "na", "ni", "nay" və s. ilə qurulmuş, əlavə saitüstü işarələri də ehtiva edən qədim xəlqi bir prinsip tətbiq olunmuşdur. Bu sadə**

**sistem, məncə, həm klassik şeir oxucularımız, həm də klassik şeirdə milli əruzumuzun 131040 (Ə.Cəfərin göstərdiyi 266 qəlibə qarşı) variantda ritmik qəlib yaratma imkanlarından tam yararlana biləcək yeni yaradıcı gəncliyimiz üçün çox faydalı olacaqdır.**

**Bundan başqa, onun Ə.Vahidin qızı Firəngiz xanımla birgə bu il yaratmağı planlaşdırdığı "Əliağa Vahid Fondu" da klassik şeirin inkişafına yeni təkan verə bilərdi. Bu Fond öz hesabına "Vahid-şou" internet televiziyası, son 200 illik Bakı klassik şeir irsinin əlyazmadan kitaba çevrilməsi, nəhayət, şou tipli meyxana, rep, satirik-musiqili klassik tele-teatrın yaradılması kimi xeyli yeniliklərin tətbiqinə yol açardı.**

**Heç şübhəsiz, Vahid müasir dövr milli qəzəliyyatımızda ilk novator şairimizdir. Onun görüşünə də məhz yaradıcı-kreativ novatorluqla gəlmək lazım idi.**

**Vahidin yubileyləri üçün bir çox görkəmli şairlər bir-iki qəzəl və digər janrlarda şeirlər yazmışlar. Bu sırada ilk ithafnamə tanınmış Bakı şairi Həsən Səyyarın (1891-1936) hələ 1916-cı ilin 11 sentyabrında "Tuti" jurnalında yazıb dərc etdiyi "Vahidə ithaf" şeiridir. Məhəmmədəli Şəfainin şairin ilk " Qəzəllər" kitabının nəşri münasibətilə 1939-cu ildə və sonralar yazdığı Üç qəzəli isə bunun artıq bir ənənəyə çevrildiyini göstərdi:**

**Canfəza nəğmələr ilhamını aldıqda , könül,**
**Dedi: üslubudur ol bu gün Vahidi-şirinsüxənin.**

**(Yeri gəlmişkən, M.Şəfainin özü kimi çox istedadlı qəzəlxan-şair oğlu Namiq Axundovun(1936-2001) xatirinə atam öz qəzəllərindən "Namiq" ismini çap ərəfəsində götürməli oldu: buna görə də onun təxəllüsü qəzəllərdə, əsasən, "Ata", "Atabəy", "Atam" və s., meyxanalarda "Ataş" kimi təqdim edilmişdir. Lakin qoşmalarda**

**şairin ismi orijinalı üzrə saxlanılmışdır. Rəhmətlik Namiq Axundov qəzəldə qəribəlikləri nəzərə alaraq, görünür, nahaqq demirmiş:**

**Namiq, şeir ağır yükdü, çiyin vermə ona,**
**Can xilas eylə o ağır şələsindən zamanın.**

**Bundan başqa, Süleyman Rüstəmin də şair Əliağa Vahidin ölümünə yazdığı "Sonbeşik" (1970) şeiri, Əliağa Bakirin şairin dəfni ilə əlaqədar söylədiyi bir qəzəli:**

**Söz cəbhəsinin şöhrəti, cəngavəri sənsən,**
**Hər döyüşə əzm ilə gərdin sinə, Vahid! (1965), –**

**habelə 1974, 1975- ci illərdə Vahid poeziya günləri ilə əlaqədar yazdığı ənənəvi iki qəzəli, Ağasəlim Çildağın "İki meyxana"sı, Cəfər Rəmzinin "Vahid üçün" (1965), Atif Zeynallının, Seyidağa Həbibovun, Nardaranlı Mailin, Mahir Əbdülrəhim oğlunun, Buzovnalı Elnarənin, Əbülfəzl Hüseyni Həsrətin, Əli Tudənin, Balaş Azəroğlunun, Xəlil Rza Ulutürkün, Əliabbas Zakinin, Nazim Rizvanın və başqalarının ithaf, həsr, nəzirə və təxmislərini göstərə bilərik. Heç şübhəsiz, bunların içərisində Qulamhüseyn Beqdilinin şairin tabutu başında, 30 sentyabr 1965-ci ildə bədahətən söylədiyi bir qəzəli xüsusilə təsirlidir:**

**Vahidi daxmada yatmış gördüm,**
**Gənci viranədə batmış gördüm.**
**Ayın örtmüşdü bulud çöhrəsini,**
**Günəşi məğribə çatmış gördüm .**
**Bu vəfasız fələyin hərzə əli,**
**Yusifi heç nəyə satmış gördüm…**

**Əlbəttə, bu ithaf və nəzirələrin sırası bundan sonra da bir ənənə şəklinə düşərək davam etdi və davam edəcək. Lakin N. Atabəyli bu ənənəni daha iri miqyasda davam etdirmiş, belə ki, şairin 120 İlliyini 120 qəzəl ilə qeyd etməyi qərara almışdır. Bunların bir çoxu Vahidə həsr olunmuş, bəziləri nəzirə (və təsir ilə) yazılmış, digər**

**əksəriyyəti isə qarşıdan gələn bu möhtəşəm Hadisə münasibətilə ithaf olaraq qələmə alınmışdır.**

**Həm də o, bu işi yenicə çapdan çıxmış sıradan üçüncü poeması olan eyniadlı "Ana ürəyi" ("Avropa" nəşriyyatı, Bakı—2013. Bu əsər Təzəpir (1914)) məscidinin inşa edilməsinin 2014-cü ildə 100 İlliyi münasibətilə onun qurucusu, 114 yaşlı paytaxt ağbirçəyi, rəhmətlik Nabat xanım Aşurbəylinin haqqında yazılmışdır) poema və şeirlər kitabından sonra, habelə şəxsi həyatında baş vermiş bir sıra tragik hadisələrin cərəyanı şəraitində, eyni zamanda, tam lirika külliyyatının yanıb yoxa çıxdığı, 40-a yaxın qəzəlinin ilk əlyazmada bir qrup "dost sayılan" aktyor tərəfindən qərəzlə oğurlandığı bir vaxtda başlayaraq, qısa zaman ərzində titanik əzmlə başa çatdırmışdır. Əlbəttə, bu gün böyük fəxrlə deyə bilərəm ki, əlinizdəki bu kitab atamın Vahid poeziyasına sonsuz məhəbbətinin bariz ifadəsi və dahi şairimizin 120 İllıyinə ilk Yubiley töhfəsidir.**

**Namiq Atabəyli dahi şairimizin irsini 30 il əvvəl təhsil aldığı BDU-nun təhsil proqramından kənara çıxaraq, Azərbaycan qəzəl sənətinin araşdırılmamış mənbələri ilə original üsulla tədqiq etmiş, mühüm bədii-elmi nəticələr çıxarmışdır. Məsələn, o, Əliağa Vahidin ( Əliağa Məmmədqulu oğlu İsgəndərovun) 1919-cu ilin may-iyun ayından 1920-ci ilin Qara Aprelinəcən Azərbaycan Demokratik Respublikasının əsgəri kimi xidmət edərkən, hərbi kazarmada yazdığı bir qəzəlin öz dövlətçilik ruhu və formasına görə dahi şairimiz , görkəmli dövlət xadimimiz Şah İsmayıl Xətaidən təsirlənərək yazıldığını müəyyənləşdirmişdir. Şah babamızın 9 beytlik qəzəli hökumətə (-divana) və orduya ağıllı və cəsarətli insanları cəlb etmək üçün xüsusi müraciəti ilə başlayır:**

**--Ey deyən kim aqiləm, divanə xoş gəlmək gərək,**
**Kim qılır lafi-hünər, meydanə xoş gəlmək gərək.**

Gər Əzizi- Misri-eşq olmaq dilərsən, ey könül,
Yusifi-Misri kimi zindanə xoş gəlmək gərək.

Vahid də dövrün nəbzini tutaraq, məhz “Gərək” rədifli bir qəzəllə öz əsgər yoldaşlarını milli Cümhuriyyətin müdafiəsində ruhlandırmağı qərara almışdır. Şairin keçmiş əsgər yoldaşı Güləhmədin 1973-cü ilin fevralında, Vahid poeziya günündə 12 bəndini söyləyə bildiyi bu qəzəldə Şah İsmayılın döyüşkənlik ruhu və siyasi lirikası açıq-aşkar duyulur:

--Keçdi dövri-müstəbid, indi ədalət dövrüdür,
Şövqilə kim həqq yolunda cannisar olmaq gərək.
Tabeyi-fərman idik keçmişdə zülmü zillətə,
İndi ol zalimlər içrə hökmran olmaq gərək.
Zülm edən zalimləri qətl edib Zöhhakvar,
Gavə tək əhrarlıqda aşikar olmaq gərək.

Namiqin həmin səpkidə yazdığı eyni rədifli qəzəli də vətən və azadlıq eşqinin yeni dövrümüzdə məhz Xətaiyanə səmimi ifadəsidir:

--Gər dilərsən Vətən üçün Züleyxayi-azadlıq,
Gülə yox, bülbülə yox, gülləyə tuş gəlmək gərək.
Vətənin məhəbbəti könlündə tutmişsa qərar,
“Yüsifi-Misr kimi zindanə xoş gəlmək gərək!”
…Atam, az tut üzünü sən bu əhli-keflərə, gəl,
Məsumlar ayağına gözləri yaş gəlmək gərək.

Onu da xüsusi qeyd etmək lazımdır ki, N. Atabəyli sovet hakimiyyəti illərində, Bakıda hərbi vəziyyət şəraitində Azərbaycanın Üçrəngli istiqlal bayrağına şeir yazmış ilk şairimizdir. Həmin şeir “Bir kərə yüksələn bayraq!”adı ilə onun şöbə müdiri çalışdığı “İlham” qəzetinin 1991-ci il 2 fevral (N-13) tarixli sayında dərc edilmişdir. Müstəqillik illərində bu əsərə bəstəkar Ədviyyə Rəhmətova məhz Arif Məlikovun tövsiyəsi ilə Müsabiqə üçün simfonik marş bəstələmiş,

**Azərbaycan Respublikası Dövlət Simfonik Orkestrinin ifasında əsər müsabiqə əsasında Qızıl Fonda daxil edilmişdir:**

**Qılınc vuran qolumuzsan,**
**Sən azadlıq yolumuzsan,**
**Simurq kimi doğulmusan,**
**Bir kərə yüksələn bayraq!**

**Vahid yaşadığı dövrün hakim ideolgiyası ilə tam antoqonist münasibətdə olmuş, rejimin bədii estetikasını öz yradıcılıq aləminə yaxın qoymamışdır. Şair Cümhuriyyətlərimizin və ümummilli mədəniyyətimizin bədii-estetik dəyərlərindən olan Azərbaycan əruzunun unudulmasına imkan verməmiş, belə ki, onun, əsasən, həzəc, rəməl, müzare, müctəs bəhrlərində bir-birindən gözəl əsərlər yaratmışdır. Azərbaycanda 1000 illik (bunun 8 əsri Azəri türkcəsi ilə, həm də məhz Bakıda XIII əsrdən başlamaqla) tarixi olan, 19 şeir bəhrindən 12-sinin milli əruzumuzda tətbiq edildiyi bir mədəni sərvəti qoruyub saxlamaq Vahid üçün heç də asan başa gəlməmişdir. Hətta dahi bəstəkarımız Üzeyir Hacıbəyov da dönə-dönə xəbərdarlıq eləyərdi: “Dəstgahların qəzəlləri mütləq Əruz vəzni ilə yazılmış şeir və qəzəllər olmalıdır,.. əruzla yazılmış qəzəlin vəzni dəstgahın musiqisi üçün dəxi vəzn məqamını tutur. Dəstgah oxuyan qısa hecanı necə var elə oxuyur, uzun hecada isə “zəngulələr ” vurur, “kalaraturlar” edib səsini istədiyi qədər uzada bilir.” Deməli, Azərbaycanda qəzəlxana qayğı Muğam davamçılarına olan Dövlət dəstəyindən az qayğı tələb etmir.Vahid kimi fədakarlar isə tarixdə nadir şəxsiyyətlərdi, əruzşünas-alim Əkrəm Cəfərin 1977-ci ildə“Elm” nəşriyyatında cəmi 1020 nüsxə ilə çap olunmuş “Əruzun əsasları və Azərbaycan əruzu” kitabında göstərilir: “İndi bizdə (Azərbaycan əruzunda-A.A.) 72 əsas vəzn (əruzda təfilə kompleksləri- A.A.) növünün və 267 qəlibin**

**olduğu təsdiqlənir" ( bax: göst. kitab: səh. 11). Odur ki, qəzəl müasir qəzəlxandan və oxucudan xüsusi musiqi və əruz təhsili də tələb edir.**

**Məsələn, təkcə Vahidin öz sağlıqında nəşr edilən son "Qəzəllər" (1964) kitabına baxsaq, burada 352 qəzəl , 1 təxmis, 1 təsdisdən 206-sının rəməl, 68-nin müctəs, 50-nin müzare, 29-nun həzəc və xəfif bəhrlərində olduğu aşkara çıxar. Vahid hətta uşaq mətbuatında da əruzun ritmik bərlərindən yararlanmağı tövsiyə edərdi. Dahi şairimiz Bakı qəzəl məktəbinin hələ XII əsrdən N əsir Bakuyi ilə başlamış, VIII əsrdə Mahmud, Mürsəl, Mirzə Nəsib Qüdsi və şağanlı Səfərəli ilə inkişaf etdirilmiş, XIX və erkən XX əsr simalarından Əbdülxaliq Cənnəti (1855-1931), Mikayıl Seydi (1862-1916), Ağadadaş Müniri (1863-1940), Kərbəlayi Cabbar (Kəbül Cabbar), Mirzə Bağır (1810-1882), Kərbəlayi İsgəndər (Ə. Vahidin babası), Mirzəağa Dilxun (1870-1912), Seyid Zərgər (1880-1920), Əlabbas Müznib (1882-1938), Mirzə Məhəmmədəli Binəva (1822-1892), Məhəmməd İsmayıl Asi Buzovnalı, Ağadadaş Sürəyya (1850-1900), Fərqa, Süha, Mirzə Məhəmməd Müsəvviri (1855-1901), Məhəmməd Cürmi (Bakıda 1880-ci ildə təşkil olunmuş ilk "Məcməüş-şüara" məclisinin sədri olub, katibi Ağadadaş Sürəyya idi), Yusif (Mirzə Əbdülxalıq:1853-1924. Sonralar "Məcməüş-şüara" məclisinin sədri. "Vahid" adını şairə o verib.), Məşədi Azər (Azər Məcid oğlu İmaməliyev:1870-1951 ), Haşım bəy Saqib(1870-1931), Səməd Mənsur (1879-1927), Səyyar (Həsən Atayev:1891-1936), Seyid Hüseyn (Mirmöhsünzadə:?-1922), Atababa Hicri (1863-1922, Zəki Ərşi (Hacızadə:1850-1919), Şahin Nardaranlı (1862-1909), Ağakərim Salik (1849-1910), Bədri Seyidzadə (1882-1945), Əbülhəmid Mina (1855-1926) və onlarca adları ədəbiyyat tarixinin qızıl fonduna—xalqımızın sinəsinə düşmüş digər simalarının qəzəl estafetini, demək olar, təkbaşına kəcrəftar zəmanə ilə çarpışaraq yaşada bilmişdir. Onun bu vəziyyəti,**

**təqribən, orta əsr Azərbaycan intibahının dahi şəxsiyyəti İ.Nəsiminin vəziyyəti ilə eyni olmuşdur. Yerli hakimlərin Nəsimiyə müvəqqəti loyal münasibəti yadelli xaqanların təhdidi altında nə dərəcədə sürüşkən idisə, Vahidə də yerli qırmızı vassalların münasibəti bir o qədər mütərəddid olub (onun ictimai-siyasi vəziyyətindən tutmuş, adi kommunal-məişət şəraitinə qədər ). Şair də onlara borclu qalmayıb, yeri gəldikcə klassik şeirin poetik ibarələri ilə pərdələnərək, İmperiyanın "icazəli müxalifətinə--dini sektaya" guya tənqidi üz tuturmuş kimi, onların şəxsində, əslində, kommunizmin qırmızı "dəmi-riyalarını " kəskin dillə tez-tez amansız ifşa etmişdir:**

**--Əhli-fəqrik, bizə bu künci-qənaət xoşdur,**
**Neylirik şahların altun dolu kaşanəsini.**
**Xalqa göz yaşı ilə dami- riyalar qurmuş,**
**Vaizin sanma əbəs sübheyi-səddanəsini.**

**Vahidin daxili lirizmi ictimai-siyasi gerçəkliyin faciəviliyi ilə mürəkkəb şəkildə çulğaşırdı. Atamın universitet müəllimi, Azərbaycan əruzunun ölməz tədqiqatçısı prof. Əkrəm Cəfər şairin 1979-cu il 12 fevral tarixli Anım gecəsində "Novator şair" adlı çıxışında çox yerində qeyd edirdi : "Deyirlər sadə yazır. O qədər sadə yazanlar var ki… Vahiddəki sadəlik böyük mürəkkəbliyin, ondakı ruhun əsrarından xəbər verir." İndi açıq dillə demək olar ki, bu "sirrin" biri məhz Vahidin antikommunizmi idi.**

**Vahid özünü ölüncən kommunizmin "kəfənində görüb." Odur ki, Hüseyn Cavidə yazdığı bir qəzəldə dahi şairin faciəsinə işarə edərək, yarımörtülü dillə deyirdi:**

**--Lövh üzrə Pirimiz bizi yazmış şəhidi-eşq,**
**Meydani-ədli-daddə gülgün kəfənlərik.**
**Cavid həmişə xəlqimizin xatirindədir,**
**Vahid, o yoxsa, ruhu ilə həmvətənlərik.**

**Bütün bunlardan sonra, Vahid yaradıcılığının lazımınca gənc nəsilə, o cümlədən, məktəbli və tələbələrə öyrədilməməsi anlaşılmaz qalır. Ulu Öndərimiz Heydər Əliyevin şəxsi iştirakı ilə 1996-cı ildə keçmiş Respublika Sarayında şairin 100 İlliyi ilə əlaqədar keçirilmiş yeganə rəsmi Vahid Poeziya Günündə mərhum Prezident təsadüfən demirdi ki, Vahid ədəbiyyatımızda Füzuliyə bərabər bir şairdir. Burada diqqəti o çəkir ki, H.Əliyev heç də Vahidi, bir çox başqaları kimi, Füzulimizin adi bir "davamçısı", yaxud bir təqlidçisi kimi deyil, məhz poeziyamızın Füzuli zirvəsində görürdü. Məncə, bu Vahid lirikasına milli istiqlal şəraitində verilmiş yeganə, həm də ən obyektiv düzgün siyasi qiymət idi.**

**Vahid, sözün əsil mənasında, milli istiqlal şairimizdir. Onun bolşevizmə qarşı sərt əyilməz istiqlalçı məfkurəsi təkcə H.Cavidə, S.Mümtaza və b. covetizmin qurbanlarına yazdığı qəzəlləri ilə məhdudlaşmır. Vahid, eyni zamanda, qırmızı imperiyanın sərhədlərindən dişarıda qalmış Azərbaycan istiqlalçılarının da həsrətini çəkir, onların Vətən və İstiqlal ağrılarını yaşayırdı. Bu mənada, onun bir qəzəli Sovet işğalı dövründə yazılmış Azərbaycan poeziyası üçün çox nadir hadisədir:**

**Məhəbbətinlə könüllər dolub, unutmayacaq**
**Nə bir rəfiqi-həqiqi, nə əhli-xanə səni.**
**Vətəndə nami-nişan ilə ölmək izzətdir,**
**Diyari-qürbətdə kim saldı binişanə səni?**
**…Sən olmasan da, xəyalın bizimlə həmdəmdir,**
**Əgər möhnəti-qürbət yetirdi canə səni.**

**Vahid öz xalqını, vətənini, onun milli istiqlal mübarizəsini nə qədər dərindən sevirdisə, qədirbilən xalqımız da onu eyni böyik və sonsuz bir məhəbbət ilə sevmişdir və sevir. Bu sevgi heç vaxt heç bir hakimiyyət iqtidarında da hətta şübhə doğurmayıb. Bunu Sovet**

**hökuməti onun dəfn günü Fəxri xiyabana axın etmiş milyonlarla Vahidsevərin şəxsində bir daha əyani görmüş, onun dəfnini layqincə təşkil etməkdən yaxasını kənara çəkə bilməmişdi. Xalq Vahidi burada dəfn edilmiş Həsən bəy Zərdabi, H. Sarabiski kimi münəvvərlərimizin əhatəsində ana torpağımıza əbədi olaraq tapşırmışdır. Məzar daşı üzərindəki şəkildən Vahidin dərin göz çuxurlarından tarixə boylanan alovlu baxışları sanki öz müəlliminə--"kainata sığmayan" Məşədi Azərə tuşlanmış kimi bizə boylanır: Azərbaycan qəzəlini Vətənin "rəhmətə getmiş oğlunun"--Azərbaycan Xalq Cümhuriyyətinin bədii-estetik tiflini necə qoruyub saxlaması, ona necə "analıq etməsini" sanki öz xalqından sorğuyaraq tarixə hesabat verir:**

**Bir tifli qaldı rəhmətə getdikdə oğlumun,**
**Mən bəsləyib, böyütdüm oğul yadigarını.**
**Qalsam məzar içində yüz illərlə qəm deyil,**
**Göstərdim aləmə analıq etibarını.**

**Vahid 1000 illik bədii sərvəti, son iki əsrdə neçə-neçə ədəbi məclisin- "Divani-hikmət" (1820-1882-ci illər. Gəncə, Tiflis. Mirzə Şəfi Vazeh), "Gülüstan" (XIX əsr 30-cu illər. Quba. Mirzə Möhsün Xəyali, A.A.Bakıxanov-Qüdsi və b.), "Əncümənüş-şüara" (1838, Ordubad, Şıxəli Naib, Mirzə Ağarəhim Qüdsi, Hacağa Fəqir Ordubadi, Məhəmmədtağı Sidqi), "Fövcül-füsəha" (1850-1900, Lənkəran, Mirzə İsmayıl Qasi, Mirzə İsa Xəyali, Mirzə Həsən Səyyad, M.Ə.Mühəqqir, M. Mücrüm, M.İ. Mahir), "Beytüs-Səfa" (1867-1892. Şamaxı, Mirzə Məhəmmədhəsən, Molla Ağa Bixud, Seyid Əzim, Mirzə Nəsrullah Didə, Ağaəli bəy Naseh, Molla Mahmud Zövi, Məhəmməd Səfa və b.) , "Məclisi-üns" (1864-1897. Şuşa, M.R.Fəna, H.A.Ağahi, X.Natəvan), "Məclisi-fəramuşan" (Qarabağ, M.M. Nəvvab, Həsənəli xan Qarabaği, M.M. Katib, Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Əyyub Baki), "Məcməüş-şüara" (1880-1923, Bakı. 1980-ci ildən fəaliyyəti**

**R.Samit tərəfindən yenidən bərpa edilib. Hazırda rəhbəri Fazil Şahindir) və d. ədəbi məclislərin gördüyü kollektiv bir işi Ə.Vahid, demək olar ki, bütün ömrünü bu yola qoyara, çox çətin bir tarixi şəraitdə tək başına həll edə bilmişdir.O, Azərbaycan klassik şeirini öz bədii yaradıcılıq və ədəbi şəxsiyyəti nümunəsində qoruyub yeni nəsillərə ötürə bilmişdir. Klassik ənənəni qoruyub saxlamaq və inkişaf etdirmək isə indiki yaradıcı gəncliyin mənəvi borcudur.**

**Vahid Azərbaycanın milli istiqlaliyyətini öz ideya və bədii-estetik düşüncələrinin təntənəsi olaraq, mənəvi planda bizimlə bir yerdə gördü. Azərbaycanın Dövlət müstəqilliyinin 18 oktyabr (1991) elanından sonra, azad Vətəndə baxılan ilk bədii film "AMAfilm" şirkətinin istehsal etdiyi "Qəzəlxan" filmi oldu. Vahidin həyat və yaradıcılığını çox gözəl əks etdirən bu filmin ssenari müəllifi və quruluşçu rejissoru Şahmar Ələkbərov, Vahid rolunun ifaçısı isə Loğman Kərimov idi. Maraqlıdır istiqlal uğrunda gedən mübarizənin ilk dalğaları zəminində yaradılan ilk heykəl Hacı Zeynalabdin Tağıyevin idisə, ikinci heykəl də 1990-cı ilin 27 oktyabrında məhz Əliağa Vahidə qoyulmuşdur. Bu heykəl gənc heykəltaraşlar—Rahib Həsənov və Natiq Əliyevin maketi üzrə qurulmuş və Ə.Ləmbəranski məktəbinin nümayəndəsi S. Salamzadənin , inşaatçı Ətəulla Ələkbərovun sayəsində başa çatdırılmışdır.**

**Vahidin (şair 1965-ci ilin 30 sentyabrında vəfat etmiş, sabahı gün Fəxri xiyabanda xalqın təkidi ilə dəfn edilmişdir. ) dəfni əsl xalq hüznünə çevrildi. Süleyman Rüstəm kimi ideoloq-şair sağlığında həyatına heç bir qayğı göstərilməmiş bu dahi şairin dəfnini hakimiyyət üçün bir ironiyaya çevirib, özünün Vahidə həsr etdiyi 76 misralıq " Sonbeşik" şeirində yazmışdı:**

**...Elə ki, əllini adladı yaşı,**
**Qoca Savalan tək ağardı başı.**

**Adını çəkdilər hər yerdə təkrar,**
**Özünü məclisə çağırmadılar.**
**O, bunu dərd edib gileylənmədi,**
**Öz qəzəl taxtından yerə enmədi.**
**Bir gün gözlərini yumdu həyata,**
**Hamı rəhmət dedi bu əziz ada.**
**Toyxana, meyxana qaldı Vahidsiz,**
**Dostlar yana-yana qaldı Vahidsiz.**
**Onu apardılar Dağüstü bağa:**
**Orda düzəltdilər ev-eşiyini.**
**Öpüb tapşırdılar  ana torpağa**
**Qəzəl dünyamızın sonbeşiyini.**

**Görünür ki, Süleyman Rüstəm bu xatirə əsərini Vahidin onun özünün 50  yaşına  neçə il əvvəl yazdığı qəzəlin mənəvi borcu kimi geri  qaytarmaq üçün qələmə almışdı:**

**--Gül üçün bülbüli-şeyda niyə fəryad eləsin,**
**Zövqü şövqilə səfalandı gülüstan bu gecə.**
**Şüara əhlinə tarixi gözəl gündür bu,**
**Qədrilə yetdi mükafata Süleyman bu gecə.**
**Otuz illik-- bu əziz şairə qiymət verilir,**
**Yeri var, fəxr eləsə Azərbaycan bu gecə.**
**…Nə olur, Vahid, əgər məclisimiz sakit ola,**
**Oxusun bu qəzəli Zülfi ilə Xan bu gecə.**

**Vahidə ümumxalq məhəbbəti  tarixi Azərbaycanın qüzeyi ilə məhdudlaşmamışdır. Bunu Güney Azərbaycanımızın poeziya Allahı—Şəhriyarın  ölməz sənətkara şəxsi münasibətində də aydın görmək mümkündür:**

**--Bülbül kimi qandır o qızılgüllərə könlüm,**
**Vahidlərə, Vahidlərə--sünbüllərə könlüm.**

**Şair olalı borcludu Sabirlərə könlüm,**
**Vurğundu Süleymanlara, Sahillərə könlüm.**

**1975-ci ildə Vahid Poeziya günü Rüstəm Əliyevin məclisə təqdim etdiyi bu şeirdə məni təəccübləndirən ən çox Vahidin eyni misrada iki dəfə təkrarlanan adı oldu. Böyük söz ustadımız digər misralarda olduğu kimi Vahidin adı ilə yanaşı, misranın tələbi ilə başqa bir şairimizin də adını rahatca çəkə bilərdi. Deməli, o, Sözə müdrik yanaşaraq, Vahid adının yanına bilərəkdən digər bir ismi yazmamaqla, əslində, dahi şairin bölünmüş Azərbaycanımızın hər iki tərəfi üçün məhz VAHİD olduğunu xüsusi nəzərə çatdırmaq məqsədini güdmüşdür. Eyni zamanda, sovet istila şəraitində həyatda və ədəbiyyatda Vahidə az yer verilməsi böyük Şəhriyarımızın da diqqətindən yayınmamışdı…**

**Vahidin xatirəsinin yad edilməsində Anım günü üçün ənənəyə çevrilmiş bir-iki şeir yazmaq dəbini sındırmaq məqsədilə, atamın bu münasibətlə birdən-birə 120 illik Yubleyə 120 qəzəl ilə çıxması Vahid yaradıcılığına münasibətin dəyişdirilməsinə, onun ədəbiyyat tariximizdə öz layiq olduğu yerinə qoyulmasına bir çağırışdır. Fikrimi atamın Vahid barəsində öz lirik qəzəli ilə davam etdirmək istəyirəm:**

**--Haqq sözə, həqiqətə şahidimiz Vahiddir.**
**Şeir-sənət aləminə aidimiz Vahiddir.**
**O çəkib qayğısını dilimizin illərlə,**
**Ülvi söz məbədinə abidimiz Vahiddir.**
**Dildəki hər kəlməni heca-heca söylərsək,**
**Onlara məhək daşı—saitimiz Vaiddir!**
**Nə qədər gözəllik var, eşq olacaq dünyada,**
**Könüldən könüllərə qasidimiz Vahiddir.**
**Qəzəli, qəzəlxanı təhdid edib hər dövran,**
**Bütün dövranlar üçün raşidimiz Vahiddir.**

**Vahid məktəbi keçib, kim ki qəzəlxandı bu gün,**
**Aşiqanə şeirə, sözə validimiz Vahiddir.**
**Min qəzəl yazsa bu gün yüzlərlə Namiqlər (Atalar),**
**Şeir-qəzəl aləmində Vahidimiz Vahiddir!**

**Mən bu kitabın yubiley hədiyyəsi xarakterinə xüsusi diqqət yetirilməsi üçün yuxarıdakı geniş açıqlamanı verdim. İndi isə dahi şairimizin avtobioqrafik cizgilərində bəzi yanlış məqamlara qısa bir nəzər yetirək.**

**Şairin əksər kitablarda yanlış verilmiş təvəllüd ili haqqında. Şairin ən son tarixdə nəşr edilmiş "Qəzəllər"( Şərq-Qərb nəşriyyatı, Bakı-1993; redaktor və ön söz—Baqif Musa) kitabında onun anadan olma tarixi "1895-ci il" verilmişdir. Bu səhvi 2011-ci ildə "Nurlar" nəşriyyatının ensiklopedik məlumat kitabı kimi nəşr etdiyi "Azərbaycan yazıçıları XX-XXI yüzildə" kitabı daha kobud bir tərzdə təkrarlamışdır: " Əliağa Vahid… 1891-ci il oktyabrın 15-də Bakıda anadan olmuşdur" (səh.283). Orta məktəblərin XI sinifləri üçün hazırlanmış "Ədəbiyyat" dərsliyində Ə.Vahid barədə "40-50-ci illər ədəbiyyatı" bölməsində cəmi üç abzas yazı verilib. Burada da şairin doğum tarixi yanlış olaraq "1895-ci il" göstərilib.Elə yerindəcə qeyd edək ki, Vahid hər iki dünya müharibəsinin əleyhinə öz zamanında əsərlər yazmış yeganə Azərbaycan şairidir. Təəssüf ki, həmin dərsliyin müəllifləri bu millətçi-türk, eyni zamanda əsl hümanist-beynəlmiləlçi şairə bu məsələdə də layiqincə qiymət vermək istəməmişlər, "Döyüşən qəzəllərin antifaşist yaradıcılığından bir kəlmə belə söz açmamışlar. Şairin 1942-ci ildə çapdan çıxmış "Döyüşən qəzəllər" kitabı, onun əsgərlərlə keçən gərgin görüşləri, səngərlərdə oxuduğu meuxana və həcvlər,.. ən azından, məhz bu fəaliyyətləri üçün Ə.Vahidə 8.XI.1941-ci ildə Az. KP MK-nın verdiyi Təşəkkürü, habelə ona**

**17.VI.1943-cü ildə Az.SSR Ali Sovetinin Fərmanı ilə Əməkdar İncəsənət Xadimi Fəxri adının verilməsi də dərslik müəlliflərinin Ədəbiyyat tarixinimizə, o cümlədən Vahid poeziyasına, onun ədəbi mövqeyinə və yerinə münasibətdə əski proltkutçu baxışlarına heç bir təsir göstərə bilməmişdir. Bu nöqteyi-nəzər Ə.Vahidin təvəllüdünə münasibətin də qeyri-ciddiliyində özünü bariz göstərib və hələ də göstərir..**

**Bu yanlışı məhz ilk Vahidşünas-alimimiz Məmməd Nuruoğlu ilk dəfə sənədlərlə təkzib elədi. Alim aşkar etdi ki, Vahid 1894-cü ilin 18 fevral tarixində Bakı şəhərində doğulmuşdur. Hörmətli alimin özünə müraciət edək: "Vahid haqqında apardığım tədqiqat zamanı Respublika Əlyazmalar Fondunda (-- indiki Əlyazmalar İnstitutunda), Nizami adına Ədəbiyyat Tarixi Muzeyində, Azərbaycan Dövlət Ədəbiyyat və İncsənət Arxivində saxlanılan sənədlərlə tanış oldum. 1916-cı ildə "Orucov Qardaşları"nın buraxdığı 24 iyun tarixli vərəqdə maraqlı bir məlumata rast gəldim: Vahid təxəllüslü Əliağa Məhəmmədquluzadə 1311-ci ildə, Şəbanın 12-də Bakı şəhərində doğulmuşdur. Həmin hicri tarixi miladi tarixinin 18 fevral 1894-cü ilinə uyğundur. Bu məlumatla Vahidin anadan olan gününü və bu vaxta qədər şairin doğum ilinin səhv 1895-ci il deyil, 1894-cü il olmasını dəqiqləşdirdik" (Bax:"Əliağa Vahid haqqında bildiklərimiz", Şərq-Qərb nəşr., Bakı-1995.,səh.5-6. Tərtibçi Məmməd Nuruoğlu, elmi redaktor Mirabbas Aslanov). Bizcə, bu səhv 1924-ci il oktyabrın 4-də Vahidə verilmiş 2210 nömrəli şəhadətnamədə hicri tarixinin miladi tarixlə yanlış əvəz olunması ərəfəsində baş verib. Bundan əlavə, şairin xalası oğlu, uşaqlıq dostu, əməkdar müəllim Məmmədhəsən Qasımzadə Vahidlə bağlı xatirələrində özünün 1896-cı ildə doğulduğunu, şairin isə ondan bir-iki yaş böyük olduğunu qeyd edir ("Əliağa Vahid**

**haqqında bildiklərimiz", Qərb-Şərq, Bakı-1995-ci il, səh.-95). Eyni zamanda, demək lazımdır ki, Vahidin məzarı üzərindəki doğum tarixi də "1894-cü il" göstərilmişdir.Bütün bunları nəzərə alaraq, şairin 1894-cü ilin 18 fevral tarixli doğum günü onun 120 İllik Yubileyinin məhz 2014-cü ildə əsl xalq təntənəsinə çevriləcəyinə şübhə doğurmur. Vahid, eyni zamanda , paytaxt Bakımızın yetişdirib bütün Azərbaycanımıza bəxş etdiyi əvəzsiz bir dühadır. Onun babası Kərbalayi İsgəndər XIX əsrin ilk yarısının tanınmış Bakı el aşığı Aşıq Həsəni yetişdirmiş Masazır kəndindən, nənəsi Məşədi Pəricahan xanım isə şairlər yurdu Saray qəsəbəsindən olmuşlar. Anası- Səkinə xanım, atası isə Kərbalayi Məmmədqulu (bəzi ehtimalla, əsl adı Məhəmmədqulu) halal zəhmətlə dolanan əsl mömin dindar azərbaycalı idilər. İki qardaşı- Əbdülbağı və Əbdülsalam vardı, bacısı isə olmayıb. Şairin həyat yoldaşı Şəhrəbanu xanım Məçhədi Nəcəf qızı ailəcanlı evdar əsl Azəri qadını olub. Ə. Vahidin iki övladı yaşayır: oğlu Ramiz (1949), qızı Firəngiz (1955). Hal-hazırda şairin xeyli nəvə-nəticələri də vardır. Ölməz şairimiz Vətəni, Xalqı ilə daim fəxr etmiş, onu sonsuz bir məhəbbətlə tərənnüm etmişdir:**

**Könlüm yenə bulbul kimi şeydayi-vətəndir,**
**Məcnun edən aşiqləri Leylayi-vətəndir.**
**…Vahid, elə zənn eylə ki, mən Yusifi-əsrəm,**
**Məşuqə mənə eşqi Züleyxayi-vətəndir.**

**Vahid iri titullar daşıyan həmkarlarının "xalq şairi" adına heç bir irad tutmadan tam səmimiyyətlə yazırdı:**

**Sadə dildə bu qədər incə qəzəllər ki yazır,**
**Bu yetər Vahidin haqqında ki: "el şairidir!"**

**Əslində, bu, tarixə ironiya idi .**

**Vahidəm, şairi-azadpərəstəm, nə qəmim,**
**Qılmasam rəğbət əgər məscidə, bütxanələrə.**

**Bu sözlər köləliyi "bütləşdirənlərə" ünvanlanmışdı.**

**Vahid bəzən lirikanı siyasi satiraya da çevirə bilirdi. Milli-mənəvi haqların qorunmasında hətta "Mənsur" kimi aqibətə hazır olduğunu da açıqca bəyan edirdi:**

**Müxalif əhlinə baş əymə, sən də Mənsur ol,**
**Həqiqət üstə çəkilsən də darə, yalvarma.**

**Bəzən imperiyanın "zvanyapərəstlərinə" satira ilə tarixi qiymət verməkdən də çəkinmirdi:**

**Nə rütbə istəmə,Vahid, nə şöhrət aləmdə,**
**O kəs ki rütbəpərəst oldu, bil, gədalığı var.**

**Şair Vətənin torpaqlarını satanlara xüsusi nifrətlə yanaşaraq, xalqa, vətənə xəyanətin əvəzində firavan yaşayışın həmçinin Allahsız bir yaşayış olduğunu da poetik bir dillə ifadə edirdi:**

**Torpaq olsun çeşminə torpaq satan namərdlərin,**
**Mərd odur ki, düşmənə can versə, torpaq verməsin.**
**…Ruzi fikri çəkmə, Vahid, etiqadın pak qıl,**
**Xəlq edən kəs, naümid olma, dolanmaq verməsin.**

**Vahid elə bir məktəbin nümayəndəsi idi ki, orda müəllimdən nümunə götürmək ən böyük fəxarət idi. Bu mənada, onun öz ədəbi müəllimi Məşədi Azər (Buzonalı Azər Məcid oğlu İmaməliyev) haqqında yazdıqları əslində Azərbaycan ədəbiyyatında ən yanıqlı növhələrdir desək yanılmarıq:**

**Hələ mən Vahidiyəm Azərbaycanımızın,**
**Atəşi-eşqə yanan Azərimiz evdə qalıb…**

**"Ev" dedikdə, heç şübhəsiz , Vahid tarixin "sandığını" nəzərdə tuturdu. Vahid Məşədi Azəri sonsuz bir ilahi sevgi ilə xatırlamış,**

**onu xalqımızın uğursuz zamanda doğulmuş ən dahi şairi hesab etmişdir. Müəlliminin məzarı üzərində Vahidin ona verdiyi bu qiymət, bəlkə də, gələcək tədqiqatçılar üçün əsl çağırışdır:**

**Ədibi-möhtərəm, ey ustadi-şeyri qəzəl,**
**Məaniyi-sədəfi-nəzm içində bir gövhər.**
**Münəvvər etdi vücudilə tirə torpağı**
**Məharətlə kainata sığmayan Azər.**

**Vahidin bağlı olduğu klassik ədəbi mühit yeni—erkən XX əsr Azərbaycan ədəbiyyatının qızıl dövrüdür. Vahid ismi isə ora düşmək üçün bu gün, bəlkə də, yeganə açardır.”Vahid” təxəllüsünün də ona öz müəllimləri tərəfindən verildiyi məlumdur.**

**Bakı şairlərindən, Vahida, indi Yusifdi rəhmətlik,**
**O getdisə, onun indi yerində Azər əyləşmiş.**

**“Azər” ismi Vahid yaradıcılığında Füzuli adı qədər izzətlə çəkilir. Kim bilir, bəlkə, dahi Cavid “Azər” poemasında məhz bu “ustadi-şeyri qəzəlin” xatirəsini əbədiləşdirmək istəmişdir… Vahid şeirdən danışarkən Azər adında həmişə ayrıca fasilə verməyi özünə borc bilirdi:**

**Şeirdən bəhs etmə, Vahid, biz də dünya görmüşük,**
**Şeirdə Azər kimi ustadi-əzəm başqadır!**

**Şair Bakı poeziya məktəbinin hər bir itirilən nümayəndəsi üçün yanıqlı bir səslə fəryad qoparmışdır:**

**Vahid! Hanı Yusif, hanı Səyyar ilə Saqib,**
**Kimdən soraq: ustadımız Azər yenə varmı?**

**Məşədi Azər (1870-1951), Mirzə Əbdülxalıq Yusif(1853-1924), Haşım bəy Saqib (1870-1931), Həsən Səyyar Atayev (1891-1936), Ağadadaş Müniri(1863-1940,) Əbdülxaliq Cənnəti (1855-1931), Əlabbas Müznib (1882-1938), Mikayıl Seydi (1862-1916)və b. şairin yaradıcılığının ilk gənclik dövrünün əsas simalarıdır. Bu dühaları XIX-XX əsr Bakı ədəbi mühiti yetişdirmişdi. Hələ XIX əsrdə Seyid**

**Əzim Şirvani (1835-1888), ədəbiyyatımızın "səramədi-dövran"ı , Bakı ədəbi məktəbini, onun "Məcməüş-şüara" məclisini Şamaxının "Beytüs-Səfa" mövqeyindən xüsusi bir mənzum məktubla yüksək qiymətləndirmişdi. "Bakı şairləri haqqında mədh" adlanan bu mənzumədə xeyli müqtədir bakılı şairin ismi çəkilib: Yusif, Müniri, Sürəyya, Fərqa, Süha, Kəbül-Cəbbar, Mirzəağa Dilxun, Mirzə Müsəvviri və b. Seyid Əzim onları bir-bir mədh edərək poetik nəzmə çəkib:**

**...Yəqubə yetdi pirəhəni-Yusifi-əzəz,**
**Çeşmi-ümidvarə ziyayi-digər gəlir.**
**…Təbi Müniri şəmsü qəmərdən münirdir,**
**Baxdıqca şeirinə gözə nuri-bəsər gəlir.**
**...Pərvin- misal nəzmi Sürəyyadə lütf çox,**
**Ol əxtəri-münirə Süha bisipər gəlir.**
**Şeirayi-şamdır, ona Kəlbül-Cəbar, Mən**
**Bir üstüxani-lütf ilə ol şah əgər gəlir.**
**Dilxun təxəllüsündə bu rəmz oldu aşikar:**
**Aşiqdir, çeşmdən üzə xuni-ciyər gəlir.**
**…Bir yerdə kim Müsəvvirə Seyyid qulam ola,**
**Sairləri cənabına bir xaki-dər gəlir.**

**Bu ixtisarlı beytlər Bakı şeir məktəbinin Ədəbiyyat tariximizdən kənarda qalmış böyük bir xəzinəsinə işıq salır. Nə qədər təvazö ilə deyilsə də, Seyid Əzim kimi bir nəhəng özünü bu gün adını heç kimsənin tanımadığı bakılı şair Müsəvvirə "qulam" səviyyəsinə endirib. Seyidin bu tərifi Rusiya imperiya canişinliyinin siyasi mərkəzinin Şamaxı zəlzələsindən (1859) sonra, Bakıya köçürülməsi ilə bağlı olaraq, Bakıda Şirvan ədəbi estafetinin ələ alınması və çox qısa bir sürədə intibah səviyyəsinə çatdırılmasınadan irəli gəlirdi. Bu, digər tərəfdən, Qədim Bakının XIII əsr azərbaycandilli klassik poeziyasının Nəsir Bakuyidən**

**(Həsənoğlu ilə çağdaş olub) başlanan ənənəsinə bir qayıdış idi. Odur ki, S.Ə.Şirvani Bakının bu yeni mədəni-milli intibahda tarixi rolunu böyük qürur hissi ilə alqışlamışdı:**

**Şirvanə Bakıdan genə çox töhfələr gəlir.**
**San Misr karvanı açılmış, şəkər gəlir...**

**"Şəkər" dedikdə Seyid Əzim yeni Bakıda yaranan klassik irsə qayıdışı, Şərq şeir ənənələrinin dirçəlişini nəzərdə tuturdu.Bu mənzumədə öncə Vahidin ilk müəllimi Yusif (Mirzə Əbdülxalıq Yusif) təriflənib, sonra Müniri ikinci yerə qoyulub. Seyid Əzim şair Sürəyyanı tətifləyərkən, bu parlaq ulduzla- Kəlbalayi Cəbbarla (əxtəri-münirlə) özünə, öz yaradıcılığına iki müxtəlif bürcün—Kəlbi-əsğər (şimalda) və Kəlbi-əkbərin (cənubda) iki məşhur ulduzlarının—Şeirayi-Şamiyyə və Şeirayi-Yamamiyyənin yaxınlığı (bərabərliyi) kimi baxmışdır:**

**Şeirayi-şamdır, ona Kəlbül-Cəbar, Mən**
**Bir üstüxani-lütf ilə ol şah əgər gəlir.**

**Bakı şairlərini tərifləməklə bərabər, Seyid Əzim bəzən onları tənqidə də tutmuşdur. Xüsusən bu, "Şair Yusifə" adlı həcvində özünü qabarıq göstərib:**

**Niyə həcv eyləmisən Cürmini, ey can Yusif!- deyə "Bakı şairləri haqqında mədh" mənzuməsində öz tərifində birinci yerə qoyduğu Yusifi (Mirzə Əbdülxalıq Yusif) öz sənət yoldaşına, Bakı şeir aləminin qocaman nümayəndəsinə, 1880-ci ildən fəaliyyət göstərən "Məcməüş-şüara"nın sədri Məhəmməd Ağa Cürmiyə) qarşı ədalətsizlik göstərdiynə görə çox kəskin tənqid, bəzi mənada, hətta təhqir etmişdir:**

**Məsləhətdir ki, bu şairliyi tərk edəsən,**
**Tazə muzdur olasan kəştiyə losman, Yusif.**
**...Sən də gər Qumru kimi anlamasan qafiyəni,**
**Cəhd eylə olasan ta ki rəcəzxan, Yusif.**

**Bundan sonra Seyid öyüdə keçib, bu istedadlı Bakı şairinə öz son nəsihətini verir:**

**Bəs degilmidir bizə təneyi-ərbabi-cəfa,**
**Bəs degilmidir bizə möhnəti-dövran,Yusif?!.**
**...Eyibdir bir-birini həcv edə ərbabi-kəmal,**
**Bidəmaq olma sözümdən, sənə qurban, Yusif.**
**Qərəzim həcv degildir, bu nəsihətdi sənə,**
**Bədgüman olma sözümdən, sözü bir qan, Yusif.**

**Onu da deyim ki, sonralar məhz Yusifin özü Məhəmməd Cürmini "Məcməüş-şüara"nın sədri vəzifəsində əvəz etmişdir. Dahi şairimiz Vahidə təxəllüsü də məhz şair Yusif (Mirzə Əbdülxalıq Yusif) vermiş, onun digər başqaları kimi "rəcəzxan" (mərsiyəçi və tərifçi-məddah) olmamasını ona qəti məsləhət görmüşdür. Vahid özü bu xüsusda yazırdı:**

**Mənə təxəllüsü Yusif verib dedi, Vahid,**
**Gərək də fərqlənəsən sən bu xudnümalər içində.**

**Aydın olur ki, şair Mirzə Əbdülxaliq Yusif, Vahid poeziya universitetinin birinci simalarından olmuşdur. Deməli, dolayısı ilə, dünyasını cəmi 53 yaşında tərk etmiş dahi şairimiz, ilk maarifçilərimizdən olmuş Seyid Əzim Şirvaninin (1835-1888), onun bu kəskin "qulaqburmasının da" şair Yusifin həm özünün yetkinləşməsində və həm də Vahid barədə uzaqgörənliyində öz tarixi rolu vardır. Vahid həqiqətən heç vaxt öz üzərinə "rəcəzxan" (mərsiyəçi, yaxud məddah) adını götürmədi, Yusifin dediyi kimi bu "xudnümalər içindən fərqlənib", ayrıla bildi. Əlavə edim ki, Seyid Əzim Xan qızı Xurşudbanu Natəvan (1832-1897) həcv etdiyi üçün belə bir qulaqburmasını qarabağlı Abdulla bəy Asiyə də vermişdi. Odur ki, bakılı maarifçi şair Cənnəti öz şeirlərindən birində (Bahar Şirvaninin ölümü ilə bağlı yazıb) məhz Şirvanı "əhli zövq üçün Mədrəsə" adlandırmışdı. S.Əzimin hərdən Bakıya gəlib,**

**“Məcməüş-şüara”nın fəaliyyətinə diqqət yetirməsinə bakılı şair Ağadadaş Müniri (1863-1940) də çox yüksək qiymət vermişdi:**

**Gəldi Bakıya Hacı Seyid Əzim,**
**Cəddi tək vardı onda xülqi-əzim.**
**Gecə-gündüz o mədəni-irfan,**
**Neçə gün qaldı Bakidə mehman...**

**Vahid dühasının parladığı asimanda biz hələ çox planetlərdən və təsirlərdən xəbərsizik. Bununla belə demək lazımdır ki, Salman Mümtazdan sonra, XIX-XX əsr Bakı ədəbi mühitinə ədəbiyyat tarixində çox az sayda tədqiqatçı-alimlərimiz diqqət göstərmişlər. Bunlardan atamın müəllimi, görkəmli yazıçı-ədəbiyyatçünasımız Mir Cəlalın “Poetik məclislər” tədqiqatı, Nəsrəddin Qarayevin “XIX əsr Azərbaycan ədəbi məclisləi” kitabı (“Nurlan” nəşr., Bakı-2010), Cəfər Rəmzinin Bakı şairləri barədə topladığı “Deyilən söz yadigardır” (119 şairin yaradıcılığından qısa məlumat və hərəsindən bir-iki şeir verilib. Yazıçı, Bakı-1977.) kitabı, son zamanlarda isə “Məcməüş-şüara”nın 120 İlliyi ilə əlaqədar olaraq, Şahin Fazilin çox az tirajla ortaya çıxan “Təzkireyi-Şahin” kitabı (“Məcməüş-şüara” şairlərinin son nəslini əhatə edən 800 səhifəlik təzkirə. Qeyd edim ki, Ş.Fazil 1980-ci ildən Rüstəm Samit tərəfindən fəaliyyəti yenidən bərpa edilmiş Bakı “Məcməüş-şüara”sına 1989-cu ildən bəri rəhbərlik edir.) Məhz bu azsaylı və çox qiymətli məxəzlər bu gün Bakı poeziyasının bəhri-Xəzərindən xalqımıza müəyyən məlumatlar çatdıran əsl qiymətli xəzinələr hesab edilə bilər.**

**Vahid zamanında həm öz adından, həm də müəllimi Azərin adından S.Mümtazın klassik irsi toplamaq və qayğı göstərməkdə böyük maddi və mənəvi fədakarlığını, əməyini öz qəzəllərindən birində belə qiymətləndirib:**

Azəra, olmadı bir kimsə, sora hali-dilim,
Çün fələk qərqeyi-girdabi-məlal etdi məni.
Evi abad ola aləmdə yenə Mümtazın,
Sordu əhvalımı, fərxəndeyi-hal etdi məni.

Onu da deyək ki, Məşədi Azərin öz yaradıcılığından bizə qalmış 20.000 misralıq irsi də hələ öz nəşrini gözləyir.Görünür, Azərbaycan ədəbiyyat tarixi elmində klassik irsə baxış müasir tələblər səviyyəsində dəyişilməsə, Ə.Vahidin öz həyat və yaradıcılığı kimi, bütün son iki əsrlik klassik Bakı şeir xəzinəsi də nəinki orta məktəb, hətta professional ali müəssisələrimizin də öyrəncilərinin üzünə hələ çox bağlı olacaq... Burada bir çıxış yolu, dərsliklərdə istiqlql şairlərimizin, o cümlədən Əhməd Cavadın XI sinif dərsliyində "Repressiya və ədəbiyyat" blokunda təqdim edilməsi ənənəsindən yararlanmaq ola bilər. Belə ki, "XX-XXI əslərdə klassik ədəbiyyat ənənəsi" bölümü Bakı poeziya xəzinəsini, o cümlədən Ə.Vahidi ədəbiyyat tariximizdə öz layiqli yerinə qoya bilərdi. Bu şərtlə ki, Azərbaycan sosialist-realizmi ədəbiyyatı da başqa bir blokda yığcamlaşdırılmış olsun: bununla dərslikdə milli-istiqlqlçı ədəbiyyata
(o cümlədən klassik şeirə) lazımınca yer və diqqət verilə bilsin . Əks-halda klassik ədəbiyyatın son iki əsrlik xəzinəsinə qarşı ədəbiyyatşünaslığımızdakı "proltkultçuluğa" hələ uzun müddət son qoyulmayacaq.

Vahidin böyüklüyü bir də onda oldu ki, o, öz müəllimlərinin dərin etimadını sonacan qoruya bildi, min illik tarixə malik Azərbaycan qəzəlini yaşatdı, bununla da, eyni zamanda Azərbaycan muğamatını qorudu, canlandırdı, ona yeni həyat verdi. Əkrəm Cəfər çox doğru olaraq, yazırdı ki, Əruz vəzni mənalı səslərin, səslər kompleksi ola sözlərin musiqisidir. Şeir, "şüur" sözü ilə yaxınlığa malik olmaqla bərabər, lüğəti mənada, bilik, idrak,

duyğu və hissi bildirməklə yanaşı, eyni zamanda, Ə.Cəfərin təbirincə desək, Şeir İnsan ruhunun dilidir. Muğamatını qoruyan xalq öz qəzəliyyatını da qoruyub inkişaf etdirməyi bacarmalıdır. Ədəbiyyata dil mövqeyindən yanaşmadan onun inkişafı mümkünsüzdür. Belə ki, dillər musiqi və vəzn etibarı ilə iki mükəmməl qrupa bölünmüşlər. Bir qrup dillərdə musiqi-vəzn arxitektonikasında çox önəm daşıyan dil hecalarının gücü-zəifliyi onların vurğulu-vurğusuzluğu ilə qeyd olunur. Bu dillərə-rus, alman, ingilis və s. dillər daxildir. İkinci qrup dillərdə isə hecanın güclü-zəifliyi onların uzun-qısalığı ilə müəyyənləşir. Bu dillərə Azərbaycan türkcəsi və digər türk dilləri, yunan, fars, latın, ərəb və d. dillər aiddirlər. Deməli, poeziya yaradanlar, ilk növbədə, yaxşı anlamalıdırlar ki, Şərq əruzu ilə Rus və Qərb şeir vəznlərinin ölçüləri eyni ola bilməz. Əlbəttə, bütün bunları mütləq elmi şəkildə öyrənib bilmək lazımdır...

Vahiddə Azərbaycan musiqisinə, Muğamata bağlılığın genetik kökləri də vardı. Belə ki, şairin yeganə oğlu Ramiz Vahid oğlu atası haqqında xatirələrinin birində babası İsgəndər bəyin müəyyən mərasimlərdə qəsidələrini oxuyub, pul qazandığını söyləyir. Ramizin eşitdiyinə görə, Bakı bəyləri babasına mis, gümüş, bəzi hallarda isə hətta qızıl pullar da vermişlər. Şairin atası Məmmədqulu da mükəmməl Quran təhsili almışdı. Deməli, ailə bünövrədən musiqiyə və maarifə çox yaxın olmuşdur. Şairin musiqiyə xüsusi bağlılığı dahi Üzeyirimizlə birgə fəaliyyətləri üçün də məhz əsas səbəb idi. Tək bir hadisəni xatırlamamaq olmur. Ü. Hacıbəyov müharibə illərində Vahidlə birgə öz fəaliyyətindən danışarkən belə deyirdi:“1941-ci ildə Azərbaycanın böyük şairi Nizami Gəncəvinin anadan olmasının 800 İlliyi bayram ediləcəkdi. Bu münasibətlə mən böyük şairin “İsgəndərnamə” poeması süjetində eyni adda bir opera yazmaq fikrində idim. Operanın liberettosunu mən özüm yazıram, mənzum mətni Ə.Vahid yazır.” Vahidin qəzəllərinin muğam üstə oxunması bir yana, onun xeyli

**əsərinə ayrıca bəstəkar mahnıları da bəstələnmişdir: " Bahar nəğməsi"(C. Cahangirov), "Bəstənigar təsnifi", "Dəli ceyran", "Sevgilim"və i.a. Vahid yaradıcılığında bəstəkarlarımızın, xüsusən Üzeyir bəyin təmas nöqtələri öz tədqiqatını hələ gözləyir. Bu isə ayrıca bir mövzudur…Vahidin Şirvan aşıq sənətinin korifeyi Aşıq Şakirə yazdığı "Bu ceyran" rədifli qoşması da onun xalq musiqisinə nə qədər bağlı olduğunu əyani əks etdirir.:**

**Vahid, deyirlər ki, Aşıq Şakiri**
**Eşqin bəlasına saldı bu ceyran.**

**Hər şeydən əvvəl, Vahid çox qədim kökləri olan Bakı şeir məktəbinin yetişdirməsi idi. Onu da ayrıca vurğulayaq ki, Vahidin ilk mətbu dərcini də məhz onun öz ədəbi müəllimi Məşədi Azər təşkil etmişdi. Şair lenti qalmış bir müsahibəsində bu barədə deyib: "Biz indi Sabirin heykəli olan yerə getdik. Girdik içəri, gördük ki, Seyid Hüseyn, Ruhulla Axundov… oturublar. Azər onlara dedi ki, bu uşaqdan muğayat olun… Məni onlara tapşırdı. Ayrıldıq. Gecəynən bir şeir yazdım, "İqbal" qəzetində səhəri çıxdı." "Olmadı bir ləhzə…" sözləri ilə başlayan bu müxəmməs 1914-cü ilin 4 may tarixində "İqbal" qəzetinin 643-cü sayında ilk dəfə dərc edilmişdir.**

**Bəli, "Azər kimi ustadi-əzəm" heç yanılmamışdı. Vahid Azərbaycan arxivlərinə ümumi həcmi 3100 səhifədən artıq avtoqraf və əlyazmalar qoyub getdi. Onun öz sağlığında "Azərnəşr" tərəfindən 50.000 tirajla nəşr edilmiş son kitabında 350 qəzəli, 1 müxəmməsi, 1 təsdisi və 3 qoşması işıq üzü gördü. Əlbəttə, bu Vahid dəryasından bir damladır. Təkcə onu deyək ki, Vahidin milli novruz bayramımıza həsr etdiyi "Təzələndi" rədifli qəzəli ilk dəfə yalnız 1975-ci ildə nəşr olunan kitabına salınmışdır. Hörmətli müğənnimiz (rəhmətlik) Məmmədbağır Bağırzadə isə**

**onun ğözəl mahnısını Novruz bayramlarımızın gülünə çevirmişdi. Vahidin musiqi səltənəti qəzəliyyatı qədər hüdudsuzdur.**

**Şairin tərcümə irsi isə onun yaradıcılığında öz original əsərləri qədər əhəmiyyət kəsb edir. Vahidin kimləri ana dilimizə gətirdiyi onun millətçi, vətənpərvər mövqeyinin əsl ifadəsidir. O, Xaqaninin 13 qəzəlini, 5 müxtəlif şeirini (288 misra) , Nizani Gəncəvinin "Leyli və Məcnun" poemasından 114 misranı, 10 qəzəlini, 3 qəsidəni (380 misra) , Nəvaidən 554 misra, M.Füzulinin fars divanından 92 qəzəl, 44 qitəni ( 1792 misra) öz Azəri türkcəmizə çevirmişdir… Şair ölməz sənətkarımız Səməd Vurğuna yazdığı bir qəzəlində heç bir mübaliğəyə varmadan çox doğru olaraq deyirdi:**

**Qəsd etsə həsədlə bizi məhv etməyə zalim,**
**Keçməz bizim ərbabi-qələm qatilimizdən.**
**…Vahid, biz o nəxlik ki, bu gülzari-cahanda,**
**Övladi-vətən zövq alacaq hasilimizdən.**

**Vahid xalqa, Vətənə xidmətləri ilə də dərin qürur hissləri duyurdu. Bəzən açıq şəkildə bunu etiraf da edirdi:**

**Biz fəxr eləsək, haqlıyıq insanlığa, Vahid,**
**Xəlqə, Vətənə bir bu qədər xidmətimiz var.**

**Vahid böyük bir məktəbi—Azərbaycan qəzəliyyatını yaşatdı, qorudu, inkişaf etdirə bildi. Lakin yalnız bir məsələdən nigaran qaldı: bu məktəb öz layiqli davamçılarını tapa biləcəkmi? 71 illik bir insan ömrünü titanik bir məşəqqətlə sürərək, o, hakim estetik-ideoloji cəbhəyə qarşı, bəlkə də, təkbaşına dayanaraq mübarizə aparakən daima irəliyə baxmış, bu estafetin layiqli əllərdə ola biləcəyinə əmin olmaq istəmişdi:**

**Ölməmişkən, gözəlim, Vahidə qiymət verir el,**
**O da getsə, Vətənə, xəlqə qəzəlxan kim olar?..**

**Bu həm də çoxəsrlik böyük bir bədii-estetik mövqeyin Tarixə müraciətidir. N.Atabəylinin dahi qəzəlxanın anadan olmasının qarşıdan gələn 120 İlliyinin (18.II.1894—18.II.2014) ümumxalq şənliyinə çevrilməsində ümid etdiyi əsas amil də məhz budur.**

**Bakı Azərbaycan klassik poeziyasının son iki əsrdə ən əsas episentri olmuş, müəyyən mənada, olaraq qalır. Paytaxtımızın elə ətraf kəndi yoxdur ki, oradan bir neçə qəzəlxan, klassik şeir yaradıcısı çıxmasın. Əfsuslar ki, onların əsərlərinin kitab halına salınmasında Sovet dövrü proltkultçuluğunun eybəcər bir forması uzun müddət davam etdiyindən, bu incilər, Seyid Əzimin təbirincə:“... Bakıdan genə çox töhfələr gəlir. San Misr karvanı açılmış, şəkər gəlir...” deməyə heç bir əsasımız qalmır. Çünki Bakı poeziya karvanı bolşevizmin vurduğu zərbədən hələ də dirçələ bilməmişdir. Odur ki, bu poeziyanın bütün Azərbaycanımıza işıq saçan yeganə ulduzu hələ də Vahid olaraq qalır. Ona görə də N.Atabəyli çox doğru olaraq, Vahid poeziya görüşlərinin ənənəsini dirçəltmək üçün məhz Kitab ilə Vahidsevərlərə müraciət etməyə üstünlük vermişdir. Bakı vətənimizdə mətbuat və kitab nəşrinin də ən mərkəzi yeridir. Atamın “Vahidiyəm Azərbaycanımızın...” (Vahidiyəm Azərbaycanımın!) qəzəllər, meyxana və müxtəlif şeirlər kitabı, əminəm ki, bundan belə dahi sənətkarımızın xatırəsini məhz Kitab formatında yad etmək ənənəsinin ilk startı olacaqdır.**

**Məncə, bir sənətkarın yad edilməsində, bəlkə də , elə ən gözəl üsul onun şəninə ucaldılmış Kitab adlanan abidədir. Bakı ədəbi-ictimai mühitinin yetirməsi, böyük milli xadimimiz Şıxəli Qurbanovun kitab haqqında bir qəzəlini burada xatırlamaq çox yerinə düşərdi:**

**Mən öylə bir aləməm ki, hər dəqiqəm bir kitab,**
**Əfsuslar ki, yadda qalmaz oxunulan hər kitab.**

**Göz baxdıqca sözüm vardır bu aləmdə yazmağa,**
**Qoca dünya rəfə bənzər, səma kitab, yer kitab.**

**İnsanlığın əlifbası yazılmamış qələmlə,**
**Bax ətrafa: cocuq kitab, qadın kitab, ər kitab.**

**Hər sənətin qiyməti var sənətkarlar əlində,**
**Nə eybi var, bənna olsun, daş-kəsəkdən hör kitab.**

**Sənət, kitab zinətidir bu dünyanın əzəldən,**
**Sənə nadan zəhər versə, əvəzinə ver kitab!**

**Mənası var qəlb evində nəqş edilmiş hər sözün,**
**Neçə Adəm övladını İnsan etmiş gör kitab!**

**XIX-XX əsrlərin Bakı klassik poeziyasının nəhənglər məktəbi (bunu elə, müəyyən mənada, Qarabağ, Şirvan, Naxçıvan,Tiflis, İrəvan, Gəncə, Lənkəran, Quba... barədə də demək olar) indi artıq mövcud deyil. Biz bu gün yalnız onların böyük xatirələri ilə təskinlik tapa bilərik. Bəlkə, elə buna görə də Azərbaycan qəzəlxanı hələ ki başını yalnız Vahidimizin Bakı yubleylərində qaldıra bilir. VAHİD adı isə etibarlı bir mayak kimi dünya poeziya dəryasında hələ də XXI əsrin yeni Azərbaycan qəzəlinə, qəzəlxanına və bütünlükdə, Ümumazərbaycan poeziyasına uğurlu bir yol göstərir. Ümidvaram ki, qarşınızdakı bu kitab QƏZƏL adlı körfəzə yol alan gəmilərimizdən biri olacaq, onun incə, lətif duyğular və fəlsəfi-lirik fikirlərlə dolu lirika xəzinəsi gözləri VAHİD yolunda olanlarımıza əsl yubiley sevinci bəxş edəcəkdir.**

# 120 QƏZƏL:

*Vahid, elə zənn eylə ki, mən Yusifi-əsrəm,*
*Məşuqə mənə eşqi Züleyxayi-vətəndir.*
*(Ə. Vahid)*

## *1*

## *Mədəniyyət naziri Əbülfəs Qarayev cənablarına*
## *Mənzum məktub*

**Hörmətli cənab Nazir! Səlami-bişümar olsun!**
**Gördüyünüz işlər üçün Sizə canlar nisar olsun!**

**Dahi Vahidimiz bizə yeni il salamə gəlir,**
**Onun 120 İlliyi gərək bir iftixar olsun!**

**Söz qananlar hüzurunda Sözün böyük qiyməti var,**
**Vahid dərin bir hikmətdir, qanmayanlar kənar olsun...**

**Gülün qədrin bülbül bilər, qarğa nədir nəğmə deyə?**
**Bülbüli-nəğməkar üçün gərəkdir laləzar olsun.**

**Şeir-qəzəl aləmində Vahid qoydu tək imzasın,**
**Nizami, Füzuli, Seyyid... qəlblərdə bərqərar olsun.**

**Vahid sözü bir dürridir şeiri-əhli-irfan üçün,**
**Onun hər bir Qızıl beyti dillərdə bir şüar olsun.**

**Gərəkdir ki, şeir lafın eyləyə əhli-hal bir kəs,**
**Vahid adı qədir-qiymət tapıb, dürri-şəhvar olsun.**

**Oxu, ey tar! Cəngü-dəfü-kaman dinib, könül açsın,**
**Şeyri-məclis əhli Sözdən, musiqidən huşyar olsun!**

**Qoy ayılsın o kəslər ki, içib qəflət şərabından,**
**Vahid sözün eşitdikdə, dərhal dəfi-xumar olsun.**

**Sürudi-şeir ilə min suzi-gudaz eylər güllər,**
**Nədən Abişeron dönüb yenidən şurəzar olsun?..**

**Muğam irsi etibarlı əllərdədir, şükür, bu gün:**
**Qoy MEHRİBAN könüllərdə Qəzəl eşqi üstvar olsun!**

**Başlarda şuri-eşq artıb, səfayi-təb versin min zövq,**
**Məqami-nəzmdə bizə VAHİD bir pişəvar olsun!**

**Bir Vahidi-dürdanəni təqdimə ehtiyac yoxdur,**
**Yetər ki, dürrü axtaran ləlidən xiridar olsun.**

**Sizə, Əbülfəs müəllim, çoxdur bizim hörmətimiz,**
**Qarayevlər nəsli gərək nur içrə namidar olsun.**

**Ata, dahi sənətkara əsl qiyməti xəlq verib:**
**Qədirbilən xəlqimiz, həm Vahidimiz var olsun!**

**2**

**Biz Vahidi gəlin salaq, ey arifi-huşyar, yada,**
**Xatırlasınlar bizi də olmayanda bu dünyada.**

**O qoruyub, yaşadıbdır, ucaldıbdır qəzəlxanı,**
**Bu sənətdə çox şeyləri biz borcluyuq o ustada**

**Saf Nəsimi, Şah Xətai, Füzuliylə Seyid Əzim**
**Zirvəsidir Vahidimiz!—çətin kimsə ora çata…**

**Məhəbbətsiz ömür heçdir, --söyləyibdir böyük ustad,**
**Vahidin pak gözləriylə gəlin baxaq bu həyata.**

**Bütün aləm bülbül olub, nəğmə deyə gecə-gündüz,**
**Düşməlidir Vahid adı ondakı hər nəqarata.**

**Şairi sevməyənləri insanlıqdan kənar bilək,**
**Belələri yaxındır, bil, insandan çox həşərata.**

**Vahid daim çarpışıbdır qəzəl üçün dövran ilə,**
**Atıb ölməz imzasını əbədilik qəzəlata.**

**Nə qədər ki, həyat vardır—məhəbbət də, nəğmə də var:**
**Şanlı həyat verib Vahid  qəzəlilə Muğamata.**

**Atam, biz də hörmət ilə baş əyirik qarşısında,**
**Vahid adı əsrlərcə layiqlidir fəxarata.**

**3**

**Musiqi, şeir əhli xoş buyurub xanəmizə:**
**Oxuya qəlbimizi şövq ilə cananəmizə.**

**Vahidin Ad Gününün 120 İlliyidir!—**
**Musiqi rövnəq verib rövzeyi-rizvanəmizə.**

**Sübh üzü büryübdür aləmi xanəndə səsi,**
**Qoşulub bülbüllər məhəbbət təranəmizə.**

**Bu gün Əlibaba ilə Arifə biz baş əyirik,**
**Göstərib bu xatiri hər iki Piranəmizə!**

**Bu  Alimin səsidir, silsileyi-zənguləsi**
**Xoş gəlir zəncirdə gör neçə divanəmizə!..**

**Ağaxan, Mənsum ilə çıxa bilməz yadımızdan,**
**Onlardır şərəf verən mehri-dirəxşanimizə.**

**Zahidi, Sabiti də niyə  burdan ayrı tutaq,**
**Çağıraq Əvəzxanı musiqi kaşanəmizə.**

**Sərxanın, Mirpaşanın bal tökülür dodağından,**
**Bu arı-gülbeçələr daraşdıqca şanəmizə…**

**Musiqi məclisinin silək bu gün qəm notunu,**
**Qayıdaq Vahid ilə bir Qəzəl əfsanəmizə:**

**Zəmanə pürxundur, yoxdur bir şey könül açan,**
**Ümidi bağlamışıq badeyi-peymanəmizə.**

**Oxu, tar! Tək sənsən ruhumuza munis olan,**
**Qoyma qəm basqın edə bu gecə meyxanəmizə.**

**Eyy Ata, yenə əziz xəlqimizi min yaşasın,**
**Odur əsl qiymət verən Vahidi-dürdanəmizə!!**

**4**

**Haqq sözə, həqiqətə şahidimiz Vahiddir.**
**Şeir-sənət aləminə aidimiz Vahiddir.**

**O çəkib qayğısını dilimizin illərlə,**
**Ülvi söz məbədinə abidimiz Vahiddir.**

**Dildəki hər kəlməni heca-heca söylərsək,**
**Onlara məhək daşı—saitimiz Vaiddir!**

**Nə qədər gözəllik var, eşq olacaq dünyada,**
**Könüldən könüllərə qasidimiz Vahiddir.**

**Qəzəli, qəzəlxanı təhdid edib hər dövran,**
**Bütün dövranlar üçün raşidimiz Vahiddir.**

**Vahid məktəbi keçib, kim ki qəzəlxandı bu gün,**
**Aşiqanə şeyrə-sözə validimiz Vahiddir.**

**Min qəzəl yazsa bu gün yüzlərlə Namiqlər,..**

**Şeir-qəzəl aləmində Vahidimiz Vahiddir!**

**5**

**Dedim:- Ey gül, nə gözəl gülzarda hal eyləmisən?**
**Dedi:- Boş eşqə düşüb, fikri-xəyal eyləmisən.**

**Dedim:-Səndən ötəri bütün canımdan keçərəm,**
**Dedi:-Bihudə yerə cana zəval eyləmisən.**

**Dedim:-Gər sən olmasan, çöli-biyabandı yerim,**
**Dedi:-Sən də özünü Məcnun misal eyləmisən.**

**Dedim:-O Ay üzünü görməyə könlüm can atır,**
**Dedi:-Yoxsa məni bir mahi-cəmal eyləmisən?**

**Dedim:-Eşq məktəbində Məcnunlara dərs demişəm,**
**Dedi:-Çoxmu dəlini əhli-kəmal eyləmisən?**

**Dedim:-Mən istəmirəm dərdimə əğyar da gülə,**
**Dedi:-Asan işini neçin məhal eyləmisəm?**

**Dedim:-Ahu gözünü qıyma mənə baxanda sən,**
**Dedi:- Qaşımı, Atam, çoxdan hilal eyləmisən.**

**6**

**Təpədən dırnağacan bu gün şərab içindəyəm.**
**Məni dindirməyiniz, min iztirab içindəyəm.**

**Dünyada deyirlər ki, çoxlarından huşiyaram,**
**Bu necə ayıqlıqdı, sonsuz bir xab içindəyəm.**

**Məzlumun göz yaşından aləmi daşqın, sel alıb,**
**Mənəm o Nuh gəmisi, tamamən ab içindəyəm.**

**Oxuyub alim oldu çoxu kağız-qələm ilə,**
**Anadan olan gündən mən də kitab içindəyəm.**

**Dinləmək istəmirəm bülbüli-bədxuları mən,**
**Rövzeyi-cənnətdə əsil rübab içindəyəm.**

**Deməyin şəm başına dolanar çox pərvanələr,**
**Manqalda közə dönmüş bağrı kabab içindəyəm.**

**"Mahur-Hindi","Bayat-Qacar," "Şahnaz," "Orta Mahur" keçib,**
**Atabəy, "Məsihi" tək çoxdan "Rəhab" içindəyəm.**

**7**

**Nə veribdir alacaq bivəfa cananə bizə?**
**Eyləyib min cürə qəsd indiyəcən canə bizə.**

**Bu gecə zülmətində kimdir gedən şamə sarı,**
**Nə bilir oddan özgə öyrədə pərvanə bizə?**

**İbn-Səlamə uyan Leyliləri nədən sevək,**
**Hələ Məcnun da durub söyləyə divanə bizə.**

**Cəmi aləm qapayıb üzümüzə qapıların,**
**Bəlkə, bir qapı aça meykədə, meyxanə bizə.**

**İçmişik şamü-səhər unutmaqçın dərdimizi,**
**Min şərab eyləməyib bir tikə peymanə bizə.**

**Yusifi-Misr kimi düşmüşük eşqin oduna,**
**Yoxdu bir Züleyxamız baş çəkə zindanə bizə.**

**Ataya qədir bilən xəlqimiz qiymət verəcək,**
**Verə bilməzsə də, bu qiyməti zəmanə bizə.**

**8**

**İnsan olana, birinci, vicdanı gərəkdir.**
**Həm sözündə, həm işində insani gərəkdir.**

**Kimsə bu böyük dünyada boşdan iş edənməz,**
**Hər kəs nə elərsə, ona imkanı gərəkdir.**

**İllər uzunu hey düşünür, kəşf edir alim,**
**Qəhrəmana gördüyü iş ani gərəkdir.**

**Yerdə olanın əşrəfidir deyirlər insan,**
**Allaha pənah gətirən kəs fani gərəkdir.**

**Dərya dibinə hücum çəkir şövq ilə qəvvas,**
**Dərya özü yox, ordakı mərcanı gərəkdir.**

**Leylini edib tərk , qaçır səhraya Məcnun,**
**Bəhanədir eşq, ona biyabani gərəkdir.**

**Dövran, Atabəy, qəzəli dərk eyləsin deyə,**
**Vahid kimi bir dahi qəzəlxani gərəkdir.**

**9**

**Qəm yemə, gəl, dünyəvi-aləm belə qalmaz,**
**Min dərdin ola könüldə: bu qəm belə qalmaz.**

**Solmuşsa da, gül bağçamızın rövnəqi, hərgah,**
**Bülbül nə qədər ağlasa, matəm belə qalmaz.**

**Ömrün nə qədər başdan aşan dərdləri varmış,**
**Gəl, badə içək kef ilə, bu dəm belə qamaz.**

**Əğyara uyub, tərk eləyib yar bizi çoxdan,**
**Əğyar özü də bilər ki, həmdəm belə qalmaz.**

**Tək-tək  bu gözəllər ki, vəfasız çıxır eşqə,**
**İnanma bu təklərə sən, cəm belə qalmaz.**

**Yoxdu o gözəllər ki, qəlbə zövq verərdi,**
**Ol  bəzmimizin zövqü bizə kəm belə qalmaz.**

**Yar da, Atabəy, küsübdü bizdən demə tez-tez,**
**Bir gün dəyişər, həmişə ötkəm belə qalmaz.**

## 10

**Məcnun səhrada ölüb bivəfa Leylaya görə.**
**Bülbüllər ağlar qalıb bir güli-rənaya görə.**

**Silə bilməz Şirin öz üstündən vəfasız adın,**
**Fərhadın satdığı bir Xosrovü-Kəsraya görə.**

**Yusifi-Misr necə öz bəxtindən razı idi,**
**Zindana düşməsinə səbəb Züleyxayə görə.**

**Eşq bir meydandır, hər kəsdən aşiq çıxmaz,**
**Aşiqi-yar tanınar çəkdiyi cəfayə görə.**

**Bir Qədr gecəmizi sübhə kimi yatmadıq heç,**
**Uca Allahımıza könüldən əhyaya görə.**

**Vahidin Yubileyinə, Atam, tarix imza atar,**
**Qol qoysa şair Tağı, bəlkə, bu nüktayə görə.**

**PS: şair Tağı Sadiq (Əhmədov), Bakı Metropliteninin rəisi.**

**11**

**Söymə, ey dil, fələyə dövri-binadən belədir.**
**Dünya sürgün yeridir, hökmi-xudadan belədir.**

**Çəkər aşiq dərd-qəm sevgili dildarı üçün,**
**Bu da bir taledi ki, eşqi-bəladan belədir.**

**Dağılıbdı nigarın qara zülfü üz-gözünə,**
**Bunu dərd etmə, könül, badi-səbadan belədir.**

**Çəkər haqq yolda olan həqiqət uğrunda cəfa,**
**Tək bizim tale deyil, Kərbübəladən belədir.**

**Cana qəsd etdi Şirin görəndə Xosrovu köçüb,**
**O, bizim gözəllərdi, əhdi-vəfadan belədir.**

**Güli-gülzarımızın minlər ilə bülbülü var,**
**Bu, bizə məxsus olan zövqü-səfadan belədir.**

**Hələ Məcnunları eşq çox salacaq səhrayə,**
**Bu, bizim Leylilərə həmdü-sənadan belədir.**

**Verilib yaxşılığın yamanlıqla hər cavabı,**
**Yoxdu dünyada günah, əhli-riyadan belədir.**

**Atabəy, qəm ruhlu qəzəlləri az yaz sən,**
**Bunu Namiqdi bilən: cövri-cəfadan belədir.**
**PS: Son beytdə qəzəlxan Namiq Axundov (1934-2001) nəzərdə tutulur.**

**12**

**Dedim:-Ey gül, özünə könlümü yar eyləmisən,**
**Dedi:-Öz qəlbini sən dərdə düçar eyləmisən.**

**Dedim:- Xaki-payını Kəbə bilib mən öpmüşəm,**
**Dedi:-Kama yetməyə ümidin var—eyləmisən!**

**Dedim:-Könlüm ahına dünyəvi-aləm yığışıb,**
**Dedi:-Dövrəmdə bütün xəlqi kənar eyləmisən.**

**Dedim:-Eşqinlə sənin bülbül tək hey ötərəm,**
**Dedi:-Gülşəndə neçin naləvü-zar eyləmisən?**

**Dedim:-Məcnun eləyib, salma məni biyabana,**
**Dedi:-Leyli adımı sən də şüar eyləmisən.**

**Dedim:-Fərhad kimi mən dağ-daşa dırmanmamışam,**
**Dedi:-Sən öz eşqini bir az kübar eyləmisən.**

**Dedim:-Qorxum odu bir gün satasan Atabəyi,**
**Dedi:-Vəfalı yara sən etibar eyləmisən!**

**13**

**Quyunun dibindəyik biz doğulan gündən haman.**
**Allahın quyusudur, özgə bir şey deyil cahan.**

**Quyudan ömür boyu qurtuluşa can atsaq da,**
**Dünyada bu quyudan olmayıbdı xilas olan.**

**Oturub bu quyuda gözlədik hey dost köməyi,**
**Amma bir ömür boyu olmadı heç əl uzadan.**

**Kəndirin bir ucu da Allahın öz əlindədir,**
**Buna Qismət deyirik, varmı onu qırıb qaçan?..**

**Ümid də göylərədir sallandıqca uzun kəndir,**
**Qəlbini buz elə sən, çəkməyəcək göydə duran…**

**Qapı var--Cəhənnəmdir, bir qapı var-- Cənnət özü,**
**Açılar üzə biri axır-əvvəl ,bil, ey insan!**

**Deyək, Allah kərimdir, quyusu da çox dərindir:**
**Ata  tək səbirli ol bu quyuda, Quyuməkan!!.**
**PS:  müəllifin son "Kəndir " poemasından.**

**14**

**Yenə qəlbimdə mənim cuşə gəldi  "Şur"  səsi,**
**Xanımın,  Hacıbabamın, Yaqubumun gur səsi.**

**Çəkib hardan-haraya Şuşaya qaytardı məni,**
**Qədir Rüstəmovumun həmən o məhşur səsi…**

**"Bərdaşt"la, "Əraq-Kabil," "Herat" gəzdik "Zil-Qatar"da,**
**Rübabə  Ərdəbilə  yetirdi  "Mahur"  səsi.**

**Əlibaba Ariflə, Alim də Zahid ilə,**
**Ağaxansa Mənsum ilə qaldırdılar sur səsi.**

**"Üşşaq" "Hüseyni"də "Raki-Hindi" dolaşdım mən,**
**"Pəncgah"la  "Rak Xorasan" "Rast" etdi  fəxfur səsi…**

**"Çahargah","Zabil-segah," "Bayati-Şiraz" istərəm,**
**"Hümayun," "Şüştər" ilə yaşayam  "Mənsur" səsi.**

**Ey Atam, nə olaydı Arazımı bölüb iki,**
**Xəlqimi qurtaraydı əsarətdən Tur səsi!..**

**15**

**Uçurdu gör necə də çərxi-fələk xanəmizi,**
**Dağıtdı ədnalar badeyi-peymanəmizi.**

**Biz içib məsti-xumar olmuş idik bircə gecə,**
**Sübhdən bayquş səsi pozdu bu məstanəmizi.**

**Necə xoş dəmlər idi huriyi-qılmanlar ilə,**
**Əduyi-əğyarlar qapatdı meyxanəmizi.**

**Hanı dost, hanı qardaş?—yoxdu yanan dərdimizə,**
**Bizim də yad edələr gənceyi-viranəmizi.**

**Qoy solan güllər üçün ağlasın bülbül özünə,**
**Biz xərabatilərik: ağlarıq canasənəmizi…**

**Eyy Ata, vaiz ağzı verərsə fənayə bizi,**
**Yaşadar əhli-qələm dillərdə əfsanəmizi.**

**16**

**Hüsnün necə bəxtin kimi əfşanədir, ey gül.**
**Siman da vüqarın kimi şahanədir, ey gül.**

**Gör neçə Məcnunları sən odlara yaxdın,**
**Rəngin də ürək qanına nişanədir, ey gül.**

**Dünyada səni busələrə qərq eləyənlər,**
**Bir gör özü nə can ilə cananədi, ey gül.**

**Hər kim ki görüb, hüsnünə heyran kəsilməyib,**
**Hal əhli deyil, həyata biganədir, ey gül.**

**Şövq ilə yazır qərqəzəl eşqdən Ata çoxdan ,**
**Güldən savayı nə yazsa əfsanədi, ey gül!**

**17**

**Bu gedən nazlı yarın nazına qurban mən olum,**
**Gülü bülbül çağıran yazına qurban mən olum.**

**Qara zülfün tökərək niyə örtüb Ay qabağın,**
**Belə vas-vası yarın vasına qurban mən olum.**

**Hamı aləmə baxıb, təbəssümə qərq eləyib,**
**Bizə dodağın büzən ağzına qurban mən olum.**

**Qırılan hər telinin hesabı var ürəyimdə,**
**Hər şəhid gedən zülfün yasına qurban mən olum.**

**Elə bil tovuzdu ki, uçmağa amadə durub,**
**Bu yarın qanadlı pərvazına qurban mən olum.**

**Atabəy, böylə gözəl zəmanə tək-tək yetirər,**
**Bu cəmi gözəllərin xasına qurban mən olum.**

**18**

**Gül üzün bülbülə, bülbül üzünü yarə tutar,**
**Ola min dərdim ona nazlı nigar çarə tutar.**

**Kimə lazım o gözəllər ki, vəfası yoxdu,**
**Dönüb ədnayə tərəf, meylini əğyarə tutar.**

**Qəlbə aşiq olanın qəlbi də aşiqdə olar,**
**Usta tarizən üzün xanəndəyə, tarə tutar.**

**Eşqini pünhan edən Məcnunun axırı nədi?—**
**Əsl aşiq işini dəhrdə aşkarə tutar.**

**Yar vəfa əhli isə aşiqi vəslə yetirər,**
**Adil hakim sözünü yekunda qərara tutar.**

**Atası, yurdumuzun qəzəlxanı indi mənəm:**
**“Bayat-Qacar”da sonu həzin “Zəminxarə” tutar.**

**19**

**Gəl, zülfünü çək sən darağa, şanəsi qalsın,**
**Zülfündən onun üstündə bir danəsi qalsın.**

**Yandır məni öz eşqinə bir şəm kimi, ey şux,**

**Ruhum o şəmin üstündə pərvanəsi qalsın.**

**Süzgün baxışın könlümü sərxoş eləyibdir,**
**Ömrün boyu səndən mənə peymanəsi qalsın.**

**Aşiqin özü zindana saldırdı Züleyxa,**
**Zəncirdə onun Yusifi-divanəsi qalsın.**

**Fərhad başına qayalarda külüngü çaxdı,**
**Öldükdə onun yerində cananəsi qalsın.**

**Boş çöllərə üz tutmağı Leyli deməmişdi,**
**Məcnun özü etdi bunu əfsanəsi qalsın.**

**Eşqdən Atabəy çox yazır indi, səbəb ancaq,**
**Dillərdə beş-üç qəzəli, meyxanəsi qalsın.**

**20**

**Salıbdır başımızı gör necə də qanə gecə.**
**Veribdir qeybət üçün əllərə bəhanə gecə.**

**Yenə də qara zülfün Leyli tökübdür üzünə,**
**Yenə Məcnunu salıb çöllərə divanə gecə.**

**Bizə bülbül nə gərək, yatıbsa o, sübhə kimi,**
**Gəlibdi bülbül tək könlümüz əfqanə gecə.**

**Bu gecə zülm gecə, dərdi-qəmə ölüm gecə,**
**Bizimçin, gülüm, necə dopdolu bir məna gecə.**

**Gündüzü qarə keçən bəxti qarələr nə bilər,**
**Ömürdə ağ günüdür yarla hər insanə gecə.**

**Ləbi bal, dişi mərcan, yanaqları lalə özü—**
**Qoymayıb söz deməyə bir şirin dəhanə gecə.**

**Bu gecə kef üstünə kef qalayır atəş ilə,**
**Bir kimsə baş əyməyir bir əmrə, fərmanə gecə.**

**Nə gülə, çəmənzara yoxdu bizimçin ehtiyac,**
**Gözəllik aləmidir qəlbə güli- rəna gecə.**

**Hamı aləm səsini kəsibdi burdan- buraca,**
**Qoparıb ərşi-tufan meykədə, meyxanə gecə.**

**Qol açıb rəqs eləyir çərxi-fələk dayanmadan,**
**Bütün aləm oyanıb oynaya rəqsanə gecə.**

**Atabəy, ələ düşməz bir də bizimçin belə dəm,**
**Bu gecə bütün gecə ömürdə əfsanə gecə.**

**21**

**Gəlibdir şövqə bu gün gör nə qədər can Bakıda.**
**Qurubdu aşiyanın hər azad insan Bakıda.**

**Çağırır gülü bulbul, bülbülü də çəmənzarı,**
**Qəlblərə fərəh verir bağü-gülistan Bakıda**

**Hamı dost, hamı qardaş, yaşayırlar şad-xürrəm,**
**Millətlər qardaş olur, gəlib mehriban Bakıda.**

**Hər yeri, hər qarışı gözəlliyin görüş yeri,**
**Könüldən könüllərə yoxdu bir hicran Bakıda.**

**Novxanı, Binəqədi, Zirə, Saray, Biləcəri,**
**Nardaran, Kürdəxanı, Qala, Mərdəkan-Bakıda.**

**Xırdalan, Xoşaxuna, Corat, Məhəmmədli, Zığ,**
**Masazır, Əhmədli, Maştağa, Türkan-Bakıda.**

**Görədil, Bakıxanov, Bayıl, Qaraçuxur, Zabrat,**

**Dübəndi, Lökibatan, Bülbülə, Şağan- Bakıda.**

**Fatmeyi, Pirallahı, Dədə Qorqud, Piraşağı,**
**Ramana, Qobu, Bilgəh, Güzdək, Qobustan- Bakıda…**

**Od, işıq mənbəyimiz Böri Metey vətənidir,**
**Müqəddəs Suraxanı, atəşgah-naran Bakıda.**

**Bu gözəl Abşeronun torpağı bir cənnətdir,**
**Dil açıb nəğmə deyir yayi-qış hər yan Bakıda.**

**Pavel Sisyanovun cüllüt başın burda kəsib,**
**Bakıxan Hüseynqulu bəy kimi aslan Bakıda.**

**Rəhimə, Hökumə tək möminələr burda yatır,**
**Mir Möhsün  ağa kimi var əziz mövlan Bakıda.**

**Müşfiqi,  Vahidi var,Cəfəri  var, Qarası var,**
**Nəbi, Səttar, Cabir… yaradıb dastan Bakıda.**

**Üzeyir məktəbinin muğları burda yetişir,**
**Qarabağ şikəstəsin oxuyur nalan, Bakıda.**

**Bir millət atasıdır Hacı Zeynalabdin ağa,**
**Açıbdır maarifə, sənətə meydan Bakıda.**

**Vura bilməz şovinist damğasın kimlərsə bizə,**
**Yaşayır yetmiş iki millət firavan Bakıda.**

**Qələbə soraqlıdır, Qız qalası hazır durub,**
**Eyləyə düşmən üstdə zəfəri elan Bakıda.**

**Öz qədim mədəniyyət şəhərimdir, yaxşı baxın,**
**Birləşib yumruq tək Azərbaycan Bakıda.**

**Atabəy, bundan belə həyat daha xoş keçəcək,**

**Sürəcək millətimiz bir yeni dövran Bakıda.**

**PS: şeir Ə.Vahidin "Vardır indi, gözəlim, başqa məlahət Bakıda" mətlə-beytinin təsiri ilə yazılıb.**

**22**

**Səndən savayı aləmə biganədi könlüm.**
**Hüsnün görəli hüsnünə divanədi könlüm.**

**Dünya dolu aşiqdi, fəqət, ey güli-rəna,**
**Əhdə sədaqətdə də bir danədi könlüm.**

**Eşq aləminin Məcnunu, Fərhadı ölübdü,**
**Eşqin o şəhidlərindən nişanədi könlüm.**

**Gəl, eyləmə könlüm evini xərabə, rəhm et,**
**Eşq əhlinə bir gör necə kaşanədi könlüm!**

**Bir tutma vəfada Atabəy ilə gədanı,**
**Eşqinlə bütün dillərdə əfsanədi könlüm.**

**23**

**Ey məni dərdə salan nazlı nigar, de hardasan?**
**Gözümü yolda qoyan laləüzar, de hardasan?**

**Ömrümü verdin yelə bir vüsala yetmək üçün,**
**Qalmadı ürəyimdə səbri-qərar, de hardasan?**

**Çıxıb ahu ovuna çöl gəzirəm boş-boşuna,**
**Bəxtimə azıb gələn körpə şikar, de hardasan?**

**Bülbüləm, bağrı yanıq, hanı mınim gülüstanım,**
**Bağçamı tərk eləyib gedən bahar, de hardasan?**

**Yusif-Misr kimi zindanımda gün sayıram,**

**Ey mənə Züleyxamdan gələn əxbar, de hardasan?**

**Vəfalı dilbər ilə and içib, söz kəsmiş idik,**
**Təmiz eşq-məhəbbətə əhd-etibar, de hardasan?**

**Atabəy, "Mahur" ilə taleyimə "Rast" düşmədim,**
**Ömrü Şuşaya çəkən ey "Zil-Qatar", de hardasan?..**

**24**

**Yıxıbdır, ey əhli-hal, ayaqlara badə məni.**
**Aparın bir gecə də muği-xərabatə məni.**

**Məni bu al şərabın təsiri yıxmazdı yerə,**
**Verməsəydi yar özü əğyar ilə badə məni.**

**Saqiya,  o al rəngli şərabdan çox süz qədəhə,**
**Ağıl üstümdə ikən dərd çəkir fəryadə məni.**

**Budur, eşq gülzarında bülbüllər ahu-zar edir,**
**Dillən, ey naleyi-ney, sən də et ifadə məni.**

**Hanı dost, hanı qardaş, dərdimə həmdəmim yoxdu,**
**Allahım tək yaradıb özünə dünyada məni.**

**Saqiya, içməyəndə ölüdür cismimdəki can,**
**Bir badə şərab gətir, qaytarsın həyata məni.**

**Yıxsa da könlüm evin, Atabəy, min cövri-cəfa,**
**Bir qələm tutan əlim qaldırar ayağa məni.**

**25**

**Amandır, gözəl yarım, gözlərinə sayə dəyər,**
**Zülfinin bircə teli min güli-rənayə dəyər.**

**Karıxıb, bircə kərə ayaq bassan can evimə,**
**Qədəmin könlüm üçün cənnətül-məvayə dəyər.**

**Səni gördüyüm gündən mən bir könül xəstəsiyəm,**
**Mənə bir xoş baxışın min dərman-dəvayə dəyər.**

**Neylirəm Şirinləri, onların öz Fərhadı var,**
**Mənə öz nazlı yarım neçə Züleyxayə dəyər.**

**Kərəm lap dəli imiş yanarkən Əsli oduna,**
**Mənə bir müsəlmanım yüz elə tərsayə dəyər.**

**Nə olur, yar görüşə gəlib məni xoşbəxt edə,**
**Eşq ilə keçən bir an ömürdə min ayə dəyər.**

**Tərifin az etmişik , Atabəy, biz  gözəllərin,**
**Onların hər birisi bütün bu dünyayə dəyər.**

**26**

**Nə edək taleyə biz, tale bizə yar olsun,**
**Getsin şaxtalı qış, ömürlər bahar olsun!**

**Sevgidə aşiq ilə məşuqun qəlb sirləri var,**
**Niyə bu sirlər axı aləmə aşkar olsun?!**

**O  necə eşqi-məhəbətdi ki, bir ömür boyu,**
**Göz yaşı tökən—aşiq, sevinən-- əğyar olsun.**

**Daş-qaya çapa-çapa Fərhad özün məhv elədi,**
**Şirinlə keyf sürən Xosrovü-xunxar olsun?!**

**Mənə öz nazlı yarım çox uzaqdan soyuq baxır,**
**Uca dağların başı, deyir, şaxta-qar olsun.**

**Gülün eyninə deyil niyə bülbül qan ağlayır,**
**Bu necə qaydadır ki, gülün yanı xar olsun?**

**Çoxu xiffət eləyir qızıl-gümüş dərdi ilə,**

**Daha bilmir xəzinə üstündə şahmar olsun.**

**Canana can deməyin quru dillə nə faydası,**
**Canı canana verən işdə fədakar olsun.**

**Atabəy, məhəbətdə sədaqətdir birinci şərt,**
**Bir yerdə sevgililər gərək bəxtiyar olsun!**

**27**

**Çatdır, ey badi-səba, yarə bizim naməmizi,**
**Əğyar ədnalıq edib dağıdıb meyxanəmizi.**

**Saqiya, badə gətir, dərd üstündən şərab içək,**
**Bəlkə, qaytaraq geri bir daha peymanəmizi.**

**Fərhadla Məcnun ölüb, onları eşq məşhur edib,**
**Biz hələ ölməmişik, yaylblar əfsanəmizi.**

**Yıxılıb könlüm evi, üstündə bayquş ulayır,**
**Göstərə aləmə bu gənceyi-viranəmizi...**

**Qəlbə min cövri-cəfa yar eyləyib, əcəb edib,**
**Verməri̇k biz ayağa ölsək də, cananəmizi.**

**Bizə ağıl nə gərək? Saqi, şərab süz, biz içək:**
**Gətirək göz önünə Bəhluli-Danəndəmizi.**

**Tutalım qəzəl yazıb, aləmə məşhur olduq,**
**Atabəy, hardan tapaq Xan kimi xanəndəmizi?!**

**28**

**Nə deyim, gözəl nigar, könlümü qan etdiyinə,**
**Çəkib qara telini, üzünü yan etdiyinə?!**

**Biz ki pak məhəbbətə and içib, söz vermiş idik,**
**Nə deyək əğyarı sən qəlbə mehman etdiyinə?**

**Bütün aləm adını Leyli deyib çağırardı,**
**Başına Məcnun kimi mən də dövran etdiyinə.**

**Vurdu kim aramızı, bunda mənim günahım yox,**
**Peşmansan, bəlkə, özün əhdi-peyman etdiyinə?!**

**Şirinə oxşama gəl, tərsa satdı Fərhadını,**
**Baxmazmı müsəlmana bəs müsəlman etdiyinə?**

**Nə vaxtdı göz yaşlarım axır fəraqınla sənin,**
**Nəzər qıl damcıları Bəhri-Ümman etdiyinə.**

**Veribdir öz canını Atabəy sadağa sənə,**
**Varsa, keç günahından canın qurban etdiyinə.**

**29**

**Hər bir gözəlin dünyada divanəsi vardır,**
**Hər aşiqin öz məhəbbət əfsanəsi vardır.**

**Tərsa Şirinin eşqə dönük çıxdığı bəlli,**
**Əsli kimi də əhdinə mərdanəsi vardır!**

**Tufanlıdı dərya kimi hər çeşmi nigarın,**
**Ləbi kimi də bir qoşa tərsanəsi vardır.**

**Hər şamü-səhər meykədələr küncünü az tut,**
**Könlün necə dərdi elə meyxanəsi vardır.**

**Eşqin oduna harda ki bir Leyli yanıbdır,**
**Məcnun kimi bir şəminə pərvanəsi vardır.**

**Kimsə deməsin dünyada cananına tay yox,**
**Ondan da gözəl gör necə şahanəsi vardır?!**

**Vahidlə bitibdir qəzəlin ömrü deyirlər,**

**Bir sözdü bu da, Atayi-dürdanəsi vardır.**

**PS:Vahid, əgərçi sənətə qiymət verirsə xəlq,**
**Şeirin də qədri-qiyməti dürdanəlikdir,- məqtə-beytli qəzəlin təsiri ilə yazılıb.**

**30**

**Ey əhli-aşiq, bu gün bir qan içən qanə gəlir,**
**Kim onu bir an görüb, ömürlük əfqanə gəlir.**

**Hurimi, mələkmidir, yoxsa ki afətmidi o,**
**Bir ağıl kəsmir onu, hər kəsə əfsanə gəlir...**

**Yandırır, yaxır bütün qarşısına çıxanları,**
**Qasırğa, tufan kimi bir anda cövlanə gəlir.**

**Yerdə gördüklərini öz başına dövr elədir,**
**Onu gördükdə bütün ulduzlar dövranə gəlir.**

**Bir qoca, cavan saymaz, kəməndin atır hamıya,**
**Nə qayda-qanun bilir, nə ədəb-ərkanə gəlir.**

**O qədər od tökülür üzündən, gözündən onun,**
**Günəş də görüb onu uzaqdan heyranə gəlir.**

**O iri qan ocağı bizə təzə könül verib,**
**Külli-aləm danışır, Atabəy, mehmanə gəlir.**

**31**

**Dillən, ey tar, bu susan qəlbimizi "Şur"ə gətir.**
**Qiyamət qopardaraq, məclisə "Mənsurə" gətir.**

**Gün keçir, ömür gedir, Günəşi zülmət qapayır,**
**Kor tale karvanımın gözlərini nurə gətir.**

**Dillən, ey tar! Səsinə bülbüli-şeyda dinsin,**

**Çəkib “Əraq”ı “Şur”a, “Rast”ı da “Mahur”a gətir.**

**Biz dərdli eşq əhliyik, əğyar yemiş haqqımızı,**
**Bizi Allaha sarı Musa kimi Turə gətir.**

**Lal axan çayları çox seyrə dalıb dinləmişik,**
**Bizə dağ selləri tək dalğalı məfkurə gətir.**

**Oxu, TAR! Çox Müşfiqi sineyi-dağ etdi zaman,**
**Bizim də ruhumuzu ilahi hüzurə gətir.**

**Atabəy, taleyimin məhşəri çoxdandı qopub,**
**Oxu, tar, ürəyimlə İsrafili surə gətir.**

**32**

**Gözəlim, gözəllərin eşqə mübtəlalığı var.**
**Əğyarın, ədnaların sözündə gədalığı var.**

**Məni nə Məcnuna, nə Fərhada tay eyləmə, gəl,**
**Onların bu dünyada köhnədən rüsvalığı var:**

**Birinin sevgilisi bir İbni Səlama gedib,**
**Birinin ömründə Xosrovü-Kəsralığı var.**

**Məhəbbət aləmində bu bir Qızıl qanundur:**
**İki eşqə düşənin eşqində xətalığı var.**

**Arif ol kəsdi ki, çox bildikcə şah başın əyər,**
**Cahilin boş sünbültək çox yüngül ədalığı var.**

**Uzaq dur əğyaridən, namərddən dost çıxmaz bizə,**
**Onlar kəzzab əhlidi, könlündə ədnalığı var.**

**Nə deyib, nə ad qoyub, Atabəydən küsdün, gözəl,**
**O ki öz qurbanınıdı, canıva fədalığı var.**

**PS: Gədayi-kuyi olan böylə nazənin gözəlin,**
**Diyari-eşqdə dünyayə padişahlığı var.**

**...Nə rütbə istəmə, Vahid, nə şöhrət aləmdə,**
**O kəs ki, rütbəpərəst oldu, bil, gədalığı var.—beytül və məqtə-beytli qəzəlin təsiri ilə yazılmışdır.**

**33**

**Ey gözəl, eşqimizi dastan edim, gəl yanıma.**
**Sənə mən öz canımı qurban edim, gəl yanıma.**

**Boş sözdü Leyli eşqi, Məcnunun da tək adı var,**
**Sənə bu dünyanı mən heyran edim, gəl yanıma.**

**Mey içib məsti-xumar olmuşam eşqinlə bu gün,**
**Səninlə üzbəüzə peyman edim, gəl yanıma.**

**Səri-kuyimdə mənim fırlanır eşqin havası,**
**Başıva pərvanə tək dövran edim, gəl yanıma.**

**Bülbülün gülzarında nalədən özgə nəyi var,**
**Səni şair könlümə mehman edim, gəl yanıma.**

**Mənə yarın yolunda əduyi-əğyar nə edər,**
**Məhəbbət meydanında cövlan edim, gəl yanıma.**

**Atabəy, ürəyimin səltənəti Eşqdi mənim,**
**Könlümü təxti-taca sultan edim, gəl yanıma.**

**34**

**Ey cana can verənim, sən də yeri canə tərəf,**
**Qoy səni yaxın görüb, bilsinlər cananə tərəf.**

**Mey içsəm, deməsinlər mənə şərab düşkünüyəm,**
**Qəlbə təsir eləməz dillərdə əfsanə tərəf.**

**İçirəm al şərabı, bu qan içən qanlı fələk,**
**Bəlkə, bir addım atıb yeriyə vicdanə tərəf.**

**Dəli Məcnunu mənə kimsə tərif eyləməsin,**
**Əsl aşiq  yar atıb, getməz biyabanə tərəf.**

**Şirin tək tərsaları çox sınayıb eşq əhli,**
**Çətində atıb gedər Xosrovü-xubanə tərəf.**

**Çoxu pul-parasına, vəzifəyə məstdi bu gün,**
**Mənə bir badə verin, mən gedim meyxanə tərəf.**

**Atabəy, xəlqimizə bir sədaqət borcum var:**
**Ölüncən tərəf tutam Azərbaycanə tərəf.**

**35**

**Könlümün min dərdi var, yoxmudur dərman, ey həkim?**
**Tərk edib könlüm evin sevgili canan, ey həkim.**

**Yaz gedib, payız gəlib, buludludu asimanım,**
**Olubdu göz yaşlarım gör necə leysan, ey həkim.**

**Min can ilə sevdim mən öz rəhimsiz cananımı,**
**Ölürəm, dərdlərimə yoxmudur  yanan, ey həkim?**

**Bir vəfasız dilbərin cövrün çəkdim mən bir ömür,**
**Bu qədər cövri-zülmə dayanarmı can, ey həkim?!**

**Atabəy, eşq şəhidi tanısınlar adımızı,**
**Bizi də məhv elədi bir uzun hicran, ey həkim.**

**36**

**Bülbüllər cuşə gələr yazda gülüstanə görə,**
**Biz də ki dərd çəkərik sevgili canana görə.**

**Dünya-aləm sevinər hər çiçək açdıqca bahar,**

**Pərişan hal olarıq zülfü pərişanə görə.**

**Mənə min cövr eləyər qəmzəli yarım, çox əcəb,**
**Öz alın yazımızdır bu da müsəlmanə görə.**

**Arılar gül qəhrin çəkər bütün ömrü boyu,**
**Dil-ağız bal edəcək özgəyə bir şanə görə.**

**Millətin sevən arif bircə gün də şad olmaz,**
**Şuşası darda qalan Azərbaycanə görə.**

**Qəzələ ötən əsr möhrünü Vahiddir vuran,**
**Qəzəli dərk eləyən  əsl qəzəlxanə görə.**

**Ataya  ilham verən Şirvanilər ocağıdır,**
**Tanıyaq  biz də onu bir daha Şirvanə görə.**

**37**

**Mənəm o meyxanəçi məstanələr guş eləyən.**
**Keyfimi təlx edənin başını sərpuş eləyən.**

**Hamı aləm özünə gör neçə adət yaradıb,**
**Bizdə bir qanun var: mey içməkdir,- uş eləyən!**

**Yar atıb müjkan oxun, qəlbimizi dağ-dağ edib,**
**O da bir nəqqaşdır, ürəkdə niquş eləyən.**

**Qara zülfündən onun nəşələrdi ətir saçan,**
**Canımı əldən alıb, ağlımı bihuş eliyən.**

**Qırmızı şərab kimi dopdoludur al dodağı,**
**Mənəm o badələri gecə-gündüz nuş eləyən.**

**Tanrımın səxasıdır, yarı mənə səyyad edib,**
**Zülfünün kəməndinə taleyimi tuş eləyən.**

**Atabəy, bu həyatın səhifələri dərd, qəmdir,**
**Şərabdır, bir də nigar ömrümüzü xoş eləyən.**
**PS:Bu qəzəl Qırmızı repressiyanın qurbanı şair Mikayıl Müşfiqin (1908-1938) az yayılmış aşağıdakı qəzəlinin təsiri ilə yazılıb:**
**Mehribanım, baği-eşqin ey müəttər susəni,**
**Qoyma öpsün gizlicə hər bülbüli-bədxu səni.**
**Mən sənin bir rəhmdil səyyadinəm, gəl qoynuma,**
**Gəl öpüm, gəl oxşayım, ey nazənin ahu, səni.**
**Ağlayan mən, sızlayan mən, bilməzəm amma neçin,**
**Həp sıxar ağuşinə gah o səni, gah bu səni.**
**...Eşq səhrasində sərgərdan gəzən bir təşnəyəm,**
**Sevgilim, içsəm nolur şəhdi-zülalin busəni.**
**Müşfiqa, iqlimi-sevdadən ziyanin yox, fəqət,**
**Tiri-müjganilə yıxdı bir qaşi kaman əbru səni.**

**38**

**Yenə min ağı qatdı bəd ruzigar bədəmizə.**
**Süzüldü mey yerinə min ahu-zar badəmizə.**

**Nə vaxtdır tərk eləyib, çeviribdir üzün bizdən,**
**Zəhərli hicran qatıb güli-rüxsar badəmizə.**

**Biz könül evi uçmuş rindu-xərabatilərik,**
**Öz uçuq könlümüzdü bizə qəmxar badəmizə.**

**Gün gedir, ömür keçir, zaman bizi gözləməyir;**
**Diləyən çoxdur nədən səbrü-qərar badəmizə?**

**Toxunan az olmayıb qəlbimizə indiyəcən,**
**Toxunan yoxdu, şükür, bizdən kənar badəmizə.**

**Qoy bizi seyr eləsin ulduzlu, aylı gecələr,**
**Sübhədək keşikçiyik çeşmi-bidar badəmizə.**

**Atabəy, zəmanənin gözəlləri atdı bizi,**

**Eşq olsun, bizlə qalan dost-vəfadar badəmizə.**

**39**

**Eşq olmasa, bir aşiqi-canan ola bilməz.**
**Qəlb istəməsə, göz yara heyran ola bilməz.**

**Yoxsa oxuyan bülbülü gülzari-çəməndə,**
**Min gül açıla, güllü gülistan ola bilməz.**

**Aşiq ki edə bilməsə yar vəslinə ümmid,**
**O eşqi-məhəbbətdə heç hicran ola bilməz.**

**Min türfə gözəllər ki çəkər Məcnuna dövrə,**
**Yardan savayı Leyliyə mehman ola bilməz.**

**Canan da gərək aşiqinin xoş edə könlün,**
**Sevdadan uzaq həyatda dövran ola bilməz.**

**Min huriyi-qılman eləyə Fərhadı dəvət,**
**Yardan savayı aşiqə ünvan ola bilməz.**

**Bir aşiqi-yar olmasa Namiq Atabəy də,**
**Dillərdə gəzən şeyrü-qəzəlxan ola bilməz.**

**40**

**Haranın maralısan, kimsən, ey ürkək nazənin,**
**Bu xərabə könlümdə nə işin var, söylə, sənin?..**

**Dağılmış xanımanam, tale məni tərk eləyib,**
**Yoxsamı əldən çıxıb sənin də öz çöl-çəmənin?**

**Mən bir qəm dəryasıyam, sinəmdə çox canlar batıb,**
**Amandı uzaq dayan, batar bu köksümdə gəmin.**

**Sənin ki bu hüsnünü Allah özü xoş yaradıb,**
**İlahi gözəlliklə sənə yaraşmır  dərd-qəmin.**

**Sən sevib-sevilməyə, bəlkə, gözəl yer gəzirsən,**
**Müği-xərabatidi bu, çətin tapılar həmdəmin.**

**Atanın bu eşq necə ürəyini xoş eləsin,**
**İtirib nə zamandı Qarabağ adlı vətənin?!.**
**PS: Ə.Vahidin aşağıdakı beytlərinin təsirilə yazılıb:**
**Oxu, ey bülbüli-şeyda, güli-xəndan oxusun,**
**Görsün öz aşiqini, şur ilə canan oxusun.**
**...Qarabağdır bizim ölkəmizin Şirazi,**
**Öz muğamatını lazımdı hər insan oxusun.**

**41**

**Ey könül, bağrı yanıq ləbi-suzan bil kamanı.**
**Heç əvəz eyləyəməz ən mükəmməl dil kamanı.**

**İlk məhəbbət atəşiylə öldürübdü qardaşını,**
**Sonra könül yanğısıyla çalıbdı Qabil kamanı.**

**“Mahur-Hindi” qanadında “Əraq-Kabil,” “ Herat” gəzib,**
**“Qatar”la “Üzzəla”da salamlarıq “Zil” kamanı!**

**Cühalə əhli, axı, hardan bilsin Muğam nədir,**
**Nə vaxt, harda eşidib sənətdə əsl kamanı?!**

**Atabəy, həşrə kimi yaşayacaq, yaşadacaq,**
**Həm kaman Habili, həm özü Habil, kamanı!..**

**42**

**Neylirəm o dilbəri çağıra divanə məni.**
**Qova Məcnun eləyib çöli-biyabanə məni.**

**Bir zaman çox alışdım bivəfa canan oduna,**
**Şəm ilə səhv salır indi də pərvanə məni.**

**Yusifi-Misr kimi düşdüm Züleyxa şərinə,**

**Olmadı xəbər verən Yaqubi-Kənanə məni.**

**Hər gözəl dərdim üstə gəlib yeni dərd qaladı,**
**Çatdıran olmadı heç dərdimə dərmanə məni.**

**Atabəy, şeyrü-sənət aləminin sultanıyam,**
**Yetirib xəlqim üçün xidmətə zəmanə məni.**

**43**

**Dəli rüzgar, çatdır məni bir daha can olan yerə.**
**Can quşu uçmazmı, de, gözəl canan olan yerə?!**

**Saqi, şərabın təsiri yoxdu daha könlüm üçün,**
**Bir tələs, apar məni çeşmi məstan olan yerə.**

**Bəxtim kimi gözlərimdə qaranlıqdı mənə dünya,**
**Canım saqi, çıxart məni nuri-rəxşan olan yerə.**

**Məcnunları eşq çəkib aparıbdı səhralara,**
**Könlüm quşu hey can atır güli-xəndan olan yerə.**

**Neylirəm zahidlərin bayquş qonan məbədlərin,**
**Ey nazənin, apar məni sevgi iman olan yerə.**

**Canlar alan ovçuların səyyadıyam həyatda mən,**
**Arif ovçu yeriməzmi məgər ceyran olan yerə?**

**Deməsinlər qocalıbdı, Atabəyə hər dosti-yad,**
**Cavan könlüm amadədi könlü cavan olan yerə.**
**PS: Vahidin aşağıdakı mətlə-beytli qəzəlinin təsiri ilə yazılıb:**
**Ey namə, tez yetir özünü yar olan yerə,**
**Bülbüldən ərzi-hal elə gülzar olan yerə.**

**44**

**Aşiqin həvəsilə gərəkdi canan gülsün,**
**Eləsin yarını öz qəlbinə mehman gülsün.**

**Bülbülün şövqü ilə bahar çağı cuşə gəlib,**
**Gülləri xəndan olan bağü-gülistan gülsün.**

**Aşiqin adətidir canana can qurban edə,**
**Ağlaya Məcnun olub, dəşti-biyaban gülsün.**

**Eşq niyə aşiqlərin qəlbini min dərdə salıb,**
**Aşiqin halın görüb, dərdinə dərman gülsün.**

**Yusifi-Misri həbs elətdirdi Züleyxa ki,**
**Görüb yarını gecə, hüsnünə zindan gülsün.**

**Hər ov ardınca düşüb kamil ovçu can yormaz,**
**Gərək ov üstə cuman ovçuya ceyran gülsün.**

**Atanın şair qəlbi baxma ki, ağlardı bu gün,**
**Şən qəzəllər yazır o, Azərbaycan gülsün!!**
**PS: Vahidin aşağıdakı mətlə-beytli qəzəlinin təsiri ilə yazılıb:**
**Göstər, ey gül, üzünü, bülbüli-şeyda gülsün,**
**Gözlərin şövqi ilə nərgisi-şəhla gülsün.**

## 45

**Nə qədər nəfəsim var, əllərimdə badə durar.**
**Nəzərim yer üzündə, xəyalım səmadə durar.**

**Bülbülün adətidir xarə baxıb qan ağlasın,**
**Xarın da adətidir gül üzlü rənadə durar.**

**Məni məhv eyləməyə qalxışa minlərlə tufan,**
**Mənəm o Nuh gəmisi dalğalı dəryadə durar.**

**Yarının hüsnü ilə öyünməsin Fərhad çox,**
**Bir Şirin rüxsarına gör neçə məşşatə durar.**

**Məni tay eyləməyin çöldə yatan Məcnuna,**
**Ulduz-ay da yuxudan çəkdiyim fəryadə durar.**

**Gah gülər, gah ağlayar, qarşıma hər çıxsa nigar,**
**Bir gülün çöhrəsində gör neçə ifadə durar?!**

**Atanı yarın cövrü deməsinlər məhv etdi,**
**Yazdığı əsərlərin şöhrəti dünyadə durar.**
**PS: Sabir və Vahiddə rast gəldiyim bu üslub hər üçümüzün tərəfimizdən Xaqani Şirvanidən iqtibas ilə qələmə alınıb.**

**46**

**Gəlin, bu məclisdə şirin-şirin söhbət edək,**
**Hamı bir-birimizə nəzakətlə hörmət edək.**

**Çağıraq bəy atasın, bəy anasın biz yuxarı,**
**Sonra da qaynananı, qaynatanı dəvət edək.**

**Bu gözəl bəylə gəlin dostlarıyla şaddı bu gün,**
**Belə toy subayların hamısına qismət edək.**

**İçək al rəngli şərab dost-tanışlar sağlığına,**
**Bu gözəl ziyafətdə könlümüzcə ləzzət edək.**

**Hamı dost-qardaşdır, yoxdu burda məclisə yad,**
**Odur ki, bir-birinə, gəlin, bir az diqqət edək!**

**Bir yerdə deyib gülək bu gənclərin şad gününə,**
**Kədəri, qüssə-qəmi könlümüzə həsrət edək.**

**Babalar yol qoyubdur ədəb ilə ərkan üçün,**
**Onlardan dərs alaraq, biz tarixdən ibrət edək.**

**Süfrə bol, könül dolu—məclisimiz nəşə saçır,**
**Vətənin hər guşəsin biz belə bir cənnət edək.**

**Atabəy, bu toy günü bir yerdədir dost ilə yar,**
**Millətin hər işində biz bu cürə vəhdət edək!**
**PS: Vahidin aşağıdakı beytlərinin təsiri ilə yazılıb:**
**Ey könül, var bu ziyafətdə şərafət bu gecə,**
**Bir gözəl növrəs üçündür bu ziyafət bu gecə.**
**...Olmamış bir kəsə dünyada müyəssər belə toy,**
**Hamı şadlıqla olur məclisə dəvət bu gecə.**
**Bu gözəl məclisə bir şeir yazarsan, Vahid,**
**Sən də göstərməlisən xəlqə nəzakət bu gecə.**

**47**

**Ariflərin hər kəlməsin işarədən qanar gözlər.**
**Könüllərdən işıq alıb, günəş kimi yanar gözlər.**

**Aslanları ram eləyər bir ahunun baxışları,**
**Yaz gətirər qışda ömrə gül-çiçəkli bahar gözlər.**

**Bir ürəyə namərdliyin toz zərrəsi toxunarsa,**
**Başlar üstən min qəzəblə şimşək kimi çaxar gözlər.**

**Onda şərab atəşi var, onda könül yanğıları,**
**Ömrü boyu məst eləyər aşiqləri xumar gözlər.**

**Atabəy, şair könlüm, demə, bağlı xəzinədir,**
**Bircə baxış bəsdi mənə: nə var çalar, çapar gözlər!..**

**48**

**Kimsə özünü cananıma can edə bilməz.**
**Qeyri də özün könlümə canan edə bilməz.**

**Qəlbim ki, sevir cananı candan əziz, heç vaxt**
**Qəlbim sevəni kimsə pərişan edə bilməz.**

**Min cövri-cəfa versə də yar aşiqə, xoşdur,**

Yar neyləsə də, könlümüz əfqan edə bilməz.

Bülbül də verir könlünü tər güllərə yalnız,
O, qəlbini bir qanqala mehman edə bilməz.

Gənc ömrünə qəsd eylədi Fərhadı Şirinçin,
Bu mərdliyi bir Xosrovü-xuban edə bilməz.

Hər Leylinin öz səhranişin Məcnunu vardır,
Yarını qoyub, özgəni heyran edə bilməz.

Bir eşq sarayın könüllər inşa eləyibsə,
Min zəlzələ qopsa, yenə viran edə bilməz.

Çox Yusifi cəlb eyləyəcək Züleyxayi-eşq,
Eşq olmasa, dərd dünyanı zindan edə bilməz.

Öz ömrünü öz xəlqinə bəxş eylədin, Atam,
Bu səxavəti Hatəmi-dövran edə bilməz.

**49**

Eşidin, a dostlarım, canımıza can atadır.
Ürəkdən damarlara axıb gələn qan atadır.

Bizə təxti-tac verib, hökmran eylərsə də bəxt,
Qəlbə bir ömür boyu hakimi-fərman atadır.

Onların qədrini biz gərək sağlığında bilək,
Düşsək haqq dərgahına, rəhmlə rəhman atadır.

Yusifi öz eşqinə Züleyxa zindana atar,
Ağlamaqdan kor olan Yaqubi-Kənan atadır.

Yoxdu yer üzərində ata misalında biri,
Bizə hər haqqın halal eyləyən insan atadır.

Ətrafı tərk eləyər çətində hər yadla yaxın,
Əbədi arxa duran övlada hər an atadır.

Şad günü bütün aləm yığışsa kefdə başına,
Həyatın qəmli çağı qəlbi pərişan atadır.

Alimin, qəhrəmanın şöhrəti dillərdə gəzər,
Övladın hər işinə şöhrətə şayan atadır.

Ömrünü tərk eləsə, ən son ümid, sevgi belə,
Könüldə qərar tutan əbədi mehman atadır.

Başa min bəla gəlsə, təskinlik verən də olar,
Ürəyi manqal kimi közlənib yanan atadır.

Atabəy, qəzəllərim aləmlə bir etsə məni,
Bütün hər şöhrətimə, şanıma ünvan atadır.
PS: qəzəlin ilk variantı, bəzi digər 40-a yaxın qəzəl ilə birlikdə ilk və yeganə əlyazmada (yığılmağa verildiyi ərəfədə) etibardan suü-istifadəetmiş satqın məqsədli bir qrup saxta "dost", kino və dram aktyoru tərəfindən xaincə oğurlanmışdır. Şeir görkəmli qəzəlxan, Vahidsevər ziyalı Əliağa Bakirin "atadır" rədifli qəzəlinin təsiri ilə yazılıb:
Hər bir övlada şərəf, şöhrət ilə şan atadır.
Başa tac, qəlbə fərəh, təxti-Süleyman atadır.
...Qədrini bilmək onun daima borcundu sənin,
Onda gər ki, nə qədər olsa da nöqsan, atadır.

**50**

Gərək eşq məclisində öncə düz ilqar olsun.
Ürəkdə məhəbbətə külli-ixtiyar olsun.

Ağlasın neylə kaman, qoy gülsün zurneyi-dəf,
Məclisi kökə salan muğamatla tar olsun!

**Açıb qəlb boğçasını dostlar töksün süfrələrə,**
**Əhli-arif bu hala gərək xiridar olsun.**

**Nə qədər mey içilə, mey süzülə badələrə,**
**Əhli-məclis sonacan gərək huşiyar olsun.**

**Nə qədər eşq dərdi Məcnunu çöllərə salıb,**
**O qədər Şirin ona gərək lütfikar olsun.**

**Nədən Fərhadı dağa çıxarmışdı  tərsa Şirin,**
**Bəlkə, vəslə yetişən Xosrovü-xünxar olsun?..**

**Atabəy, tək sözümdür bütün sevən könüllərə,**
**Düz sözə, düz ilqara qəlbdə etibar olsun!**

**51**

**Yenə könlümdə mənim güllü bahar eşqi durur.**
**Səri- kuyimdə gözəl nazlı nigar eşqi durur.**

**Min badə şərab içsəm, getməz başımdan bu ağıl,**
**Gözümdə, könlümdə əhli-huşyar eşqi durur.**

**Mən könül ovçusuyam—sözdü kaman ilə oxum,**
**Hər arzu, həvəsimdə xallı şikar eşqi durur.**

**Ömür-gün yollarında at çapmışam gecə, gündüz,**
**Dəli könlümdə həmən şanlı süvar eşqi durur.**

**Atabəy, xəlqimizin mən də şair övladıyam:**
**Qəlbimdə Vahidanə neçə əşar eşqi durur.**

**52**

**Bu pəri çöhrə yenə gör necə də qan eləyir.**
**Kim ona könül verir, könlü pərişan eləyir.**

**Nə gözəl yaz gəlibdi, güllərin gülən çağıdı,**

**Bəs niyə bu bağçada bülbüllər əfqan eləyir?**

**Dünyanın ən gözəli vəfasızdı zəmanə tək,**
**Yarını ağlar qoyub, əğyarı mehman eləyir...**

**Yerdə gör neçə aşiq fırlanır əziz başına,**
**Göydə də səyyarələr onunçun dövran eləyir.**

**Qşının yayına da düzübdü müjkan oxların,**
**Dünyanın dörd bir yanın savaşa meydan eləyir.**

**O qədər güclüdü ki, onun könül cazibəsi,**
**Bir anda görən kəsi ömürlük heyran eləyir.**

**Nə tövr cəlladdı bu zalım qızı, ey Atabəy,**
**Nə öldürür öldürən tək, nə dərdə dərman eləyir.**

**53**

**Can bülbülü, bir nəğmə oxu, can təzələnsin.**
**Bu məclisi-eşq, aşiqi-dövran təzələnsin.**

**Bir Vahidi-ustadımızın Ad Günüdür bu,**
**Qıyma bizə bu möhnəti-hicran təzələnsin.**

**Yaz fəsli ötüb, bağçamıza qar ələyir qış,**
**Güldən oxu sən, bəlkə, gülüstan təzələnsin.**

**Hər dahi oğul itirməyin ağırdı dərdi,**
**Yarəb, niyə bu naleyi-əfqan təzələnsin?..**

**Hər novbaharın öz gülü, öz bülbülü vardır:**
**Lazımdı təbiətdə də bir qan təzələnsin.**

**Vahid də gözəl qəzəllərin yazdı bu xəlqə,**
**Qoy Vətənin eşqinə insan təzələnsin.**

**Hər tazə gülün tazə də bir dərdi olur ki,**
**Bülbülə deyir, indi də dərman təzələnsin.**

**Dövrün yeni söz tələbi vardır, Atabəy, bil,**
**Dövrana görə, qəzəl, qəzəlxan təzələnsin.**

**54**

**Dinmərəm, ey gül, məni sən xar eləsən də.**
**Min dərdə salıb, qəlbimi bimar eləsən də.**

**Könlündə yara meylini çoxdan duyub əğyar,**
**Sən bunu min yol mənə inkar eləsən də.**

**Hər gecə-gündüz o əziz başına dönnəm,**
**Gen dünyanı bu başıma sən dar eləsən də.**

**Öz eşqimi mən gizli tutmuşam hamıdan, yar,**
**Sən bütün aləmdə məni car eləsən də.**

**Əl çəkmərəm əsla sənə bu sevgidən,gözəl,**
**Aləmi salıb üstümə əğyar eləsən də.**

**Öz qəlbimi bir təkcə sənə vermişəm, ey can,**
**Bu dostluğa düşmənliyi təkrar eləsən də.**

**Qoymuş Atabəy canını uğrunda bu cəngə,**
**Sən tərk eləyib meydanı, fərar eləsən də.**

**55**

**Bu qanlı çərxi-fələk verə bilsə badə məni,**
**Məhəbbətim yaşadar ölərsəm, dünyadə məni.**

**Qəlbimin kuzəsinə mərdlik meyi süzüb içdim,**
**Özünə qul eləyə bilmədi qəladə məni.**

**Mənəm o Nuh gəmisi, üzər dərdin sellərində,**
**Nə ki dərd əhli qalıb, çağırar imdadə məni.**

**Başıma tac etdiyim dostlar ayağa verdilər,**
**Satmadı əlimdəki bircə sərxoş badə məni.**

**Nə vəzifə, nə də pul tutmadı könlümdə qərar,**
**Sevginin qulluğunda gördülər amadə məni.**

**O qədər gözəllərin könüllərin şad elədim,**
**Əhli-hal cananələr daim salar yadə məni.**

**Atabəy, sevənlərin ürəyində həşrə kimi,**
**Yazdığım qəzəllərim eyləyər ifadə məni.**

**56**
**Aləm yığışıb görməyə gül çöhrəni, nərgiz,**
**Min yaz ola, qəlbim sevər ancaq səni, nərgiz.**

**Yol vermə düşə qoynuna bir bülbüli-bədxu,**
**Ötsün ürəyim hüsnünə min nəğməni, nərgiz.**

**Çox Məcnuni-bəxtin gözünü kor qoyub hicrin,**
**Gün zülmət olar, görməsə səndən təni, nərgiz.**

**Min sədd çəkə hicran mənə qarşı, Şirinimsən,**
**Fərhad kimi mən tək çəkərəm tişəni, nərgiz.**

**Bir gün gedəcəkdir bu cavan çağları ömrün,**
**Çatdır o bahar vəslinə gəl sən məni, nərgiz.**

**Yayma bu gözəl ətrini ətrafa, heyfsən,**
**Bir mən çəkim aləmdə sənin nəşəni, nərgiz.**

**Gün də nə qədər nurlu doğa, sonu-- bir gecə...**
**Hər dağ başının var dumanı, min çəni, nərgiz.**

**Bir gün devirər təxti-yazı boranlı bir qış,**
**Tulla ayağa başından əfsanəni, nərgiz.**

**Gənc ömrünü vermiş sənə Namiq Atabəyli,**
**Zill tellərinə sən düzəsən ağ dəni, nərgiz?!**
**PS: Bu (N-56) və aşağıdakı şeiri N-57) müəllif ötən əsrin 70-ci illəri, tələbəlik dövründə prof. Əkrəm Cəfərin dərsində “nərgiz” və “ey dil” rədifləri ilə“müstəf*ilü” təfiləsinin 4 təkrarında , açıq (məkfuf) rəcəzdə və “fə*ilAtün” təfiləsinin 4 təkrarı ilə qısa rəməl bəhrində yazıb, fasilədə müəlliminə təqdim etmişdir.**

**57**

**Bütün aləm bizə düşmənmiş əzəldən, demə, ey dil,**
**Nə məhəbbət adı çək sən, nə gözəldən demə, ey dil.**

**Hələ bir bax, neçə bülbül çəkir aləmdə nə fəryad,**
**Mənə eşqdən, mənə hissdən, mənə güldən demə, ey dil.**

**Dəli Məcnun çölə düşdü hələ gör bir, nə zamandan,**
**Nə ki Fərhad, nə ki Xosrov—bu məsəldən demə, ey dil.**

**Səni kimdir yada salsın, acı günlər çəkəsən hey,**
**Duya bilməz bizi kimsə, bəmi zildən demə, ey dil.**

**Atabəy, sus, qışı səhv salma, bahardan belə tezkən,**
**Dəvə batran ərəbəm mən, qara yeldən demə, ey dil.**

**58**

**Yalvarmışam, ey gül, neçə kəz xarə səninçin.**
**Düşmüş dəli könlüm necə ah-zarə səninçin.**

**Fərhadı, Şirin eşqinə dağ-daş çapıb öldü,**
**Mən çıxmışam eşqinlə o dağlara səninçin.**

**Eşq atəşi yandırdı mənim qəlbimi, bir gör,**
**Pərvanən olub düşmüşəm odlarə səninçin.**

**Bir bülbül olub, hüsnünə min nəğmə ötmüşəm,**
**Sevda üzünü göstərə gülzarə səninçin.**

**Aç zülfünü, tök Ay üzünə, zülmətə dönsün,**
**Mən görməsəm ol gecəni, əğyarə, səninçin.**

**Yerdə neçə aşiq dolanır başına, ey şəm,**
**Bir bax, o qədər göydə də səyyarə səninçin.**

**Ellər danışır vəcdlə rəna hüsnündən,**
**Bəs nə Atabəy söyləsin əfkarə səninçin?**

**59**

**A dostlar, yar əlindən bir dili-zarəm bu gecə.**
**Əduyi-əğyar ilə meydanda varəm bu gecə.**

**Saqidir, bir də şərab dərdlərimə varsa yanan,**
**Meykədə, badə ilə aşiqi-yarəm bu gecə.**

**Əhli-hal içrə daha mənim axı nə işim var,**
**İçmişəm odlu şərab, məsti-xumaram bu gecə.**

**Dosti-yar bu gün mənim heç gəlməsin hüzuruma,**
**Atmışam əqli-huşu tam biqərarəm bu gecə.**

**Örtübdür üzümüzə qapıların vəfasız yar ,**
**Dörd yana atın çapan bir ruzigarəm bu gecə.**

**Bir kimsə sevincinə etməz şərik məni artıq,**
**Harda bir qəm əhli var, orda qəmxarəm bu gecə.**

**Atabəy, qəm təxtinin sultanı da mən özüməm,**
**Nə ki var qüssə, kədər, dərd giriftarəm bu gecə.**

**60**

**Gözəlim, bilir aləm bizim düz ilqarımızı,**
**Necə candan sevərik yari-vəfadarımızı.**

**Bütün heyrandı bizə bu eşq üçün bülbüllər,**
**Güllər də seyrə gəlir bizim bu gülzarımızı.**

**Bircə dəm ayrı düşək, Əsli-Kərəm tək yanarıq,**
**Yerlə göy atəş tutar duyub intizarımızı.**

**Səcdeyi-şükr edərik, yarın qaşın mehrab edib,**
**İstəsə bağlayarıq Sənan tək zünnarımızı.**

**Fərhadla eşq yolunda dağ çapmışıq biz bir ömür,**
**Şirinə tanıtmaqçın Xosrovü-xunxarımızı.**

**Canı canana verib, can ilə başdan keçərik,**
**Ölərik, dəyişmərik öz gözəl qərarımızı.**

**Bizi Məcnun ilə həm Leyliyə tay tutub aləm,**
**Dillərə dastan edək əhdə etibarımızı.**

**Atabəy, bir vəzifə borcumuzdu bizim bu gün:**
**Vəfalı bir gözələ həsr edək əşarımızı.**

**61**

**Göz yaşlarım sel olubdur sənin hüsni-fərağından,**
**Necə rəva bilirsən sən keçim könül uzağından?**

**Zülfün kimi qara bəxtli mən bir bədbəxt aşiqinəm,**
**Asılıdır həyatım tam sənin hər gün sorağından.**

**Xızır hələ yol yeriyir, mənəm həmən sirr yiyəsi:**
**O dirilik suyu ki var, axır sənin dodağından.**

**Gecə-gündüz, yar, başına dolanmaqçın, pərvanə tək**
**İcazə ver alovlanım mən də sənin çirağından.**

**Atabəy, bundan belə elə yaz ki, qəzəllərin**
**Xəbər versin ürəklərə yarın eşqi-marağından...**

**62**

**Necə min dərdə dözər insanda bir can, gözəlim?**
**Bu qədər zülm eləməz aşiqə canan, gözəlim!**

**Mən ki bu can evimdə sənin üçün yuva qurdum,**
**Elədin sənsə məni qəlbi pərişan, gözəlim.**

**Sənə candan savayı nə dedim ki inciyəsən,**
**Günahım varsa buyur: bu haqq, bu divan, gözəlim...**

**Mənim Məcnun eşqimi qəlbindən səhraya atıb,**
**Eylədin əğyarı mı qəlbinə mehman, gözəlim?**

**Bir acı hicran ilə bu gün mən ömür sürürəm.**
**Axdıqca göz yaşlarım, olubdu ümman, gözəlim.**

**Min cövri-cəfa verib, güldürdün ədnanı mənə,**
**Səni də el qınayar, gələr bir zaman, gözəlim.**

**Atabəy ümid etdi yarla xoşbəxt olmağına,**
**Gülmədi üzə tale, vermədin imkan, Gözəlim.**

**63**

**Yenə könlüm quşu amadədi pərvaz eləsin.**
**Dağıdıb dərdü-qəmi, keyfimizi saz eləsin.**

**Əğyarın nə borcuna yarla deyib-gülərik biz,**
**Hələ bunda belə də durub etiraz eləsin.**

**Nə qədər cövri-cəfa veribsə yar, qəbuldu,**
**Özümüz istədik ki, o bir beylə naz eləsin.**

**Bu bahar dəmləri tək nəğmə qoşub gül-çiçəyə,**
**Gəlmişik eşq bağına bülbüllər avaz eləsin.**

**Atabəy, bundan belə yardan ayrı günüm olmaz,**
**Qoy əduyi-əğyarlar gözlərin Araz eləsin**

**64**

**Hanı o dəmlərimiz gözəllərlə həmdəm idik?**
**Nə bir yar hicri çəkər, nə də qəlbi dərd, qəm idik.**

**Sevərdik bağçamızın öz güli-rənalarını,**
**Deyildik təşnə suya, biz də ləbi-zəmzəm idik.**

**Ötərdik gülüstanda bir bülbüli-şeyda kimi,**
**Cəmi huri-qılmana biz cənnətdə məhrəm idik.**

**Gülzarı seyr eləyib gəzərdik sevda bağını,**
**Günümüz keçən yerdə gözəllərlə bahəm idik.**

**...Saqidir, bir də şərab inidi könül sirdaşımız,**
**Ey xoş ol günlərimiz, içməmiş də biz dəm idik.**

**Cami-cəm ilə bu gün sovurruq ömrü yelə biz,**
**Getdi o günlərimiz, qəlblərdə cami-cəm idik.**

**Atabəy, nə işimiz vardı Suyut-Sığırlıda,**
**Bir zaman yurd-yuvası Çuxuryurdla Məlhəm idik...**
**PS: Sığırlı camaatı çar Rusiyası tərəfindən Çuxuryurddan çıxarılmış, oraya XIX əsrin sonları malakanlar köçürülmüşdür. Xaqani Şirvaninin doğma kəndi Məlhəm ilə bu kənd yaxın qonşu olub**

**65**

**Bu kimin nigarıdır gör nə qədər hal yeriyir,**
**Sanki boş düzəngahda xallı bir maral yeriyir.**

**Gülüşü gül qoxuyur, tər nəfəsi- dağ havası...**
**Elə bil şanı üstən gül dodağa bal yeriyir.**

**Nə nihan pəridir bu, caduludu qəmzələri,**
**Bir əyri baxışında cana min zaval yeriyir.**

**Görünüb, yox olur hey, taleyin xoş üzləri tək,**
**Buludlar ardından sanki bir hilal yeriyir.**

**Onun ahu baxışı görənləri heyran edir,**
**Bütün aləm çəkinir: bir afət camal yeriyir.**

**Dəyişir həyulə tək, şəkidən-şəklə düşür hey,**
**Göz görüb anlamayır gerçək, ya xəyal yeriyir.**

**Atabəy, şeyrü-qəzəl aşiqidir bu gözəlçə,**
**Onun hər qədəmində min hüsni-kəmal yeriyir.**

**66**

**Bəs hanı o eşqidən tam hali gözəllər?..**
**Məhəbbətli, sevgili, sevdali gözəllər.**

**Bir quş kimi göylərdə uçan xəyal kimiydi,**
**Huriyi-qılman ilə məvali gözəllər.**

**Dünyanı təmiz məhəbbətə qərq eləmişdi,**
**Hiylədən, hər məkrdən o xali gözəllər.**

**Bu qəmli könül aləmimi şad eləyərdi,**
**O qəmzəli, o işvəli, ədali gözəllər.**

**Ölsəm, hələ cənnətdə də qəlbimdə yaşarlar,**
**O sürməli, o vəsməli, hənali gözəllər.**

**Ustadi-qəzəl qoy deməsin Atayə ellər,**
**Şair eləyibdir onu mənalı gözəllər.**

**67**

**Çox böyükdür ana haqqı, nadan onu qana bilməz.**
**Ana qəlbi yanan qədər kimsə cana yana bilməz.**

**Bu dünyada açılmayan xəzinədir qadın könlü,**
**Qəlbin elə sirri yoxdu, onu duyub ana bilməz.**

**Övladların taleyində əvəzsizdir Ana yeri,**
**Ana haqqın bu həyatda heç bir kimsə dana bilməz.**

**Yer üzündə ülviyyətin anasıdır halal qadın,**
**Dağlar belə analardan özün uca sana bilməz.**

Hər ananın ürəyində oğul fəxri sal qayadır,
Onun qəddi-şuxluğunu tovuz bilməz, sona bilməz.

Atabəy, boynumuzda var ölüncən ana haqqı,
Əbədidir bu haqq, Yerdə həyat onsuz məna bilməz.

**68**

Yadlardan çıxa bilməz şöhrətə şayan nənələr
Nağıllar aləmidir canımıza can nənələr.

Nənələr sevdiyi tək bir kimsə sevməz nəvəni,
Məhəbbət cövhəridir qəlbi mehriban nənələr.

Ən ağır gündə belə qəlbi bizimlə bir vurar,
Ömrün şad günü də bizlədir hər an nənələr.

Babalar at belinə onların eşqilə çıxıb,
Keçmişi, gələcəyi dillərə dastan nənələr.

Övladı, nəvələri bir an itirməz gözdən,
Dolanar nəzərlərdən daima pünhan nənələr.

Həcərdi şücaətdə, şuxluqda bir Nigar xanım,
Qüdrətdə doğulubdur həm şiri-aslan nənələr.

Atabəy, Gülbikəni, Şahbikəni gəl yad edək:
Yetirməyəcəkdir  Sizi bir də bu cahan, nənələr!!

**69**

**Nə qədər bu çərx dönə nəsildə şahdır babalar.
Eldəniz, Şah İsmayıl, Xəlilullahdır babalar.**

**Onların bəyaz başı dağların ağ zirvəsidir,
Kafirlər yaxın düşməz əziz ocaqdır babalar.**

**Tarixin yol nişanı, pak vicdanın heykəlidir,
Gündüzə nurlu Günəş, gecə çıraqdır babalar.**

**Gələnin, gedənlərin dərin ibrət dərsliyidir,
Gələcək günlərdən canlı soraqdır babalar.**

**Dostu da , düşməni də onlar seçib sərraf tək,
Xasların arasında sıx ittifaqdır babalar.**

**Başı dağ vüqarlıdır, dərindədir rişələri,
Dünyaya qollar atan meynəli tağdır babalar.**

**Atabəy, nəvələrdə nə qədər el qeyrəti var,
Ölməyib, ölməyəcək, daima sağdır babalar!**

**70**

**Nə yaxşı ki bu dünyada nəsildə vardır bibilər,
Təpədən dırnağacan sidq-etibardır bibilər.**

**Əzizim, ömrünü, bil, bürüyərsə şaxtalı qış,
Həyatın hər mövsümü sənə bahardır bibilər.**

**Unutma , baş çək ona: bu, ən böyük ziyarətdir,
Ürəyə ziyarətgah, həmi zəvvardır bibilər.**

**Gər yaddan çıxarsan sən, o unutmaz bir an səni,
Pəncərən üstən əsən xoş ruzigardır bibilər.**

**Atabəy, nənələrdən sonra bizə bu dünyada,**
**Bir nəsil anası tək son iftixardır bibilər!**

## 71

**Ey oğul, könüllərdə ən uca dağdır əmilər.**
**Döyüşən ordu üstə şanlı bayraqdır əmilər.**

**Qardaş oğlu, nə qədər bulansa da dövri-zaman,**
**Ömürdə şəffaf, duru, təmiz bulaqdır əmilər.**

**Taleyin zülmətində ölsə inamın səhərə,**
**Gecəni bitirəcək nurlu sabahdır əmilər.**

**Əmilər qədirşünas, kömək, arxadır daim,**
**Ürəyə sonsuz ümid, gözə çıraqdır əmilər.**

**Hamımız bir ömürlük müsafirik Soy- gəmidə,**
**Nəsilə yol nişanı, sönməz mayakdır əmilər.**

**Çətində, darda, oğul, daim gözün gəzsin onu,**
**Əgər sən İshaq isən, sənə Mushaqdır əmilər.**

**Atabəy, öz tayfamda bircə kəsdən arxayınam:**
**Həmişə, hər bir yerdə nəslə dayaqdır əmilər.**

**72**

**Səninçin öz canımı qurban eylərəm, Qaragöz.**
**Yolunda bu dünyanı viran eylərəm, Qaragöz.**

**Bizim eşq bağçamızın mən öz şeyda bülbülüyəm,**
**Aləmi gül hüsnünə heyran eylərəm, Qaragöz.**

**Zülfünün bircə telin külək qırıb atsa yerə,**
**Ömrümü bütün ona ehsan eylərəm, Qaragöz.**

**O əziz ürəyində bircə qırıq dərdin ola,**
**Gözümün yaşlarını leysan eylərəm, Qaragöz.**

**Atabəy, bu dövranın Məcnunu, Fərhadı mənəm,**
**Sənə məhəbbətimi dastan eylərəm, Qaragöz.**

**PS: Həzrəti-Rəsul (s) cənabları buyurub: "Gözəl surətlərdən və qara gözlərdən möhkəm yapışın." Qəzəl "Məcməüş-şüara"nın çağdaş sədri Şahin Fazilin "Qaragöz" rədifli əsərinin təsirilə yazılıb:**

**Can şirindir, sənə qurbandı canım, ey qaragöz.**
**Başqa qurbanlığa gəlmir gümanım, ey qaragöz.**

**...Şahinəm, eşqimizin qoy dodaq olsun möhürü,**
**Başqa bir möhrə çətin mən inanım, ey qaragöz.**

**73**

**Bir şux necə də feilə salıb oynadı mənnən.**
**Hey xatiri xoş eylədi hər bir yadı məndən.**

**Ömrüm boyu mən başına döndüm onun ancaq,**
**Bildi o, əziz gör nə qədər iftadı məndən.**

**Dağlar aşaraq eşqimə minlərcə yol açdım,**
**Dünyasa mətin söylədi bir Fərhadı məndən.**

**Yandırdı göyü, yerləri hey naləvü-zarım,**
**Kimsə eşidə bilmədi bu fəryadı məndən.**

**Bağrım başına yar özü çarpaz dağı çəkdi,**
**Ömrün yoluna bir qoşa iz salmadı mənnən.**

**Şirin kimi öz eşqini aləmlə bir etdi,**
**Biganələr ilə özü gəzdi, adı mənnən...**

**Bir gün, Atabəy, kəsmədi yar verdiyi cövrü,**
**İnsafa gəlib halımı da sormadı məndən.**

**74**

**Ey könül, canımıza ən yaxın can qardaşdır.**
**Doğma qan, doğma ürək, ruhi-rəvan qardaşdır.**

**Oynamaz iki başlı oyunları sənin ilə,**
**Dosta dost, düşmənə də qatı düşman qardaşdır.**

**Nə qanar qardaşlığın qədrini nadan birisi,**
**Qardaşın hər dərdinə canı yanan qardaşdır.**

**Tülkülər, canavarlar bürüsə ətrafı bütün,**
**Onlara qarşı duran tənha aslan qardaşdır.**

**Dünyada hər şey bitir ömür ilə, zaman ilə,**
**Bitməyən, tekənməyən külli-cahan qardaşdır.**

**Ey Ata, dildə şirin-şəkər insan bir aləmdi,**
**Nə qədər acı olsa , qardaş hər an qardaşdır.**

## 75

**Hər zaman Tanrımıza ən xoş duadır bacılar.**
**Qadaşın bir hökmünə min iddiadır bacılar.**

**Sağalmaz min dərd ola bir qardaşın ürəyində,**
**Onların hər birinə dərman-davadır bacılar.**

**Təkləyə min güc ilə bir qardaşı çərxi-fələk,**
**Qardaşa dadə yetən eldir, obadır bacılar.**

**Bacının başı üstün əcəl özü kəsib dura,**
**Qardaşa can üstə də ruhi-rəvadır bacılar.**

**Qırılsa qardaş beli, qaldıra bilməz qeyri,**
**Museyi-İmran kimi əldə əsadır bacılar.**

**Qardaş ömründə çiçək açsa bahar bir gül ilə,**
**Aləmə səda salan neyü-nəvadır bacılar.**

**Qardaşın qarşısında keçər bütün haqqından,**
**Qardaşın hər haqqına cəngü-davadır bacılar.**

**Harda olsa yenə də ürəyi qardaşla vurar,**
**Qapını hər gün döyən səssiz səbadır bacılar.**

**Ey Ata, bu  dünyanın namərdcə çox işləri var,**
**Qardaşa ömrü boyu sidqi-vəfadır bacılar.**

**76**

**Xalalar, can xalalar, əziz mehriban xalalar!**
**Başlara taci-sultan, qəlblərə fərman xalalar.**

**Əqli-kəmalınızın tərifi dillərdə gəzər,**
**Bütün aləm nə ki var—hüsnünə heyran xalalar.**

**Sevinin, şadlıq edin, səhər sizinçin açılır,**
**Bizim şah könlümüzə təxti-hökmran xalalar.**

**Sizinlə fərəhindən dil-dil ötər bülbüllər,**
**Sizsiniz bahar fəsli hər güli-xəndan, xalalar.**

**Atanın cuşə gəlib coşanda ilham pərisi,**
**Qoşubdu hüsnünüzə min cürə dastan, xalalar.**

**77**

**Dinlə məni, bacı oğlu, ən yaxın dostun dayıdır!**
**Hamı qohumlar can ola, ürəyin, köksün dayıdır!**

**Alışanda için-için, kimsəyə yetməz bir ünün,**
**Yanıb-yanıb külə dönsən, hər odun, tüstün dayıdır!**

**Hamı əqrəbalar sənə varın-sərvətin göstərər,**
**Fikir etmə: bu dünyada qürurun, şəstin dayıdır.**

**Dədələr də fərli oğul dayısına oxşar deyib,**
**Ürəyində ucaltdığın heykəlin, büstün dayıdır.**

**Çətin gündə, dar ayaqda imdad ilə haray salma,**
**Allah özü səbir etdin, nə qədər dözdün-- dayıdır!!**

**Ey Ata, bu həyatda uman yerdən küsərlər çox,**
**Vallahi, harayacan dayıdan küsdün: dayıdır!**

**78**

**Bir gülün üzündəki xətti-xalın aşiqiyəm.**
**Aləmi heyran edən məhcəmalın aşiqiyəm.**

**Gecələr sübhə kimi gözlərimdən çəkilməyəm,**
**Mələk üzlü huri-qılman, xoş xəyalın aşiqiyəm.**

**Düşübən ayağına kölgə kimi sərilmişəm,**
**Bir uca çinar boylu şux şümalın aşiqiyəm.**

**Dolub aləm nə qədər gül-beçələrlə, hələ bax,**
**Mən ki bir hal əhliyəm, pürkəmalın aşiqiyəm.**

**Ey Ata, başım üstə min səyyarə yanıb-sönə,**
**Göydə bir Dan Ulduzu, bir Hilalın aşiqiyəm!**

**79**

**Ey gözəl, cəfaların gətiribdi canə məni.
Ölüncən çəkəcəksən yoxsa imtəhanə məni?**

**Sənə bu saf eşqimlə silmişəm Məcnun adını,
Tanıyır bütün aləm dillərdə əfsanə məni.**

**Bir zaman müsəlmandım, indi dini-dərdməndəm,
Cövri-cəfan gətirib bir təzə imanə məni.**

**Canı canana verib, keçmişəm can haqqımdan,
Qoy gedib əğyar desin yarıma biganə məni.**

**Mən könül nəğmələrin dil-dil ötən bir bülbüləm,
Heç duyub, anlamadı bu ruhsuz cananə məni.**

**Nə qədər Əslilərin odunda aşiq yanacaq,
Hələ çox görəcəklər atəşə pərvanə məni.**

**Ey Ata, zəmanəmin yanıqlı eşq nalэsiyəm,
Ağlayar  könüllərdə meykədə, meyxanə məni.**

**80**

**Vətənimin ürəyində cənnətü-bağdır Üzeyir!
Gecəmdə, gündüzümdə sönməz çıraqdır Üzeyir!**

**Tufanlı, qasırğalı Muğam okeanımda mənim,
Bütün Nuhi-gəmiyə tənha mayakdır Üzeyir!**

**Nə qədər xotkarların Çənlibelə hücumu var,
Koroğlu tək Qırat üstə hey duracaqdır Üzeyir!**

**Böyük Azərbaycanımın Himni kimi səslənəcək,
Nə qədər bu Vətən var—daima sağdır Üzeyir!**

**Üçrəngli Bayrağımı həşrə kimi yelləndirən,**
**Cənnətim Qarabağda alınmaz dağdır Üzeyir!**

**Atanın qara bağrı kimi param-parça olan,**
**Azəri torpağımda bütöv sabahdır Üzeyir!**

**81**

**Gəl, zülfünə əl dəymə, sənə şanə mən ollam.**
**Qaldır qədəhi, iç, sənə peymanə mən ollam.**

**Şətrənc oyunu oynama, gəl, mənimlə, ey gül,**
**Canını verən piyadə o Fəna mən ollam!**

**İşvənlə bütün od tutub aləm yana , ey şəm,**
**Sən yandıran atəşlərə pərvanə mən ollam.**

**Yığma başına cünunları, ölməmişəm ki,**
**Zülfündəki hər zəncirə divanə mən ollam.**

**Fərhadın ölübdür!- dedilər Şirinə, yersiz,**
**Dağ çapmaq üçün çıxan bu meydanə mən ollam!**

**Yusif niyə rəncidə olub Züleyxasından,**
**Öz könlü ilə gedən o zindanə mən ollam.**

**Tərk eyləsə aləm meyi bir gün, Atabəy, bil,**
**Muğ əhlinə son meykədə, meyxanə mən ollam.**

**82**

**Dünyada gədaları qaldırıb xan eləyər pul.**
**Dostu dostdan, qardaşı qardaşdan eləyər pul.**

**İgidi atdan salar, xaqanları taxtından,**
**Keçəli bir bəynişan, daşı mərcan eləyər pul.**

**Düşünmə, pulsuz ikən bir işin iqdama yetər,**
**Hökm edib, əmri verib, hər kəsə fərman eləyər pul.**

**Açar bağlı kilidlər, həm bağlayar üzə qapılar,**
**Yadı doğmalaşdırıb, qəlbə xoş mehman eliyər pul.**

**Alimi hövsələdən, arifi təbdən çıxarar,**
**Nadanı, qanmazları canlara loğman eləyər pul.**

**Yüz ilin fahişəsin könüllərdə munisi-yar,**
**Möminəni nəzərlərdə irzi-üryan eləyər pul.**

**İstəsə, bircə anda girər İblis tək ürəyə,**
**Qoyub üz-üzə ata-oğlu düşman eləyər pul.**

**Güldürər neçə ağlar könülləri, gözləri, həm**
**Sevinən çox-çox şəxsi çeşmi-giryan eləyər pul.**

**Çərxi-fələkdir ki,  fırladar daim Yer üzünü,**
**Ey Ata, keçmişdə, həm indi dövran eləyər pul.**

**PS: qəzəl Aşıq Əhməd və Aşıq M.Azaflının eyniadlı əsərlərinin təsiri ilə yazılıb.**

**83**

**Bir pəri gör necə də qəlbimizi qan elədi.**
**Bizə biganə qalıb, aləmi heyran elədi.**

**Ona öz gizli olan eşqimizi nəql elədik,**
**Bir az da üstə qoyub ərzə nümayan elədi.**

**Neçə Məcnunu salıb Leyli tək eşqin oduna,**
**Dünyanın tən yarısın dəşti-biyaban elədi.**

**Bu güli-çöhrənin öz dodağında bir xalı var,**
**Yanağı qeyzə gəlib Xaliqə nöqsan elədi.**

**Belə tərsa Şirinin olmayıb aləmdə tayı,**
**Nə qədər Fərhadı öz canına qurban elədi.**

**Biz  necə tikmiş idik onunçun Eşqin sarayın,**
**O, bizim könlümüzü bir elə viran elədi.**

**Atabəy, ömür boyu qəlbimizi qoyduq açıq,**
**O gedib özgə yerdə özünə ünvan elədi.**

**84**

**Düşmüşəm aldanaraq bir acı sevdayə bu gün.**
**Aşiqəm Məcnun olub, bir dəli Leylayə bu gün.**

**Eşqsiz Yer üzündə həyat yox imiş dedilər,**
**İnanıb bu sözlərə uğradım fənayə bu gün.**

**Atıb müjkan oxunu qan tökəni sevmə,-dedim,**
**Çıxdım öz öz qəlbimlə bir qəti davayə bu gün.**

**Məcnunu aləm ilə bir elədi Leylayi-eşq,**
**Məni də uğradacaq bir elə rüsvayə bu gün.**

**Çıxardıb Fərhad tək bax məni eşqin dağına,**
**Satmağa tərsa Şirin, Xosrovü-Kəsrayə bu gün.**

**Bu gülün baxışından könlümdə min tufan qopur,**
**Varmıdır salan mənim ruhumu məcrayə bu gün.**

**Atabəy, məhəbbətin qurbanıdır aşiq olan,**
**Sən də öz sinəni gər hər cövri-cəfayə bu gün.**

**85**

**Nə qədər dərdimiz var, yoxdu bircə dərmanımız.**
**Neçə cür şərab içdik, qalmadı bir peymanımız.**

**Hər pəriçöhrə bizim qəlbimizə dağlar çəkdi,**
**Talandı, yağmalandı dönə-dönə viranımız.**

**Deyirlər, eşq əhlinin dərdini, sevməyən bilməz,**
**Duymadı dərdimizi heç zaman öz cananımız.**

Qəm yemə, vəfasızdır zəmanə tək bu gözəllər,
Gələr bir gün yəqin, könül, bizim də öz dövranımız!

Min cövri-cəfa çəkdik, Atabəy, bu eşq yolunda,
Yaddan çıxdı bizdən sora “Leyli-Məcnun” dastanımız.

**86**

Bülbüllər nəğmə deyər bir gülizarın eşqinə.
İçərik min şərabi bir düz ilqarın eşqinə.

Çıxmışam nəxscirvana ahuların seydi üçün,
Canımı fəda edəm ən tərs şikarın eşqinə.

Bu “Səfa” məclisinə bir xoş Mahmud ağa lazım,
Düzülsün şeyrü-qəzəl kamanın, tarın eşqinə.

Nə ola bircə kərə üzümə kəc tale gülə,
Könlümə qan ağladan min ahu-zarın eşqinə.

Atabəy, yorulmadan gecə-gündüz yazıb yarat,
Düz Sözün, düz İlqarın, düz Etibarın eşqinə!..

**87**

Axtarma, qalıb, məndədi, yar, şanəsi zülfün.
Üstündə də öz telindən bir danəsi zülfün.

Əğyar nə bilər ki, niyə sən zülfü qarasan,
Bəxtimdi mənim aləmə nişanəsi zülfün.

Bir gör nə qədər zəncirə hazır dayanan var,
Dövrəndə durub hər dəli-divanəsi zülfün.

Bircə telinə qurban olub gör neçə Fərhad,
Dillərdə gəzir qanlı min əfsanəsi zülfün.

**Yazmış Atabəy hüsnünə min bir qəzəl, azdır,**
**Şair olacaq çox belə məstanəsi zülfün.**
**PS: Avni (Fateh Sultan Mehmet) şah beytindən təsirlənərək yazılıb:**
**Zülfünün zəncirinə bənd eylədi şahım məni,**
**Qulluğundan etməsin azad Allahım məni.**

**88**

**Mən daha mən deyiləm, məndə daha mən yoxdu.**
**Bənzərəm dəyirmana ovdanında dən yoxdu.**

**Gecə zülməti qovub, yol açmışam al səhərə,**
**Çıxmışam bir gündüzə, gündüzümdə gün yoxdu.**

**Alıb aldadır hamı, aləm yalanla yaşayır;**
**Allahı, bəndəsi var, bəndəsində din yoxdu...**

**Hamı şeytanı söyür, hamı da şeytanlıq edir:**
**Hamı cin-şeytan olub, daha şeytan, cin yoxdu?!**

**O qədər haray salıb, səslədim öz Allahımı,**
**Səs-sədam ərşi keçib, göylərdən ün yoxdu...**

**Həm yadın, həm yaxının təkcə pisliyin gördüm:**
**Daha qəlbimdə mənim bir məhəbbət, kin yoxdu.**

**Atabəy, xəyallarda qanad açıb uçuram hey,**
**Yer bütün cənnət ola, daha göydən “En!”-yoxdu.**

**PS: İ.Nəsiminin Fars divanındakı “Vardır” rədifli qəzəlinin əks-təsirilə yazılıb.**

**Burada Böyük Vahid Azərbaycan dövlətinin 24 yaşlı qurucusu Atabəy ŞəmsəddinEldəniz (1112-1175) xatırlandığından, müəllif ölkənin müasir tarixi durumuna, işğaldakı ərazilərə və siyasi vəziyyətə qiymət vermək istəmişdir. A.Ş.Eldənizinməzarı qədim Midiyanın və Atabəylilərin son paytaxtı olmuş Həmədan şəhərindədir. Nəsimidən:**
**Mən ol gəncəm ki, minlərcə içimdə gənci-zər vardır.**
**Mən ol bəhrəm ki, sinəmdə dənizlərcə gühər vardır.**
**...Bəli, Şəmsəddinin ruyu mənə munis olan gündən,**
**Xəyalımda mənim başqa nə şəmsü, nə qəmər vardır.**

**89**

**Bu gələn nə afətdi, bu gün belə naza çıxıb,**
**Bütün aləm ona gör bir necə pişvaza çıxıb?!**

**Çiçəyi burnundan lap indicə çırtlayıbdı,**
**Elə bil nərgizdi, o, indicə yazə çıxıb.**

**Cəngü-dəf, tarü-kaman hüsnünü tərif eləyir,**
**Canlı bir dastandı, şan-şöhrəti saza çıxıb.**

**Belə bir huri-mələk bu yerlərdə görünməyib,**
**Qayibanə bir şuxdu, gəlibdi Qafqaza çıxıb.**

**Atabəy, onu görüb, gülləri yaddan çıxarıb,**
**Bülbüllər cuşə gəlib, könüllər avazə çıxıb.**

**90**

**Yenə bir dəli ceyran nəxcirdə min qan elədi.**
**Neçə səyyadı özü seydində paymal elədi.**

**Gül fəsli gülüstanda ötürdü bülbül çox əcəb,**
**Nədən bu nazlı sənəm ol yazığı lal elədi?**

**Düzmüşdü al yanağa dürlü-dürlü qara xallar,**
**Bizi min şəkkə salıb, qəlbimizdə xal elədi.**

**Mən qara bəxtim üçün üz çevirdim zəmanədən,**
**Allaha şükür olsun, yarı məhcəmal elədi.**

**Harda üz-üzə gəldik, yar ədəbü-ərkanla**
**Soruşub keyfimizi, bizdən hal-əhval elədi.**

**Atabəy, eşqə düşən, deyirlər, Məcnuna dönər,**
**Amma bu nigar bizi bir əhli-kəmal elədi.**

**91**

**Qul ilə qulluqçunun hüzurda min qulluğu var.**
**Ağanın, ağalığın başında şah buyruğu var.**

**Bu dünya başda-başa yalançılar aləmidir,**
**Ağızdan çıxan sözün dəvə boyda quyruğu var.**

**Bu həyat çoxdan salıb Koroğlunu Qıratından,**
**Həmzənin Qıratları, Misri Qılınc, Bayrağı var.**

**Göz yaşı tökür bülbül çəmənzarda güllər üçün,**
**Qapqara qarğaların gülüstanda növrağı var.**

**Atabəy, dünya-aləm bürünsə də, kef-damağa,**
**Bu şair könlümüzün Dağlıq Qarabağ dağı var.**

**92**

**Nəzərin adətidir, əyər başı canə sarı.**
**Uymadım bu dünyada boş şöhrətə, şanə sarı.**

**Fikrimdə, sözlərimdə, əməlimdə düzlük etdim,**
**Düz gedib, düz yeriyib, əyilmədim yanə sarı.**

**Neçə zülmət aşırıb, qaranlıqlar dəf elədim,**
**Çevirdim pak üzümü al Günəşə, Danə sarı.**

**Səmtsiz boz küləklər çox əsdilər başım üstən,**
**Qorxmayıb al qanımdan yeridim meydanə sarı.**

**Aşiqin arzusudur dolansın yarın başına,**
**Zülfün də adətidir yaxınlaşsın şanə sarı.**

**Mən xəyal sürətiylə əsrləri addımladım,**
**Bir saat əqrəbi tək fırlanmadım anə sarı**

**Atabəy, qorxum yoxdu həyatın bir sınağından,**
**Yeridim öz könlümcə hər bir imtahanə sarı.**

**93**

**Bizə bülbül nə gərək söyləyə naşadımızı.**
**Özümüz car çəkərik aləmə fəryadımızı.**

**Afəti-yar cövrün çəkməkdə yoxdu tayımız,**
**Hamı aləm bir olub, axtarır ustadımızı.**

**Mahrular yar könlün Xosrovü-xunxarə verib,**
**Neçə Şirin aldadıb aşiqi-Fərhadımızı.**

**Vurulub sinəmizə gör neçə Kərbəla dağı,**
**Tanrıdan gözləyirik illərdi imdadımızı.**

**Qalanıb dağ-dağ olub ömrümüzdə sineyi-dərd,**
**Gözümüz göydə gəzər, dərd ovar bünyadımızı.**

**Atabəy, bir canımız vardı verdik eşq yolunda,**

**Biz də məşhur eləyək dünyada öz adımızı.**

**94**

**Ey gül, o soyuq Ay üzünün haləsiyəm mən,**
**Hicrinlə yanan şəmlərin pərvanəsiyəm  mən.**

**Dövrəndə ötür gör nə qədər bülbüli-bədxu,**
**Bağçanda solan güllərin avarəsiyəm mən.**

**İnsaf elə, bax qurbanına, afəti-şəddad,**
**Min dəfə sənin edamına varəsiyəm mən.**

**Zülfün kimi qapqarədir ömrüm-günüm, ey şah,**
**Əmrində duran qulların ən qarəsiyəm mən.**

**Yaz gülləri açmış, sevinir demə bu aləm,**
**Al lalələrin bağrının qan-yarəsiyəm mən.**

**Bir gör  nə qədər başına səyyarə dövr edir,**
**Gəl söylə könül cazibənin harəsiyəm mən?!**

**Yıxma Atanı küfrlə gəl ayağa, ey şux,**
**Eşq məbədinin ən uca minarəsiyəm mən.**

**95**

**Ey könül, keçdik biz də ömürdə çox cəfalərdən.**
**Xeyir görmədik əsla əhdinə bivəfalərdən.**

**Hər gəda bir Dəccalın peyrəvində başlar yedi,**
**Xudaya, özün qoru bizi bu müqtədalərdən.**

**Nobaharın ətrini güldən, çiçəklərdən qabaq,**
**Bülbüli-şeyda duyar könüllərdə sədalərdən.**

**Şeirlə , qəzəl ilə hifz elədik ruhumuzu,**
**Qurtaran təkcə Sözdür başımızı bəlalərdən.**

**Səbadır yad eləyən Badikubəmizdə bizi,**
**Yox döyən qapımızı dost ilə aşinalərdən.**

**Məhəbbət aləminin sədaqətli Məcnunuyuq,**
**Yalnız can umar Leyla bizim kimi fədalərdən.**

**Ey Ata, atabəylər torpaq yolunda baş qoydu,**
**Daima fərqlənərək Vətən satan gədalərdən.**

**PS: şairin üç qohumu, həmkəndli və həmtayfası olan gənc atabəylilər: Cavanşir Qədir oğlu Quliyev (1958-8.V.1992,Şuşa), Famil Firidun oğlu Həşimov (1973-16.XI.1992,Qarağağ) və Cabbar Aydın oğlu Əsgərov (1972-28.XII.1993, Qarvənd) Qarabağ-Vətən müharibəsində qəhrəmancasına həlak olmuşlar.**

**96**

**Nə qədər yaxın olsa, cananımız cana sarı,**
**O qədər yaxın düşər canımız canana sarı.**

**Cövr ilə yar pərişan hal eləsə könlümüzü,**
**Könül də uzaq düşər zülfü pərişana sarı.**

**Açıb öz ağuşunu gül çağıra bülbülünü,**
**Bülbül də əzm eləyər həmən gülüstana sarı.**

**Nə qədər qara tale gözün yumar dərdimizə,**
**Tutarıq səmtimzi biz də bir meyxana sarı.**

Bizi inkar eləsə gərdişi-dövrani-zaman,
Biz də meyl eyləmərik bu şüğli-dövrana sarı.

Bizi min yol dəyişə vəfasız yar əğyar ilə,
Biz dəxi dəyişərik o əhdi-peymana sarı.

Atabəy, qəlbimizə nə qədər dərd versə nigar,
O qədər meyl edərik biz dəva-dərmana sarı.

**97**

Kəngərdən  Dərbəndəcən gərdişdədir Şah İsmayıl.
Ər beyində, ər könüldə, ər güşdədir Şah İsmayıl.

Azərbaycan torpağının bir qarışın keçməyib o,
Gecə-gündüz Vətən adlı döyüşdədir Şah İsmayıl.

Səhər-axşam çörək fikri çəkən Vətən övladları,
Hər duyğuda, hər fikirdə, hər işdədir Şah İsmayıl.

Bu həyat bir şahmat oynu, piyadalar hücumdadır,
Min bəynişan əfsəriylə gedişdədir Şah İsmayıl.

Bu gün qılınc İnsan ağlı, topxanalar məktəblərdir,
Alimlərlə, şairlərlə görüşdədir Şah İsmayıl.

Bir milləti min bir yerə bölmüş Oğuz düşmənləri,
Bəy Azəri Ordusuyla yürüşdədir Şah İsmayıl.

Ölməyibdir, ey Atabəy, bizim böyük sərkərdəmiz,
Azərbaycan Meydanına gəlişdədir Şah İsmayıl!!

**98**

**Ey könül, duz-çörəyin əhdini satmaz kişilər.**
**Kişisə, kişi Sözdə millətə atmaz kişilər!**

**Tarixi vərəq-vərəq eyləmə bihudə yerə,**
**Əllini ötsələr də, yüz yaşa çatmaz kişilər...**

**Qeyrətin Nuh gəmisi kişilik çiynində durur,**
**Min bəhri-tufan qopa, dəryada batmaz kişilər.**

**Namərdin bal-şəkəri sel kimi dünyanı basa,**
**Barmağın ucu boyda o baldan dadmaz kişilər.**

**Atabəy, təhlükəyə uğrayarsa Ana, Vətən,**
**Gecədə bircə anı yataqda yatmaz kişilər.**

**99**

**İlahi, duaçınam Sənə bu yoxsulluq üçün.**
**Əsl qiymət veribsən mənə bu yoxsulluq üçün.**

**Tək onun sayəsində insanları tanımışam,**
**Heç tanınmaz olmuşam yenə bu yoxsulluq üçün!**

**Dünyaya siyah teldə gətirmişdi anam məni,**
**Minnətdaram saçlarımda dənə bu yoxsulluq üçün.**

**Varlı da Məhşər Günün gözləyir min həyəcanla,**
**Nola, İsrafil suru dinə bu yoxsulluq üçün.**

**Bir fəqir, yoxsul olub bizim yetim Rəsulumuz,**
**Allah bir kərəm edə, dönə bu yoxsulluq üçün...**

**Ərzin də bir Günəşi var, təmənnasız işıq saçır,**
**Bəlkə, pul verilməyib: sönə bu yoxsulluq üçün?**

**Ey Atabəy, ölkəmizin xəlqi- fəqir şairiyəm:**
**Mənə də bəsdi  bu gün tənə bu yoxsulluq üçün.**

**100**

**Yorma gəl öz başını, dərki çətindi cahanın.**
**Əflatun olasa belə, verə bilməz imtahanın.**

**Tufanı, Nuhu onun bomboşca xəyal, xülya,..**
**Yaşama ürəyində faniliyin həyəcanın.**

**Hamı məhkum ölümə, yoxdu əcəldən qurtuluş,**
**Gedəcək bir gün əldən sənin əziz xələf canın.**

**Çalış sən bu dünyada sağlam həyat yaşayasan,**
**Bir badə şərab olsun, bir əhli-hal da cananın.**

**Çalış dərdin əvəzinə qırmızı şərab içəsən,**
**Nə qədər ki, torpaqda içilməyibdir öz qanın.**

**Getmə heç şikayətə, kimdi axı Haqq tanıyan?**
**Ədalət istəyirsən, aç qapısın meyxanaın.**

**Atabəy, aqil olub, dışlanınca el-obadan,**
**Sən rindi-xarabati, əhli-meyxanə tək tanın!**

**101**

**Saqiya, şərab gətir, könlümüzün dərdləri var.**
**Bu dünyada, görünür, meykədənin mərdləri var.**

**Şirinə Bisütunu yarıb aşdı yazıq Fərhad,**
**İndi eşq aləminin o qayadan sərtləri var.**

**Fələyin oyunundan heç bir mərdlik gözləmə sən,**
**Şeşi cüt-cüt gətirən gör nə qədər nərdləri var.**

**Uşaq tək sərvətilə lovğalanır neçə nadan,**
**Qeyrətin puldan kənar aləmlə bir şərtləri var...**

**Atabəy, çox da uyma hər sözünə cananların,**
**Onların məhəbbətdə boş-boşuna vədləri var.**

**102**

**Təşrif gətirib məclisə qaynatə buyursun.**
**Pişvazına bir bəy-ana, bəy-atə buyursun.**

**Meysiz-məzəsiz məclisin öz ləzzəti olmaz,**
**Saqi, nəzər et, məclisə mey-badə buyursun.**

**Bu məclisi-aliyə bir əğyar düşə bilməz,**
**Hər kim ki, sevir bəyi bu dünyadə buyursun.**

**Bəy ilə Gəlin qərar tutub təxti-tacında,**
**Ki, hökmünü bu məclisə tamadə buyursun.**

**Qoy Musiqi də məclisə xoş bir hava versin,**
**Xəlqimizə layiq olan ifadə buyursun.**

**Biz  xatirini xoş eyləyək əhli-məclisin,**
**Bəy səhvimiz olsa, bizə ətadə buyursun.**

**Tam Ata, bəy-ana, bəy ata ilk dəstəyin olsun,**
**Xoş məclisə xoş qaynana, qaynatə buyursun!!**

**103**

**Gəlibdir bu məclisə hər əziz validə bu gün.**
**Sevincək, şad, xürrəm, bəxtəvər halidə bu gün.**

**Bu, oğul-qız toyudur, yoxdu bundan əziz bir gün,**
**Sevinək bu xoş günə, bu xoş səfalidə bu gün.**

**Bəy durub başda, Gəlin solunda təxtə oturub,**
**Bu hökm onlarındı məclisi-alidə bu gün.**

**Dosti-yar məclisidir, sədaqətdir Söz yiyəsi,**
**Əğyara ola bilməz bir könül aludə bu gün.**

**Dünyanın bəzəyidir bu yurdun hər bir gözəli,**
**Xal düzüb al yanağa gör neçə xalidə bu gün.**

**Ey Atabəy, zəmanəmin  mən öz qəzəl şairiyəm,**
**Yazmışam min könüldən xəlqimə mədhiyyə bu gün.**

**104**

**Qoy mənə deməsinlər mən necə şeir yazıram.**
**Ürəyim nə  söyləyir, nəyi istəyir yazıram.**

**Mənəm o dəmirçi ki, Gavə deyirlər adına,**
**Sözləri qılınc kimi zindanda döyür, yazıram.**

**Nə çoxdu naxələfi, namərdləri bu dünyanın,**
**Eyləyib nacinsləri dünyadə seyr, yazıram...**

**Qəlbimə hökmü çatan nazlı gözəllər də bilir,**
**Vəsf edib cananları, mən candan öyür, yazıram.**

**Atabəy, bata bilməz bir kimsənin hökmü mənə,**
**Mənə azad ürəyim hansı cür deyir, yazıram!**

**105**

**Saqiya, tələs bir az, gətir şərab, badə nə var?..**
**İçib məst olan bizik, özgələrə, adə, nə var?**

**Tez çatdır al şərabı, mən unudum bu dünyanı,**
**Şərabdan qan yığıram, qan tökməkdə fayda nə var?**

**Ay üzlü, gül çöhrəli qızlar yeri məkan edib,**
**Mənə bu yer də xoşdu, cənnəti-məvadə nə var?**

**Yaş keçir, ömür gedir, sonra ayılsaq gec olar,**
**Bir də biz doğulmarıq- axı bundan sadə nə var?**

**Atabəy, bir qələmdir, bir də kağızdır dostumuz,**
**Düşməndir ömrümüzə, qalan bu dünyadə nə var!**

**106**

**Saqiya, düşməmişik bu məclisdə yadə niyə?**
**Yoxdur bəs qarşımızda şərab dolu badə niyə?**

**Hamı aləm yığışıb könüllərin şad eləsin,**
**Bir baxan yoxdu burda bu könlü bərbadə niyə?**

**Şirinin qəlbi əgər Xosrovü-xunxarə idi,**
**Dağlarda zülm elədi bir eylə Fərhadə niyə?**

**Leylinin aşiqinə zərrəcə meyli vardısa,**
**Dolaşırdı Məcnunu tək-tənha səhradə niyə?**

**Ey könül, sağər ilə şərabda min hikmət var,**
**Bunu aləmə edək söz ilə ifadə niyə?**

**Deyirlər, içmə şərab, ağlı uçurdur o, göyə,**
**Atabəy, içmişiksə, qalmışıq piyadə niyə?!**

**107**

**Mən canı sevmədim ki, cananımdan cana gəlim.**
**Canı canana verdim, özüm də canana gəlim.**

**Ey təbib, itirmişəm yar üzündən ağlı, huşu,**
**İzn ver şəfa üçün yar olan ünvana gəlim.**

**Gözləri məsti-xumar eyləyir hər bir görəni,**
**Nola bir görüb üzün mən də o peymanə gəlim.**

**Bülbüləm, çox sevirəm yarın güli-rüxsarını,**
**Üzünü gizlədir ki, hicrindən nalana gəlim.**

**Gündüzü el qınağı qoymursa, qoy onda gecə**
**Evində yandırdığı şəmlərə pərvanə gəlim.**

**Zülfünün zəncirinə bağlamaq istərsə məni,**
**Yanına ayaqyalın mən dəli-divanə gəlim.**

**Atabəy, həyatımı canana qurban demişəm,**
**Məhəbbət şəhidi tək cənnəti-rizvanə gəlim.**

**108**

**Ey könül, qan ağla ki, sevgili can əldən gedir.**
**Tərk edib qəlb evimi, canım, canan əldən gedir.**

**And içib, söz vermişdik heç bir zaman ayrılmayaq,**
**Neyləyim bəs indi mən, əhdi-peyman əldən gedir.**

**Eşq-məhəbbət tacını başa qoyub taxt qurmuşduq,**
**Qıyma, ey zalım fələk, əmr-fərman əldən gedir.**

**Ağla, ey gül, sinəni çaki-giriban eylə sən,**
**Bülbüli-şeyda ölüb, yaz pərişan əldən gedir.**

**Nə qanır eşq dərdin sevgiyə biganə biri,**
**Tərk edib qəlb evimi əziz mehman əldən gedir.**

**Vüsali-yar üçün mən ömrüm boyu həsrət qaldım.**
**İllərlə gözlədiyim dərdə dərman əldən gedir.**

**Atabəy, bu dünyanın biz fani bir insanıyıq,**
**Könül kama yetməmiş, ömür, dövran əldən gedir.**

**109**

**Ey könül, dərdimizi oxu ağlaya-ağlaya,**
**Bizim can mülkümüzdə yoxu ağlaya-ağlaya.**

**Köçübdü güllü bahar, dağlıbdı gülüstanım,**
**Bu solmuş çiçəkləri qoxu ağlaya-ağlaya.**

**Nə nurlu çöhrə idi, can vermişdi ruhumuza,**
**Arayaq buludlarda mahı ağlaya-ağlaya.**

**Taleyin çiynində şahlıq quşuydu o, bizə,**
**Salaq, gəl, yada bir də şahı ağlaya-ağlaya.**

**Nə gül var, nə də bülbül: tərk eləyib bahar bizi,**
**Gəl, gəzək xəzan vurmuş bağı ağlaya-ağlaya.**

**Bəlalı başımızda min bir bəla dövrə vurur,**
**Dolaşaq boz dumanda dağı ağlaya-ağlaya.**

**Atabəy, zaman vardı, yar ilə xoş idi ömür,**
**Yad edək əldən çıxan çağı ağlaya-ağlaya.**

## 110

**Ey deyən kim aqiləm, divanə baş gəlmək gərək.**
**Meydan ki qan istəyər, ürəyi daş gəlmək gərək!!**

**Gər dilərsən Vətən üçün Züleyxayi-azadlıq,**
**Gülə yox, bülbülə yox, gülləyə tuş gəlmək gərək.**

**Bir Vətən məhəbbəti könlündə tumuşsa qərar,**
**“Yusifi-Misr kimi zindanə xoş gəlmək gərək!”**

**Gər istərsən cənnəti qazanasan bir şəhid tək,**
**Ədalət hüzuruna cibləri boş gəlmək gərək.**

**Atabəy,  üz çevir sən öz əhli-kef dostlarından,**
**Məsumlar ayağına gözləri yaş gəlmək gərək**

**PS: Şah İsmayıl Xətainin və Ə.Vahidin “Gərək” rədifli qəzəllərinin təsiri ilə yazılıb.**

**111**

**O qara gözlərinin qarəsinə qurban olum.**
**O hilal qaşlarının arəsinə qurban olum.**

**Bir qızıl gül tikanı batarsa o gül əlinə,**
**O qanlı əllərinin yarəsinə qurban olum**

**Mən könül xəstəsiyəm, dərdimə dərmandı ləbin,**
**O şəkər ləblərinin çarəsinə qurban olum.**

**Külli-aləm dolaşır başına pərvanə kimi,**
**O könül cazibənin dairəsinə qurban olum.**

**Bir Quran ayəsidir könlümə hər kəlmə sözün,**
**Dodağından qopanın barəsinə qurban olum.**

**Bir Süleyman dilidir: him-cim edirsən mənə hey,**
**Özün de öz dilinin harəsinə qurban olum?!**

**Atabəy, aşiq üçün yar yarının parəsidir,**
**Yar, sevən ürəyimin parəsinə qurban olum.**

**112**

**Ey dil, yenə də bülbüli-şeyda bizi gözlər.**
**Bir can alıcı canfəza sevda bizi gözlər.**

**Göz çəkmərik əsla gül ilə bülbülümüzdən,**
**Biz novbaharı gözlərik, xar da bizi gözlər.**

**Min Mənsura qoy tay eləsin bizləri ədna,**
**Yüz min belə Mənsur hələ darda bizi gözlər.**

**Eşq atəşinə tutuşmuş pərvanələrik biz,**
**Atəş qalarıq yanmağa, nar da bizi gözlər.**

**Fürsətdi bu gün əlində, keflər sürür əğyar,**
**Bilsin bunu da qarşıda fərda bizi gözlər...**

“Həsar”a alıb, “Çahargah”ı “Müxalif” olluq,
“Mənsuriyə” gözlər könül, tar da bizi gözlər.

Min qəsd edə qəlbə, Atabəy, əğyari-ədyu,
Biz əhdimizə ilqarı, yar da bizi gözlər.

### 113

Qarşımda mənim gör nə qədər can alanım var.
Qan tökməyə amadə neçə qan alanım var.

Qəm bəhriyəm, öz sahilimə çəkib durmuşam,
Kəştiləri dərd-qəm dolu min yan alanım var.

Köksümdə ürək yox, arılar məskənidir qəlb,
Bir gör nə qədər gözəllikdə şan alanım var.

Gədalıq edib, yara sarı çox gəzir əğyar,
Bilmir özünə çakər üçün xan alanım var.

Bəsdir, məni öldürməyə çox can atır əğyar,
Qisas, Atabəy, ədudan hər an alanım var.

### 114

Canlar alana canını qurban edərik biz.
Min cövr görək, bəxtinə şükran edərik biz.

Hər gün çəkərik həsrəti-ceyran yorulmadan,
Yar səyyadı tək dəhrdə dövran edərik biz.

**Öz yarı çəkib zindana saldırdı Yusifi,**
**Öz başımıza dünyanı zindan edərik biz.**

**Yar tərk eləyib qəlbimizi getsə, o dəmdə**
**Hər dərdi, qəmi könüldə mehman edərik biz.**

**Bir Kürdü bizim qəlbimizin xisləti yalnız,**
**Hər tərs gözəlin eşqilə cövlan edərik biz.**

**Pak eşqimizin dəftəri daşlar, qayalardı,**
**Öz eşqimizi tarixə dastan edərik biz.**

**Atabəy, dövri-qəzəl keçibdir deyir əğyar,**
**Söz bağçamızı güllü gülüstan edərik biz.**

**115**

**Qurbandır nəyi varsa, canana öz canımızın.**
**Keçərik canımızdan yolunda cananımızın.**

**Yar küsüb, tərk eləyib yenə sevda evimizi,**
**Yolunu gözləyərik əbədi mehmanımızın.**

**Məhəbbət səmasında tənha uçan bir bülbülük,**
**Yarın xaki-payıdır son yeri ünvanımızın.**

**Onun hər qədəmindən qəlbimiz min bayram edib,**
**Pərişan halındayıq zülfi-pərişanımızın.**

**Biz rindu-xərabatıq, neylirik dünya malını,**
**Şahmarı əksik deyil gənceyi-viranımızın.**

**Züleyxayi-eşq üçün əldən verdik hürriyyəti,**
**Zəncirli Məcnunlardı dörd yanı zindanımızın.**

**Şeir-qəzəl dünyasında bizik sözün Atabəyi,**
**Fəxrdir: Namiqiyik Azərbaycanımızın..**

**PS: Bu qəzəl görkəmli şair-qəzəlxan Namiq Axundovun (1936-2001) xoş xatirəsinə yazılıb:**

**Rüzigarın gedişatın füqaradan soruşun,**
**Şamda Kərbübalanı üsəradan soruşun.**

**...Fələyin zülmünü, Namiq, bu xarab olmuşda**
**Şüaradan, şüaradan, şüaradan soruşun.**

**116**

**Gəl, gəl, gözəlim, gəl əhdi-peyman edəlim, gəl!**
**Gəl, gəl, sənə öz canımı qurban edəlim, gəl!**

**Gəl çöhrəni gizlətmə bulud-şübhə içində,**
**Ayparəmi qoynuma mehman edəlim, gəl!**

**Bəh-bəh, nə gözəl incə zərif qəmzələrin var,**
**Dünyanı gözəl hüsnünə heyran edəlim, gəl!**

**Min huriyi-qılman ola cənnət bizə yaddır,**
**Eşqin bağını bir daha seyran edəlim, gəl!**

**Hər dövrdə bir aşiqi-dövran olur, ey yar,**
**Öz eşqimizi məşhuri-dövran edəlim, gəl!**

**Bir sakit ömür Leyliyi-Məcnuna yaraşmaz,**
**Bir fırtına tək dəhrdə cövlan edəlim, gəl!**

**Gəl əsirgəmə busələri sən öz yarından,**
**Əğyariləri könlü pərişan edəlim, gəl!**

**Fərhadü-Şirin, Züleyxa-Yusif çağı bitdi,**
**Öz eşqimizi dillərə dastan edəlim, gəl!**

**Namiq Atabəy bülbüli-şeyda kimi ötsün,**
**Namiq adını şeyrü-qəzəlxan edəlim, gəl!**

## 117

**Dərdim çoxdu, gözəl yarım, bülbüli-zarə neyləyim?**
**Solubdu güli-gülzarım, söylə mən xarə neyləyim?**

**Yıxılıbdı xanımanım, yaxılıbdı oda canım,**
**Xəzinəm üstə yatanım: gənci-şahmara neyləyim?**

**Ədu-əğyar dərd dilədi, eşq məni paymal elədi,**
**Dünyanın işi belədi, dərdə yox çarə, neyləyim?**

**Yetə bilmədim kamıma, əcəl əl qoydu canıma,**
**Yarım gəlmədi yanıma, bunca əğyarə neyləyim?**

**Atabəy, yarə inandım, pərvanə tək oda yandım,**
**Ömürdən, gündən usandım, dili-dildarə neyləyim?**

## 118

**Qəm etmə, könül, gül ilə gülzar bizə qalmaz...**
**Gül eşqinə gəlmiş hələ bu xar bizə qalmaz.**

**Eşq aləminin zərərdən özgə nəyi var ki,**
**Biz rindilərik, bu əhli-tüccar bizə qalmaz.**

**Tərif eləməz boş yerə səyyad ovun erkən,**
**Əldən çıxan imkandı bu şikar, bizə qalmaz.**

**Sevdaya düşən kəs daha eldən ayıb etməz,**
**Al ağuşa bir gül üzlü yar, ar bizə qalmaz.**

**“Şur” ilə gözəl “Şahnaz”a bir gün könül açdım,**
**Sordu Qarabağ: “Bayati-Qacar” bizə qalmaz?..**

**Gülçöhrələrin könlünü biz almasaq indi,**
**Yaz ömrü bitər, bir güli-rüxsar bizə qalmaz.**

**Tüm meyxanə əhli, Atabəy, əhdə bağlıdır,**
**Xeyrin güdəndi əfkari-biar, bizə qalmaz!!**

**119**

**Dedim:-Ey gül, nə bilirsən nədi, sən, mənası eşqin?**
**Dedi:-Hardan biləcək onları biganəsi eşqin?**

**Dedim:-Ay üzlülərin çöhrəsi tutqundu nədən bəs?**
**Dedi:-Xar ilə yaxındı güli-rəxşanəsi eşqin.**

**Dedim:-Aşiqləri Məcnun eləməkdə nədi qəsdin?**
**Dedi:-Zəncirdə gərək hər dəli-divanəsi eşqin.**

**Dedim:-Aşiqi oda, atəşə yaxmaq nə deməkdir?**
**Dedi:-Odlarda yanıb daima pərvanəsi eşqin!**

**Dedim:-Xaraba qoyub çox ürəyi tərk eləyibsən,**
**Dedi:-Qiymətlidir gəncineyi-viranəsi eşqin.**

**Dedim:-Fərhadı atıb, Xosrova getdi niyə Şirin?**
**Dedi:-Dillərdə gəzər min cürə əfsanəsi eşqin.**

**Dedim:-Min cövri-cəfa Atabəyə veribsən nədən?**
**Dedi:-Hər dərdə dözər dəhrdə mərdanəsi eşqin!**

# 120

**Ey könül, yad eləyək Vahidi-ustadımızı!**
**Nəsillər yad eləyər bizim də öz adımızı.**

**Dözüb min əziyyətə yaşadıb Vahid qəzəli,**
**Borcluyuq bu gün ona Muğamlı həyatımızı.**

**Vahidin hər beyti min bir xəyal aləmidir**
**Qartal tək ənginlərə uçurdar qanadımızı.**

**Gör neçə daş ürəkdə külüng çalır Şirin üçün,**
**Şeir-sənət aləmində tanıyaq Fərhadımızı.**

**Nəsimilə, Xətailə, Füzulilə Vahiddir,**
**Seyid Əzim kimi haqqa çatdıran fəryadımızı.**

**Biz könül aləminə sözlə iman gətirmişik,**
**Dönüb kafər olarıq, unutsaq əcdadımızı.**

**Ey Ata, xalqımızın ucalmağa hər haqqı var:**
**Başımız göydə durar, qorusaq bünyadımızı.**

## MEYXANA (MÜXƏMMƏS)*

**Mən necə bəs sevməyim, ey can, səni?**
**Anan doğubdur gözəl canan səni.**
**Söylə, a qız, hurimisən, mələksən?**
**Qönçəsindən açan tazə çiçəksən.**
**Sən sinəmdə döyünən tək ürəksən.**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Anan doğub nə gözəl canan səni?!.**

***PS:İ.Nəsiminin şeiri üstünə deyilib.***

**-- Bir utansan yaxşı olar yaşından,**
**Cin tökülür sənin bu göz-qaşından.**
**Zəhləm gedir cındır üstü-başından.**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Yaxşı olar yaşından utan səni.**

**Danışığıvun sahmanı yox, səhli yox.**
**Bu dünyanın mənim tək eşq əhli yox.**
**Yaşın, a qız, məhəbbətə dəxli yox.**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Gözüm görüb huriyi-qılman səni...**

**-- Ağızında sən gör neçə dişin var?**
**Can yerinə, baba, quru leşin var.**
**Nə pul-paran, nə də karlı işin var.**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Allah edib puldan, paradan səni.**

**Üzündə, qız, neçə qara xalın var?**
**Dodağında necə qaymaq, balın var.**
**Nə məstanə, qayibanə halın var.**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Anan doğub "yedinni" canan səni.**

**-Xalım ilə olmasın heç bir işin,**
**Səkkiz yazır səhər tezdən yerişin.**
**Ağlın varsa, yaxşı-yaxşı bir düşün:**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Tutar topa əhli-müsəlman səni.**

**8 dedin, mən 8-də durmuşam.**
**Sağlığuva 800 qram vurmuşam.**
**Qız, səninçin ayağımı yormuşam,**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Mənim üçün yetirib dövran səni.**

**-- Gəl olmayan ağlını sən yığ başa,**
**Ayrı ünvan axtar, düşmə təlaşa...**
**Sən sərxoşsan, mənim dədəm bir paşa.**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Xanzadəyəm, sevmərəm, xulqan, səni.**

**Bir az ədəb-ərkanından çıxırsan,**
**Qız, aləmə yuxarıdan baxırsan.**
**Mən içmişəm, bəs, sən niyə axırsan?**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Zülfü kəmənd, qaşları kaman, səni?..**

**--Zülfüm ilə sənin işin olmasın.**
**Baxıb mənə gözlərin də dolmasın.**
**Bət-bənizin yarpaq kimi solmasın,**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Sevməyə də yoxdu heç imkan səni.**

**Səni mənə tale özü tuş edib.**
**İşvələrin ağlımı bihuş edib.**
**Acı tənən könlümü meyxoş edib.**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Qorxutmasın bu eşq, həyəcan səni.**

**-Mənlə, qoca, gəl çox alay çıxarma.**
**Polis çağırram,  bax, atarlar dama.**

**Bircə dəfə deyərlər ki, adama:**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Eyləmərəm bu qəlbə mehman səni.**

**İynən olsam, gözündən mən itmərəm.**
**Kölgən olsam, yanından heç getmərəm.**
**Ölsəm, bəlkə, onda kama yetmərəm,**
**Mən necə bəs sevməyim, ey can, səni?**
**Qoymaram öz gözümdən bir an səni.**

**--Bilmirəm mən sən nə bezar adamsan?**
**Qoca yaşlı, bir ixtiyar adamsan...**
**Görürəm ki, tamam bekar adamsan,**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Götüzzürrəm, vallah, aradan səni!!**

**Qız, ömrümü yaxşı-yaman sürmüşəm,**
**Bu dünyanın hər sifətin görmüşəm.**
**Gül üzümü ayağıva sərmişəm:**
**Mən necə bəs sevməyim, ey can, səni?!**
**Qoya bilməm könlü pərişan səni.**

**--Görürəm ki, əl çəkməklə aran yox.**
**Bir vəzifən, nə də pulun-paran yox.**
**Məndən özgə nə də dərdə çaran yox,**
**Amma, baba, sevəmmərəm qan səni.**
**Edib ürcah tale haradan səni?**

**Məndən ötrü ölən xeyli xanım var.**
**Bu aləmdə şöhrətim var, şanım var...**
**Pulum yoxdu, dosta qurban canım var:**
**Mən necə bəs sevməyim, ey can, səni?**

**Qaşı hilal, gözləri mərcan səni?!**
**--Kişi odu, ciblərində pul olsun.**
**Pulu yoxdu, gedib onda qul olsun!**
**Tayını tap: kasıb olsun, dul olsun.**
**Mən heç zaman sevəmmərəm qan səni,**
**Aç qulağını, eşit, a nadan, səni!**

**Sən bilməzsən kəc fələyin gərdişin.**
**Puldu ancaq ürəyində bəynişin.**
**Gül hüsnünün qiymətini bir düşün:**
**Nöş istərsən sevməyim, ey can, səni?**
**Sevsə bülbül, sevər gülüstan səni...**

**-Mətləb üstə işarəylə gəlirsən.**
**Gərdişdən də, bəlkə, nəsə bilirsən...**
**Görürəm ki, dərdimdən çox ölürsən:**
**Vallah, billah, sevəmmərəm qan səni.**
**Necə yola verim mehriban səni?!**

**Mən Ataşam, qəzəlxanam bu yurda.**
**Çiçək sayır çox vaxt özün çayır da...**
**Sənin kimi gözəl çoxdu bayırda:**
**Nöş istərsən sevməyim, ey can, səni?**
**Sevir, ay qız, şair-qəzəlxan səni!..**

**--Mən baharam, bülbüllərin gülüyəm!**
**Qəzəlxana, meyxanaya dəliyəm.**
**Ürək deyir: Ataşı sevməliyəm!**
**Yüz yol desəm, sevəmmərəm, qan, səni...**
**Mən sevirəm ürəkdən, candan səni!**
**Sevir bütün Azərbaycan səni!..**

**PS: qapalı bir məclisdə bədahətən dialoji söylənmişdir.**

# MÜXTƏLİF ŞEİRLƏR:

## ŞİRVAN OĞLUYAM!!.

Əvəzliyim, bədəlliyim yox mənim,
Kəc dünyaya mən piranə gəlmişəm
Könlüm uca olub, gözüm tox mənim,
Şah yurduma mən şahanə gəlmişəm.

Bax Əlvəndin, Baba Dağın yaşına:
Bu gözəllik yaranmayıb boşuna!
Torpağımın hər daşının başına
Dolanmağa mən pərvanə gəlmişəm.

Dəmir-Dərbənd, Şami-əxi canımdır.
Xaqanilər, Nəsimilər sanımdır.
Pak qəlblərdən axan milli qanımdır,
Arifliyə ədəbanə gəlmişəm.

İsmayıllı, Ağsu, Xızı--rübabım.
Hacıqabul, Göyçay, Oğuz--kitabım.
Bu--Kürdəmir, Ağdaş, Şirvan, Zərdabım.
Qəbələyə, Qobustana gəlmişəm.

**Az düşmədim ahuların ardına.**
**Çox alışdım lalələrin oduna...**
**Fələkilər, Nişatilər yurduna**
**Mən anadan şairanə gəlmişəm.**

**Seyidimi, Sabirimi ad edib,**
**Rəsulumu, Qabilimi yad edib.**
**Zeynəbimi, Habilimi şad edib,**
**Sənətimdə mən zəbanə gəlmişəm.**

**Altıağac, Pirqulumu gəzməyə,**
**Çuxuryurddan al lalələr üzməyə,**
**Zirvələrdən qartal kimi süzməyə,**
**Könülləri mən seyranə gəlmişəm.**

**Arzularım ağrıları keyitdi.**
**Ormanlarım alp arslanlar böyütdü.**
**Sal daşlarım çox dənləri üyütdü:**
**Koroğluyam--dəyirmana gəlmişəm.**

**Bilal, Əhməd, Əvəz, Şakir--mənəm, mən!**
**Həsrət oldum: balabanda dinəm mən!**
**Alim ilə zilə qalxıb enəm mən--**
**Eşq yurduna aşıqanə gəlmişəm.**

**Mələkxanım! Təzələnsin könlümüz.**
**Muğam qoxur imanımız, dinimiz.**
**Qoy ucalsın Bayrağımız, Himnimiz!--**
**Həm Vətənə, həm rizvana gəlmişəm.**

**Dədə Günəş ruhumuza nur yayıb!**
**Haqq yolunda canın qoyub Şıx Eyyub!!**
**Allahımı, Rəsulumu tanıyıb,**
**Əhli-sünnət mən Qurana gəlmişəm.**

**Çərxi- fələk çoxdan qəlbi xəstədir.**
**Könül aldı kim bizdən haqq istədi.**
**Bu dünya bir şətrənc Fili üstədi,**
**At belində mən çövkana gəlmişəm**

**Haqq yoldayam babaların izilə.**
**Şirvanlıyam: əməlilə, sözilə.**
**Mən qəlbimin şairanə səsilə**
**Söz deməyə bu cahana gəlmişəm.**

**PS: MIKAYıL İSMAYıLOV ÜÇÜN**

# GÖZƏL ALLAHIM!!!

Allah gözəlliyin özüdür.
Həzrəti-Rəsul (s) cənablarının kəlamlarından.

**Ey bəşər! Könlünü daim açıq tut,**
**Gözəl rəhmi var gözəl Allahın.**
**Şeytanın, iblisin adını unut,**
**Gözəl ismi var gözəl Allahın.**

**Tanrı məhəbbətdir, iman bir barış.**
**Tale bir oyundur, həyat bir yarış.**
**Nə işə əl atsan "Allah!" de, çalış,**
**Gözəl əzmi var gözəl Allahın.**

**Qəlblərin şahı ol, Allahın qulu.**
**Səadət yoludur Quranın yolu.**
**124 min nəfər rəsulu--**
**Gözəl məsumu var çözəl Allahın.**

**Diriykən ömrünün qazma qəbrini.**
**Qeybdə yazan var şərin cəbrini.**
**Qoru ümidini, üzmə səbrini.**
**Gözəl dözümü var gözəl Allahın.**

**Xızrı, İlyasıdır bir an yatmayan.**
**Nuhun gəmisidir bir an batmayan.**
**İblisin, şeytanın əli çatmayan**
**Gözəl bəzmi var gözəl Allahın.**

**Arzular ardınca ağıl at çapar.**
**Könüllər ünvanı Tanrıda tapar.**
**Ədalət pozulsa, Qiyamət qopar--**
**Gözəl çözümü var gözəl Allahın.**

**Müqəddəs İslamdır tutduğum tək yol.**
**Ey könül, hər işdə Allah ilə ol!**
**Gözüm Ona heyran, qəlbim Ona qul--**
**Gözəl rəsmi var gözəl Allahın!**

## BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ

**(simfonik marş)**

***ŞAİR: NAMİQ ATABƏYLİ (ATASOY)***
***BƏSTƏKAR: ƏDVİYYƏ RƏHMƏTOVA***

**Bir kərə yüksələn Bayraq,**
**Hürriyyətlər doğdu səni.**
**Bir kərə yüksələn Bayraq,**
**Əsarətlər boğdu səni.**

**Dünənimiz təkcə sənsən,**
**Sabahımız səndən keçir.**
**Dincliyimiz təkcə sənsən.**
**Savaşımız səndən keçir.**
**Bir kərə yüksələn Bayraq.**

**Qılınc vuran qolumuzsan,**
**Sən azadlıq yolumuzsan.**
**Simurq kimi doğulmusan,**
**Bir kərə yüksələn Bayraq.**

**Topla yenə gücümüzü,**
**Yenilməyən əzmimizi.**
**Nəsil-nəsil qaldır bizi,**
**Bir kərə yüksələn Bayraq.**

**PS: N. Atabəylinin bu şeiri ilk dəfə 1991-cı ilin 2 fevralında "İlham" (N-13) qəzetində Sovet işğalı və Hərbi Vəziyyət rejimi şəraitində "Atasoy" psevdonimi ilə dərc edilib. Müəllif özü qəzetdə ədəbi şöbənin müdiri olmuşdur. Daha sonralar əsər müəllifin "Azadlığın qədri" ("İşıq" nəşr., Bakı-1996 ) kitabında ilk səhifədə, habelə kitab halında nəşr olunmuş "Şahid" (Bakı-2010,) və "Ana ürəyi" (Bakı-2013: --"Avropa" nəşriyyatı) poemalarında Proloq yerində təkrar işıq üzü görmüşdür. 90-cı illərin ortasında bəstəkar Ədviyyə Rəhmətova bu şeirə Arif Məlikovun tövsiyəsi ilə eyniadlı simfonik Marş yazmış, əsər Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən ifa olunaraq, Müsabiqə əsasında Qızal Fonda daxil edilmiş və müxtəlif müsiqi dərsliklərinə salınmışdır.**

## ATALARA XİTAB

**Mənə yol göstərin-- Həqiqət yolu:**
**Sonacan ünvana düz gedib çatsın.**
**Mənə yol göstərin--Mərifət yolu:**
**Vətənə, millətə əlin uzatsın.**

**Mənə yol göstərin--Məhəbbət yolu:**
**Kimsəyə ayrılıq gətirməsin o.**
**Mənə yol göstərin--Sədaqət yolu:**
**Dosta ehtibarı ititməsin o.**

**Mənə yol göstərin--Ədalət yolu:**
**Vicdana söykənən qalacıq olsun.**
**Mənə yol göstərin--Səxavət yolu:**
**Əl açan olmasın, əlaçıq olsun.**

**Mənə yol göstərin--Kəramət yolu:**
**Allahın ruzusu hamıya çatsın.**
**Mənə yol göstərin--Qiyamət yolu:**
**Ölmüş ürəklərdə sevgi oyatsın**

**PS:** ***Atam Rəşid Fərəcov üçün***

## ALİMLİK

**Bu dünya Allahın bir Kitabıdır.**
**Açın vərəq-vərəq, oxumaq üçün!**
**Elm insanlığın ilk mehrabıdır,**
**Məktəb-- cənnətin son açarı bu gün!**

**Elmdən kənarda dünya qaranlıq,**
**Müəllimsiz məclis--cəhalət xoru.**
**Açılan sabaha baxın bir anlıq:**
**Günəş də boylanır Kitaba doğru.**

**Tumansız gəlindir imansız alim.**
**Elm imandandır,-- çoxu deyibdir.**
**Həyat bir məktəbdir, Vicdan--müəllim:**
**Allah Quran ilə "OXU!" deyibdir.**

**İmana çağrışdır Kitaba çağrış.**
**Elmsiz həyatın təməli yoxdur.**
**Haramdır o şəxsə Yerdə bir qarış:**
**Həyatda öz sözü, əməli yoxdur...**

**Taleyin Dan yeri məktəb çağıdır,**
**Sönməz əsrlərcə Ağlın şəfəqi.**
**Dünyanın zirvəsi Elm dağıdır,**
**İnsanlığın tacı-- kitab vərəqi.**

**Çıxmayıb yadımdan ta indiyəcən**
**Məktəbə ilk dəfə atdığım addım.**
**Anadan hamı tək doğulsam da mən,**
**Kitabdan başlayıb bütün həyatım!**

**Addım var--ağıza pulu aparır,**
**Addım var--ayağa dağı aşdırır.**
**Aaddım var--İblisə qəlbi qoparır,**
**Addım var--Allaha yaxınlaşdırır.**

**Əsla diri deyil, bir mərhumdur,**
**Vicdan cüzdanında pul daşıyanlar.**
**Azadlıq eşqindən tam məhrumdur,**
**Nəfsə, ehtirasa qul yaşayanlar!!.**

**Elm nə vəzifə, nə də ad-sandır,**

**Elm--ülviyyətdən asılan Bayraq!**
**Ağılsız yaşayıb ölmək asandır,**
**Ölüm dühalara yaraşmır ancaq.**

**Nə qədər paxıllıq ocaqlarında**
**Qəzzali, Bruno, Koopernik yanır:**
**Taxtın  gecəsində, sabahlarında**
**Fikrin başı üstə Balta dayanır.**

**Elm düşüncənin azadlığıdır:**
**Kitabla açılıb insanın gözü.**
**Elm insanlığın Haqq çırağıdır,**
**İlk səhər banıdır ALİMİN SÖZÜ!**

**Alimlik sadəcə vəsiqə deyil,**
**Vicdanı yaşadan bir həqiqətdir.**
**Alimlik adicə vəzifə deyil,**
**Allah  qarşısında məsuliyyətdir.**
*PS: AMEA-nın prezidenti  Akif  Əlizadə üçün*

## *BAYRAQ*

**Azadlıq  yönümündən**
**Dönən deyil bu Bayraq!**
**Vətənimin göyündən**
**Enən deyil bu Bayraq!**

**Al qırmızı bir çələng,**
**Yaşıl, mavi--həmahəng:**
**Öz əyninə başqa rəng**
**Geyən deyil by Bayraq!**

**Bu Bakı, bu da Gəncə!**
**Vətən – hər şeydən öncə.**
**Göydə Günəş də sönsə,**
**Sönən deyil bu Bayraq!**

**Həm Naxçıvan! Həm Şirvan! –**
**Birdir bir Azərbaycan!**
**Bakı-Təbriz: heç zaman**
**Bölən deyil bu Bayraq.**

**Ülvi, uca yerdədir.**
**Həm sülh, həm hərblərdir.**
**Döyünən qəlblərdədir,**
**Ölən deyil bu Bayraq.**

**Bənzər uca bir dağa,**
**Yol göstərən mayaka.**
**Ər qürurun ayağa**
**Sərən deyil bu Bayraq!**

**Önündədir savaşın,**
**Qan donduran hər qışın.**
**Bu yurdun bir qarışın**
**Verən deyil bu Bayraq!**

**Hünər, camalımızdır.**
**Ülvi amalımızdır.**
**Ali kamalımızdır,--**
**Bilən deyir,--bu Bayraq!**

**Namiq, göz nurum olub,**

**Daim uğurum olub,**
**Zəfərlərdən doğulub,--**
**Görən deyir,--bu Bayraq!!!**

**PS:Bu şeir 50 milyonluq Dünya Azərbaycanlılarının milli-dini-siyasi BİRLİYİ arzusu ilə qələmə alınmışdır. Hal-hazırda şair Milli Bayrağımızın 100 illiyi (1918-2018) qarşısında "Azərbaycan Bayrağı" adlı yeni poema üzərində çalışır.**

## BİZ

**Haqqın dərgahına Fərhadlar kimi**
**Əlində külüngü gələnlərik biz.**
**Qəlbində gizlədib kədəri, qəmi,**
**Həsrətin üzünə gülənlərik biz.**

**Mənasız gəlmədik biz bu həyata.**
**Andı, sədaqəti vermədik bada.**
**Bu zəri, zərgəri saxta dünyada**
**Saf zərin qədrini bilənlərik biz.**

**Hər ağıl anlamaz sevdanın gücün.**
**Tacdan yuxarıdır bizimçin hüsn.**
**Bir zərif ürəyə yol açmaq üçün**
**Min dağın köksünü dələnlərik biz.**

**Birdən uca deyil məqamı yüzün.**
**Əyrinin ağası, quluyuq düzün.**
**Eşqin kitabından xəyanət sözün**
**Bağrının qanıyla silənlərik biz.**

**Eldən ayrı deyil bizim baxtımız.**
**Haqqa dua ilə keçir vaxtımız.**
**Qurulub qəm üstə könül taxtımız,**
**Sevincin hamıyla bölənlərik biz.**

**PS:Televiziya mədəniyyət verilişlərinin və Muğam Yarışmalarının təşkilatçısı Nadir Axundov üçün**

## *BURDAN QIRATLI KEÇDİ*

**Burdan Qıratlı keçdi,**
**Simurq qanadlı keçdi.**
**Ömrün cıdır düzündən**
**Nəmər, nabatlı keçdi.**

**Rəhm umdu rəhmanından,**
**Dönmədi imanından.**
**Nacislər zamanından**
**Əsilli, zatlı keçdi.**

**Doğdu Günəş içindən,**
**Yer titrədi gücündən.**
**Dünyanın qəm köçündən**
**Toylu, büsatlı keçdi.**

**Azəri torpağından,**
**Kür, Araz qırağından,**
**Tarixin sorağından**
**Şərəfli, adlı keçdi.**

**Dünyanın yay-qışından,**
**Ömrün hər qarışından,**

Talelər yarışından
Cıdır həyatlı keçdi!
Xızır qanadlı keçdi!
PS: **müğənni, eloğlu Zaur Rzayev üçün**

## MƏRDLİK HEKAYƏSİ

**Bir yol gedən ixtiyar danışdı bir əhvalat.
O gündən indiyəcən yaşayıram narahat.
--Bir yol ilə gedirmiş iki nəfər yanaşı,
Biri yol bilən imiş, o biri isə naşı.
Yol bilən atlı olub, naşı olan piyada.
Hamının vəziyyəti eyni deyil dünyada.
Gedəcəyi ünvana naşı yolu soruşur,
Atlı deyir ünvana ən dürüst yolun budur.
Günorta olduğundan yemək yeyirlər onlar,
Azuqə boğçasında atlının hər nəyi var...
Duranda boş cibini ona göstərib naşı,
Yetiməm, kimsəsizəm deyib tökür göz yaşı.
Yol bilən yol xərcini bölür Dədə malı tək,
Naşı dərdin unudub olur xürrəm, sevincək...
Səfər üstə piyada deyir son xahişim var:
Yaxşılığı sonacan xas kişilər bacarar.
Minim atını, azca piyada get sən yolu ,
VALLAH, qiyamətəcən razı qallam, eloğlu!
Yol bilən atdan düşüb yerini verir yada.
Arzuları, məramı bir anda gedir bada.
Naşı atı minərək XÜDAHAFİZ!--söylədi.
Səndən axmaq dünyada hələ görmədim,--dedi.
Əvvəl yolu göstərdin, sonra da yedizdirdin,
Cibinin xərcini də tən bölüb mənə verdin.
Altının atını da əlindən almışam mən,**

**Bayaqkı it günümə bax səni salmışam mən.**
**Bu dünya axmaqlara hərdən belə dərs verir,**
**Ağıllıya çətində, darda son şans göndərir...**
**Yol bilən dedi: Naşı, xəyal səni aldadır,**
**Haram işlər həmişə əvvəl-əvvəl bal dadır.**
**Çəkərsən bir gün gələr cəzasın bu pisliyin,**
**Sənə ağır oturar qazancdan hərisliyin.**
**Etdiyim hər bir şeyi halal edərəm sənə,**
**Yalnız bir sözü burda KİŞİ tək versən mənə:**
**Mənə etdiklərini kimsəyə açıb demə!**
**NAKİŞİLİK bu yurdda minməsin açıq dəbə.**
**Daha heç kəs heç kəsə kömək əli uzatmaz,**
**Yad bir yana, qardaşın qardaş dadına çatmaz.**
**Naşı dedi: Mən atlı, sən adi bir piyada--**
**Bu hünərim dillərə düşməlidir dünyada!..**
**Yaxşılığı kimsədən mən görmədim heç zaman:**
**Təkcə sənsən qarşıma çıxmış o axmaq insan.**
**Nərd atıb bu həyatda, mən Oyunu udmuşam,**
**Əlimə fürsət düşüb, BƏXT QUŞUmu tutmuşam.**
**Alçağa çevrilsə də, bundan belə el, vətən...**
**Məndən heç vaxt yaxşılıq, bir kişilik görməzsən!!**
**...Yol BİLƏN öz yolunu piyada başa vurdu,**
**Yamanlıqlar önündə yaxşılıqlarla durdu.**
**Bəli, vardır dünyada ilahi bir TARAZLIQ--**
**Səhərlərə yol açır GÜNƏŞ adlı bir azlıq!!**
**AZ ƏRlər ölkəsində hər kəsin öz adı var:**
**Mərdliyi namərdliyə dəyişməyək, AZ DOSTLAR!**

## MƏTİNLİK NƏĞMƏSİ

**Ey könül, dünyada hazırı qoyub,
Boş sözə, nağıla, dilə oynama.
Şahın ətrafında Vəziri qoyub,
Küncləri qoruyan Filə oynama.**

**Həyatda öz evin, öz daşın olsun.
Çalış pak ürəyin sirdaşın olsun.
Fikirdə, əməldə öz başın olsun,
Heç yerdə, heç zaman ələ oynama.**

**İşində usta ol, el desin "Əhsən!"
Qansızlıq eləmə, sən ol qankəsən.
Gündə bir səmtə dəyişib əsən
Küləyə oynama, yelə oynama.**

**Göylərə səs salma boş gümbül kimi.
Əyilmə ayağa bir sünbül kimi.
Nəğməsi dəyişməz bir bülbül kimi
Hər bahar bir yeni gülə oynama.**

**Qəlbində müqəddəs mələyin olsun.
Əlində bir Simürq lələyin olsun.
Vicdanın dəyişməz diləyin olsun,
Dəyişən aylara, ilə oynama.**

**Günəş yox, ulduzlar oyatsın səni.
Meydana əqidən qoy atsın səni.
Namiq, öz qılıncın oynatsın səni,
Mizraba oynama, telə oynama.**

## DAŞ

**Dənsiz dəyirmandır fikirsiz beyin--
Hər kəs bir baş ilə gəlir dünyaya.
Müqəddəs saymışıq biz Kəbə evin--
Mərhəmət daş ilə gəlir dünyaya.**

**Çəkər xəyalları arzular hara?!
Qurular qiyamət necə canlara...
Qəlbləri, gözləri ac insanlara
Ölümlər aş ilə gəlir dünyaya.**

**Namərdlər mərdlərdən çox olur nədən,
Günbəgün qürbətə çevrilir vətən?!
Yalanlar quyruqlu doğulur həmən,
Həqiqət faş ilə gəlir dünyaya.**

**Namiq, azadlığa qənimdir həyat.
Qüdrətə baş əyib bütün kainat.
Şahlıq əleyhinə oyundur şahmat--
Qələbə şah ilə gəlir dünyaya.**

***PS: tələbəlik yoldaşım Hikmət İsmayılov üçün***

## BÖYÜK HƏQİQƏT

**Böyük həqiqətlər çox acı olur--
Onu uda bilməz qəlbi tiranlar.
Öləndə tək sevgi möhtacı olur
Bütün ömrü boyu könül qıranlar.**

Dağın gözəlliyi zirvə qarıdır.
Məhəbbət hər kəsin könül varıdır.
Allahın yerdəki sütunlarıdır
Sözünün üstündə dürüst duranlar.

Namiqəm, qəlbimdə Haqqın səsidir.
Şeirlər könlümün nur naməsidir.
Allahın ilahi salnaməsidir
Yazıb yaradanlar, tikib quranlar.

*PS:Azərbaycan Muğamatı və Qəzəliyyatının bilicisi, bəstəkar Sərdar Fərəcov üçün.*

## KİMƏ NƏ?!.

Bir ömür verilir hər bir insana,
Kim necə yaşayır--bu öz işidir.
Bir könül verilir hər bir insana,
Kim necə daşıyır--bu öz işidir.

Bir müsafir kimi gəldik cahana,
Nə arzuya sığdıq, nə də zamana.
Bir addım verilib hər bir insana,
Kim necə başlayır--bu öz işidir.

Ömür həm mərsiyə, həm də qəzəldir.
Həyat gül üzlü yar, həm də əcəldir.
Allahın verdiyi hər şey gözəldir,
Kim nəyi xoşlayır--bu öz işidir.

Namiq, dərdi-səri alma vecinə.
Qoşul hər payızın yarpaq köçünə...
Əbədi deyildir ömürdə hüç nə:
Kim nəyi boşlayır--bu öz işidir.

*PS: tələbəlik yoldaşım N. Cəfərov üçün.*

## PAKLIQ

Həyat  haldan-hala daim düşsə də,
Nənəm, bu dünyada imanın pakdır.
Tək oxun üstündə Yer dəyişsə də,
Ömrün, günün sabit, hər anın pakdır.

Ayın da üzündə neçə ləkə var?!
Həyatda bir yerdə min təhlükə var.
Hər çiyin üstündə bir məkeykə var--
Üzün, alnın açıq, VİCDANın PAKdır!

Bir dost ürəyində çatlar qoymadın.
Doğmaya güc gələ yadlar qoymadın.
Adının üstünə adlar qoymadın--
Sənin bu dünyda ad-sanın pakdır.

Neçə tufanlara sinə gərmisən,
Sən könül alana könül vermisən.
Yolunu azana yol göstərmisən--
HAQQa dəvət edən AZANın pakdır.

Namaz, ibadətdir hər günün, ilin...
ALLAHa duadan yorulmaz dilin.
Açıqdır məscid tək səxavət əlin--
Xalqa süfrən açıq, qazanın pakdır.

Sayəsin üstünə salıbdır XÜDAm,
Huri- mələklərə verilib butan.

**Xəyalın MƏKKƏdə dolaşır müdam--**
**Məramın müqəddəs, məkanın pakdır!**

**Quba, Gəncə, Qazax barlı baharın,**
**Bakı, Naxçıvan, Qax tükənməz varın...**
**Şirvan, Mil, Qarabağ--cənnət diyarın,**
**Talışın əzizdir, Muğanın pakdır!**

**Könüllər yol gəlir zərif izində:**
**Bir ali Məqamsan bu Yer üzündə.**
**Hər İSLAM övladı--ümmət gözündə**
**Əxlaqın müqəddəs, ərkanın pakdır.**

**Bakımın ilahi vicdanısan sən.**
**Tanrımın əşrəfli insanısan sən.**
**Ayların, illərin sarbanısan sən--**
**Səfərin müqəddəs, karvanın pakdır!!**

**PS: bu şeir müəllifin "Ana ürəyi" poemasından götürülüb. Kitab 2013-cü ildə "Avropa" nəşriyyatında nəşr edilib. Əsər 1914-cü ildə 114 yaşlı ağbirçək, Bakı neft milyonçuları aiəsindən olan Nabat Xanım Aşurbəylinin maliyyə vəsaiti hesabına memar Zivər bəy Əhmədbəyov tərəfindən "Təzərir" məscid-ziyarətgahın inşa edilməsinin 100 İlliyinə həsr edilmişdir.**

## ƏBƏDİ QÜRUR

**Çox şey insanlığa kənardan gəlir--**
**Pul da, vəzifə də, eşq də, nifrət də...**
**Xoşbəxtlik nə addan, nə vardan gəlir,**
**Kənarda mövcuddur əsl həqiqət də.**

**Həm tale, həm ömür kənardan gəlir,**
**Ölüm də kənarda gözləyir bizi.**
**Qurandan, İslamdan baş açan bilir--**
**Allah da kənardan izləyir bizi.**

Dostu da kənarda tapıb seçmişik,
Yara da kənarda vurulmuşuq biz.
Bulağı kənardan tapıb içmişik,
Kənara çəkilib durulmuşuq biz.

Yalnız YAXŞILIQdır insanla bağlı--
Hər qəlbin öz odu, közündən gəlir.
Kiməsə yaxşılıq eləmək haqqı
İnsanın içindən, özündən gəlir.

Əlindən yaxşılıq gəlməyən insan
Mərdlik meydanından kənarda durur.
Yalnız hər yaxşılıq elədiyi an
İnsan ürəklərdə qürur doğurur!

## AZADLIQ

Bu dünya taleyin məhbəs divarı:
Qapısı bağlıdır nifrətlə, kinlə.
Sındırıb qapını çıxdım dışarı:
Üfiqlər əl verib görüşdü mənlə.

## KÖLƏLƏR və AZADLAR

Fərman kölə etmir-- əsl kölələr
Qoxudan bağırı yarılanlardır.
Ruhu--qul, varlığı – qara kölgələr,
Həyatçın ayağa sarılanlardır.

QUL kimdir?--bilsin ki, dilin yeyənlər:
Qul deyil savaşda kəfən geyənlər!
QUL--zülmə, zalıma boyun əyənlər,

ZƏFƏRə ümidi qırılanlardır.

Xoşbəxtlər güləndə gözündən gülər.
Gülün bahar eşqi daşları dələr.
İgidlik alnından gülləyə gələr,
Kölələr kürəkdən vurulanlardır.

Azaddır-- əməli, sözü doğrular.
Azaddır-- VİCDANı gül qoxulular.
Azaddır--meydanda QOÇ KOROĞLULAR.
Kölələr--savaşdan yorulanlardır.

AZADLAR--adının üstə duranlar,
Ürəyi KƏBƏdə dövrə vuranlar!!
Kölələr-- əmrlə yatıb duranlar,
Zamanı əl ilə qurulanlardır.

## QIZIL QARANLIQ

*(Məhəmməd Hadiyə ithaf edirəm. Əsər tələbəlik illərində (1980) yazılıb.)*

Əcəlin atdığı bu böyük tora
Hamı düşəcəkdir haçansa tək-tək.
Həyat başdan-başa dönsə də xora,
Tək Solo deyəcək hər kəsdə ürək.

Qəbir tənhalığı var bu dünyada,
Qopsa da yüz məhşər VİCDAN oyanmaz.
Soyuq nəzər salır hamı həyata,
Kimsənin ürəyi kimsəyə yanmaz.

**Alimlər yalançı, kitablar saxta,**
**Axtarma dünyada boş həqiqəti.**
**Ey könül, hər kəsdən dayan qıraqda,**
**Uzaq tut özündən bu cəmiyyəti.**

**Tənhalıq içindən açılır sabah,**
**Tənha ürəklərdə mənalar yatır.**
**Təntənə giclərə gərəkdir ancaq,**
**Ağıl tənhalığa doğru can atır.**

**Yoxdur bu Vətəndə dostum, qardaşım,**
**Yoxdur bir əzizim: həyat ilğımdır.**
**Taleyim-- tarixə yağan göz yaşım,**
**Vətənim-- əbədi tənhalığımdır.**

## ANALARIN QARTAL TALEYİ

**Allah yollarını bağlayar hər an**
**Ana ürəyinə toxunanların.**
**Dəyəri artıqdır min-min kitabdan**
**Ana gözlərində oxunanların.**

**Qəlbinə dəymişəm bilmədən sənin,**
**Mən göz çəkməyirkən övladlarımdan...**
**Ay ana, ağırdır bir anlıq qəmin**
**Mənim bir dünyalıq intizarımdan.**

**Görürəm gözündən giley oxunur:**
**Nədən qəlb sözünü dilin söyləmir?**
**Nəvə soyuqluğu sənə toxunur--**
**Könlün istəyəni gəlin söyləmir...**

**Bu da bir həyatdır, ay əziz ana,**
**Hər meyvə budaqdan bir gün qopacaq.**
**Səni dəyişmərəm bütün cahana,**
**Balamçın yarpaqtək əsirəm ancaq.**

**Sən məni uçurdun bir qartal kimi,**
**Həyatın ən uca zirvələrindən.**
**Üfüqdə gəzirsən hər bir izimi,**
**Duyub anlayıram səni dərindən.**

**İndi o göydən çox Yer çəkir məni,**
**Vətəndə balaca yuva qurmuşam.**
**Balama baxanda görmürəm səni--**
**Elə bil sərhəddə əsgər durmuşam.**

**Mənə tapşırılıb bu kiçik vətən,**
**O, sənin qəlbinin bir parçasıdır.**
**Aldıq estafeti bir-birimizdən,**
**Nəvələr zirvəyə yol açasıdır.**

**Ana, nəvələrdir o qartal gücün--**
**Onlar həm də mənim üfüqlərimdi:**
**Qartal ruhumuzu yaşatmaq üçün**
**Ömrün zirvəsinə uçurlar indi.**
**PS:Anam Laləzar bəyim üçün.**

## ZƏFƏR NƏĞMƏSİ

**Oyun üzərində qurulub həyat,**
**Tale uduzanın üzünə gülməz.**

Oyunda sevinc var, həm də ki nifrət,
Bir kimsə oyunun sonunu bilməz.

Oyundur məhəbbət, oyundur nifrət:
Hisslər  taxta üstə fiqur kimidir.
Qəlbdə həm zəfər var, həm məğlubiyyət--
Hər kəsin son ağlı son hakimidir.

Təklənən uduzur, məhv olur gedir...
Həyat heç kəs üçün  solo deyildir.
Döyüş meydanında oyunçu--ƏSGƏR,
Meydandan  kənarda--adi veyildir...

ÜMİD vadısındə səmum yelidir
Yolu  Əzrayıl tək kəsib duranlar.
Öndəki rəqibdən təhlükəlidir
Oyunun  içində  oyun quranlar.

Bir raunddur cəmi  ÖMÜR/OYUNlar.
Qələbə yol açır ƏBƏDİYYƏTə.
Yalnız  zəfərlərdə  ALLAH hökmü var:
Bais--   uduzandır    məğlubiyyətə...

## ƏBƏDİ CAVAB

Nə qədər sevsəm də mən dostu, yarı
Ürəyim Allahın umudundadır.
Dağın çəmənləri, bağın barları
Göylərin qaralan buludundadır.

Cənnətlə ödəndi Adəmin səhvi.
Kimsə qınamasın bununçun Rəbbi.
Hər bir məmləkətin tarixi məhvi
İnsanın mənəvi süqutundadır.

**Aparıb dünyadan axı kim nəyi?**
**Artıq tut, ey könül, zərdən çörəyi.**
**Gavənin azadlıq eşqi, diləyi**
**Xalqa tarix yazan Firudundadır.**

**Namiqəm, oxudum 1001 kitabı.**
**Çəkdim ürəyimdə hər iztirabı.**
**Bütün sualların əsil cavabı**
**Allahın əbədi sükutundadır.**
**PS:** *Musəddiq Məmmədov üçün*

## OSMAN PAŞA

**Qazaxdan Xəzərə çəkib gətirir**
**Yaxşı hər nə varsa Kür, Osman paşa.**
**50-ni haxladın, köhlən atını**
**İndi 100-ə doğru sür, Osman paşa.**

**Qaydadır ulduzlar parlayar, sönər...**
**Dünyanın gedişi çarx kimi dönər.**
**Uca kürsülərdən yalanlar enər,**
**Biz haqqı söyləsək gur, Osman paşa.**

**Alnında qırış var, saçında bəyaz,**
**Ömrün qışı gəlib, üşüdür ayaz...**
**Sahildə gəzməklə mərcan tapılmaz--**
**Dərya dibindədir dür, Osman paşa.**

**50-dən 100 yaşa yetməsən, eyib!!**
**Həyat bir səfərdir, atalar deyib.**
**Gözlərin işığı azalır, heyif,**
**Ürəkdə artdıqca nur, Osman paşa.**

**Ötür cavanlıq, biz oluruq baba...**
**Saçımız ağ rəngi çəkən kəhraba.**
**Gün gələr, nəvələr deyər: Mərhaba!**
**Yerindən bir kərə dur, Osman paşa.**

**PS: O. Musayevin 50 yaşı münasibəti ilə .**

## HƏSBİ-HAL

**Kişinin vicdanı sekuntantıdır,**
**Hər kəsin öziylə son dueli var.**
**Olumdan ölümə bircə santıdır,**
**Hər kəsin tətikdə duran əli var.**

**Xoş həyat hər kəsin öz qış nağılı.**
**Hər baş bəlalıdır, hər ürək dağlı...**
**Tükənməz deyildir insanın ağlı,**
**Hər kəsin könlündə yatan dəli var.**

**Həyat səbirlidir, tale ərköyün.**
**Yerdən soruşulmur nizamı göyün.**
**Bəndədən sovuşan bir namərdliyin**
**Allah hüzurunda min bədəli var.**

**Dövr edir kainat, dönür qərinə,**
**Gedənin bir kimsə ölmür yerinə.**
**Əbədi deyildir dünyada heç nə--**
**Hər şeyin öz sonu, öz əvvəli var.**

**PS: Əhmədəli Məmmədov üçün**

# ATABƏKİYYƏ

**(Bu iki bənd ulu babamız--Atabəy Şəmsəddin Eldəniz haqqında hələ tələbəlik illərimdən üzərində işlədiyim, heç vaxt ardını yaza bilmədiyim və yaza bilməyəcəyim eyniadlı poemamın əvvəlidir.)**

**Səhra gəmisində üzür qul-uşaq,**
**Önündə fırtına, qasırğalar var.**
**Vətən tarixində o, iz salacaq--**
**Şəmsəddin Eldəniz: adil hökmdar!**

**Bağdad yollarında dəvələr yorğun,**
**O yorğun yollarda gedir qul-uşaq.**
**Gözündən qan damır, bənizi solğun,**
**TANRIya dualar edir o ancaq!..**

**( 4 aprel 1978-ci il: 20 yaşım. BDU-nun yataqxanası)**

# QARA QÜRBƏT

**Mühacirlər üçün**

**Vətənin daş yerindən**
**Mən qırılıb getmişəm.**
**Kürəyimdən, sərimdən**
**Mən vurulub getmişəm.**

**Hey soyuldum, talandım,**
**Atəşlərə qalandım.**
**Ömür boyu bulandım,**
**Mən durulub getmişəm.**

İşgəncədir həyatım,
Qırıldı qol-qanadım...
Haqqımı hey aradım,
Mən yorulub getmişəm.

Ağ yalanmış bu gerçək!
Dözməz buna baş-ürək.
Ya ölmüşəm şəhid tək,
Ya doğulub getmişəm...

## "DAŞ YUXULAR"A CAVAB

**(1990-cı ilin 20 iyununda yazıçı Əkrəm Əylislidən "Azərbaycan müəllimi" qəzeti üçün müsahibə götürdüm: "İnsan olduğumuz yerdən..."Bax, 20.VI.1990, N-46/6982/. Orada Ə. Əylisli ona Heydər Əliyev barədə sualımı belə cavablandırdı: "Tərifləyəndə də, pisləyəndə də həddi aşırıq. Bəla burasıdır ki, hər iki halda həddi aşanlar adətən eyni adamlar olur: bu müdhiş riyakarlığı ifşa etməyə heç tarixin də zoru çatmır... Heydər Əliyev də "həmişəbahar" riyakarlığın 1001 sifətini öz gözləri ilə gördü."**

**Məncə, bu gün Ə. Əylislinin özü tərifdə olmasa da, tənqiddə həmin "həddi aşanlardan" birinə çevrilib. Sakit bir gölə atılmış DAŞ kimi gündəmə izafi gurultu salmış bu əsərə öz münasibətimi bildirmək istərdim.)**

**Bəzən boylanıram qara keçmişə,**
**Gözlərim önündən şeytanlar keçir.**
**Uca dağ zirvəsi üstən həmişə**
**Vətənsiz buludlar, dumanlar keçir...**

**Öldü o keçmişdə neçə arzular--**
**Keçmiş arzumuzun məzarlığıdır.**

**Vicdan daşa dönsə, yenə sarsılar:**
**Keçmiş—duyğuların qəddarlığıdır.**

**Biz öz-özümüzlə etmişik cihad,**
**Tale müharibəli film kimidir.**
**Qabağa boylansaq, bəlkə də, həyat,**
**Geriyə boylansaq, ölüm kimidir.**

**"Daş yuxular" qəlbin daş uyğusudur--**
**Nə üçün sabaha aparaq, Əkrəm?..**
**"Daş yuxular" qəlbin daş duyğusudur--**
**Gəl, daşı qəlblərdən qoparaq, Əkrəm!..**

**Göylərdə ALLAH var-- görür hər şeyi!**
**ALLAH nə edərsə, hökmən edəcək.**
**Əkrəm, qurdalama daha keçmişi,**
**Keçmiş hamımızı düşmən edəcək.**
**(12.I.2013. Bakı.)**

## BİR ŞAİRƏ CAVAB

**("Küçə iti olmaq istəyirəm" şeirinə görə)**
**Deyirsən azaddır küçə itləri**
**Qapıda yalmanan soydaşlarımdan.**
**İtlərin həyatda yoxdur bütləri,**
**Yaltaqlıq bilməzlər onlar heç zaman.**

**Yanından biganə ötər adamlar:**
**Yoxdur bir itirib axtaranı da.**
**Onda nə vicdan var, nə namus, nə ar...**
**Bilnməz hardandır cinsi, qanı da.**

**Bir küçə köpəyi ana düşünməz--**
**Anlamaz dünyada VƏTƏN nə şeydir.**
**Bir qarın çörəkdir anaya əvəz--**
**Qalan hər nə varsa, ona ögeydir.**

**Deyirsən azadlıq avaralıqdır:**
**Qürur etalonu-- küçə itləri!**
**Xeyr! Avaralıq üzqaralıqdır,**
**Azadlığın sonu-- küçə itləri!**

**İnsanın ağlıdır əsil hakimi,**
**İdrak vəziyyətə qul ola bilməz.**
**Atasız, anasız, avara kimi**
**Azadlıq küçədə doğula bilməz!**

## İNSAN

**Qəlbinə cəlladlıq özü etsə də,**
**Dərdini özgədə uyudur insan.**
**Nə qədər uzağa varıb getsə də,**
**Axırda özünə qayıdır insan.**

**Nədən tək doğulur, tək ölüb gedir?!**
**Təzə-tər gül ikən tez solub gedir.**
**Bir anda ulduztək yox olub gedir,**
**Əbədi xatirə oyadır insan...**

**Ürək zəiflikdir, ağıl qüvvədir.**
**Haqqın Kitabında canlı səhfədir.**
**Cənnətdən qovulmuş Adəm-Həvvadır,**
**Allaha qovuşmuş İsadır insan.**

**Gözləri qəlb yaxan, dili ev yıxan,**
**Ömür pətəyinə kədər, dərd yığan,**
**Allahın görünməz əlindən çıxan**
**Tələsik, ilahi qəzadır insan.**

**Başı günah edir, döyür dizinə.**
**Doğuşdan həyatın gülmür üzünə.**
**Beşikdən qəbirə özü-özünə**
**Taleyin verdiyi cəzadır insan.**

**Ömrünü ümidə xərcləyir əbəs.**
**Ölüncən qəlbindən əksilmir həvəs.**
**Qəpik tapmayanda darısqal qəfəs,**
**Milyonu olanda fəzadır insan.**

**Dünyaca bir ruhdur--yaşar bədəndə.**
**İlhamı dolaşar güldə-çəməndə.**
**Torpağın altına səfər edəndə,**
**Sümükdür, kəmikdir, əzadır insan.**

**Sevincdir əkdiyi, dərddir biçdiyi,**
**Ölümdür yolunu tutub getdiyi...**
**Həyatın əbədi şikəst etdiyi**
**Taleyin əlindəəsadır insan.**

**Yadla doğma olub, doğması yaddır.**
**Dünyada qoyduğu quruca addır.**
**Əvvəli – fəlsəfə, ədəbiyyatdır,**
**Sonda -- qeyri-üzvi kimyadır insan.**

**Qəlb Evi genişdir, dünyası dardır.**
**Onda yerin, göyün mənası vardır.**
**İndiki raketdir, bilgisayardır,**
**Dünənki ehramdır, mumyadır insan.**

**Bu üzü abaddır, o üzü viran.**
**Qəlbində İblisdir, dilində QURAN...**
**Zamanın içindəən kiçik bir an,**
**Dünyanın içində dünyadır insan.**

O həm məhəbbətdir, həm də nifrətdir.
Həm qanlı istibdad, həm ədalətdir.
Xülyalar içində bir həqiqətdir,
Gerçəklər içində xülyadır insan.

## DÜZ DEYİRSƏN, YEVGENİ!!

Karyera düzəldirəm özümə,
Onu düzəltməyə-düzəltməyə...
Y. Yevtişenko

Doğrudur, Yevgeni! Əsl karyerist
Bu karyeralara tüpürənlərdir.
Bu gün vəzifədə oturan hər kəs
Onların yolunu süpürənlərdir.

Hər hansı vəzifə tutmuşdu, məgər,
Nizami, Füzuli, Nəsimi, Vahid??.
Xalq daim onların qapısın döyər,
Buna aylar, illər, əsrlər--şahid!!

Sinəyə nə qədər orden taxsa da,
Kimin kim olduğu bilinib gedər:
Üzü divar üstdən xalqa baxsa da,
Adı ürəklərdən silinib gedər.

Zaman vəzifəni havayı verməz:
Satqınlıq, xəyanət, yalan--min dəftər...
Belə karyeralar əbədi sürməz--
Payız yağışı tək hey gəlib gedər...

Harda qəlb üz tutan ünvan var , orda
Həmişə  Füzuli, Vahid oturar.
Yüz illik, min illik karyeralarda
Xalqın qulluğunda dahilər durar.
(1989. Bakı.)

## HAQQ VƏ HƏQİQƏT

Hər zaman piyadadır,
Atsız olur həqiqət.
Zəqqutum, zəhər dadır,
Dadsız olur həqiqət.

Çoxdur üzə söyəni,
Dalda ağız büzəni...
Yoxdur tərif deyəni--
Tostsuz olur həqiqət.

Ayaq çarıq, yol çamır...
Gözlərindən qan damır.
Aləm görür, tanımır--
Adsız olur həqiqət.

Çəkməz  bir addım geri:
Heç yerdə yoxdur yeri...
Saysızdır düşmənləri,
Dostsuz olur həqiqət.

## BİR STƏKAN ÇAY

Dünya dostlar üçün bir çayxanadır.
Gəlmişik burada çay içib gedək...
Ömrün ilk ünvanı-- ata, anadır,
Ordan  könüllərə biz köçüb gedək...

Yardan da irəli dostları seçdik--
Həyat  dolayların bir yerdə aşdıq.
Gənclik  sınağından birlikdə keçdik,
Ömür  yollarında birgə dolaşdıq.

Yüyəni qırılmış atlar kimiydik:
Ayaq hara getdi--başımıza orda.
Gənclik günlərini birgə xərclədik
Boş ciblər içində çayxanalarda...

İndisə yadelli ordular kimi
Nə qədər yaxınıq, eylə uzağıq.
Ürəkdə müxtəlif duyğular kimi
Birimiz  sevincik, birimiz ahıq!

Kim--varlı, kim--kasıb: ayrılıb daha.
Üz-üzə gəlməkdən üzlər utanır.
Hərdən bir uzaqdan kəm baxa-baxa
Hamı bir-birini günahkar sanır...

Dostluq bahasına, borc bahasına
Hər payız, qış, bahar, yay... içmişık biz!
Baxıb dostlarının  iştahasına,
Bir  vaxt dəryalarca çay içmişik biz.

İndi bir istəkan çaydan qaçmağa
Hər kəsin bir aləm bəhanəsi var.
Evində, işində, bağında daha
Hər kəsin ayrıca çayxanası var.

Hamı bu dünyanı bir gün tərk edir--
Dostu haraylayır ürəyin səsi...
Ömrün qürub çağı ağıl dərk edir:
Hər şeyi təzəsi, dostun köhnəsi.

Əvvəllər bir yerdə olanlar hanı?..
Biz ki gözləməzdik bu sonu, dostlar.
Ölümdür-- sonuncu çay istəkanı:
Tək-tək içəcəyik biz onu, dostlar.

## BU DÜNYA

Geci-tezi verməliyik canı ta...
Nəyimiz var aparacaq bu dünya.
Min illik bir palıd olsaq, nə fayda?!--
Kökümüzdən qoparacaq bu dünya.

Qurtuluş yox bir kimsəyə əcəldən.
Yazın dərdin soruş sarı xəzəldən.
Nə bizimlə başlayıbdır əzəldən,
Nə bizimlə qurtaracaq bu dünya.

Boz İblisin fitnəsini kim duyub?
Nağdı verib, nağıllara qəlb uyub.
Ömrümüzdə il üstünə il qoyub,
Dərdimizi artıracaq bu dünya.

Namiq , bir an unutmayaq məhşər var:
Cənnət üçün çoxu çəkib intizar.
Gedənlərə Nuhu edib xilaskar,
Gələnləri batıracaq bu dünya.

*PS: Arif Zeynalov üçün*

## İLAHİ!..

(Bu şeir kənddə ilk pedaqoji fəaliyyətimə son qoduğum gün yazılıb: iyul 1985-cü il.)

Dünyanın sinəsi çoxu arandı,
Ürəkdə nə qədər dağ var, İlahi?

Hər addım başında ölümdü, qandı,
Həyatda nə qədər sağ var, İlahi?..

Nə qədər yolçu var yollar yaşayır...
Nə qədər rüşvət var pullar yaşayır...
Nə qədər ayaqda qullar yaşayır,
O qədər başlarda şah var, İlahi!

Fərhad, Məcnun öldü qəlbində qübar.
Kamına yetmədi nə qədər nigar...
Nə qədər sevgi var-- ayrılıq da var,
Nə qədər ürək var-- ah var, İlahi.

Min könül bulanır, bir göz durulur,
Ədalət axtaran ömür yorulur.
Nə qədər məhkəmə, divan qurulur,
O qədər pozulan haqq var, İlahi.

Namiqəm. Matəmdir könül aləmim.
Sığmaz yerə, göyə dərdim, ələmim.
Göz yaşı tökəcək Qara Qələmim
Nə qədər kəfən var, ağ var, İlahi.

## SUALLAR VƏ CAVABLAR

Tale şahmat üstə qurulmuş oyun:
Özümü Piyada sana bilmirəm.
Mən qara əllərə əymirəm boyun,
Qüruru qurbanlıq dana bilmirəm.

Elə ki dünyaya bir gün gəlirsən,
Allah da bu yeri, bu göyü verir...
Bəs niyə bu dünya hara gedirsən,
Haraya gəlirsən Neft iyi verir?!

**Sual dənizində üzürəm hər gün--**
**Şübhə yelkənlərin ataraq suya.**
**Haqqın tərəfində olduğum üçün**
**Bir cavab tapmıram yalan dünyaya.**

**Kimsəni etmirəm mühakimə mən--**
**Bununçün dünyanın öz Allahı var.**
**Üzmürəm əli də ümidlərimdən--**
**Hər zülmət gecənin bir sabahı var.**

**İnsan günahını ümmanlar yusa,**
**Kifayət eləməz onlara su da.**
**Əgər düzələsi yeri yoxdusa,**
**Allahın səhvidir insan dünyada...**

**Götür-qoy edirəm səhvlərimi:**
**Onların nə sayı, nə hesabı var.**
**Həyatda tapmadım mən öz yerimi--**
**Bunun nə sualı, nə cavabı var...**

## ÖLÜM VƏ NİFRƏT

**Nifrət ölümdən də qəddar duyğudur,**
**Boylanmaz qurbana dönüb bir anlıq.**
**Məhəbbət ömürdən uzun yuxudur:**
**Əvvəli qaranlıq, sonu qaranlıq...**

**Nifrət-- bu həyata ölü bir sual,**
**Məhəbbət-- Allaha canlı xitabdır.**
**Qalib gələcəkmi cahanda KAMAL?!**
**Dünya başdan-başa sirli kitabdır...**

**Həyat da, ölüm də tam gerçəklikdir:**
**Amini verilir Fatihəsində.**
**Dünya yaranandan nifrət hökm edir**
**İnsanla İblisin əhatəsində.**

**Hər qadın qəlbində nifrətin boğur,**
**Hər qadın gözündə eşqin bildirir...**
**Bütün kişiləri qadınlar doğur,**
**Bütün kişiləri qadın öldürür!!**

## RİCƏT

**Hərdən soruşuram mən öz-özümdən**
**Həyatın yolları haradan keçir?**
**Aslanlar, pələnglər niyə gülədən,**
**Çaqqallar, tülkülər aradan keçir?**

**Ümid bağlamadım quru minnətə,**
**Bilet aramadım hazır cənnətə.**
**Tarixə görk olan şana, şöhrətə**
**İsgəndərin yolu Daradan keçir.**

**Həyat çox gözəldir baxsaq uzaqdan,**
**Qorun yaxındakı şərdən, nahaqdan...**
**Həqiqət yolunu küncdən, bucaqdan,**
**Yalanlar meydanı paraddan keçir.**

**Hərdən, ey oxucum, soruş özündən:**
**Nələr gizlədibsən sən öz gözündən?**
**Namiqin incimə qızıl sözündən,**
**Tarix ağ kağıza qaradan keçır.**

**PS: Bu şeir 2010-cu ildə işıq üzü görmüş “Şahid” lirik-fəlsəfi poemamdan bir parçadır.(“Terrorizm--qan çilənən torpaqlar”,**
**III kitab, səh.178. Bakı—2010,“Avropa” nəşriyyatı)**

## QURBANLIQ QUZU

**Ey qurbanlıq quzu! Dünya qatildir:**
**Canı bəsləyirlər, başı kəsələr.**
**Ənənə yaşayır--neçə nəsildir:**
**Şahı sevdirirlər, xalqı əzələr.**

**Tüpür bu həyatda hər cür şaglığa:**
**Bir cəllad torpağa min-min baş düzər.**
**İnanma əvəzsiz xeyirxahlığa,**
**Quzunu kim bəslər, özü də kəsər...**

**Yaşadan öldürür, bəsləyən kəsir:**
**Qurbanlıq quzunun taleyi budur.**
**Havayı yardıma hər kəs tələsir,**
**Ağır nəticəni hamı unudur.**

## OYUN

**Cəllad qurbanına qonaqlıq verir,**
**Kabab oyundadır, köz oyundadır.**
**Vədəbaz kürsüyə sinəsin gərir,**
**Söhbət oyundadır, söz oyundadır.**

**Xalqa loğman olub hər ruhi xəstə,**
**Məsciddə şeytanlar oturub bəstə.**
**Siyasət qurulub vədlərin üstə,**
**Hamam oyundadır, qoz oyundadır.**

**Matəm--dəli üçün əsil toy-düyün...**
**Başsızlar qatıblar başın millətin.**
**Vətən ruletkada fırlanır hər gün,**
**Əyri oyundadır, düz oyundadır.**

**Əğyar cəzb eləyir hər ülkər yarı.**
**Doğru da üz tutub hiyləyə sarı.**
**Şouya başlayıb el sənətkarı--**
**Kaman oyundadır, saz oyundadır.**

**Başsızlar "baş" olub başçı işində,**
**Qarğa büsat qurub qartal leşində.**
**Ər qürbət ellərdə "çörək peşində",**
**Arvad oyundadır, qız oyundadır.**

**Həqiqətin yeri xülyalarındır,**
**Qardaşdan irəli yenə qarındır.**
**Meydanlar siyasi "peşka"larındır,**
**Butulka oyunda, paz oyundadır.**

**PS: Bu şeir 2010-cu ildə işıq üzü görmüş "Şahid" lirik-fəlsəfi poemamdan bir parçadır.("Terrorizm--qan çilənən torpaqlar",**
**III kitab, səh.178. Bakı—2010, "Avropa" nəşriyyatı)**

## ÖLÜM FƏLSƏFƏSİ

**Ölüm nə olduğun anlamaz heyvan:**
**Su içib kövşəyər, dolanıb ölər.**
**Haçansa torpağa düşdüyü zaman**
**Son kərə otluğa boylanıb ölər...**

**Bu qoca dünyanın cavan köksündə**
**Qarınlı, buxaqlı kişilər gəzər...**

**Aclığı duyarkən beş kərə gündə**
**Yemək süfrəsinə sarı tələsər.**

**Ölümü dərk edib anlamaz heyvan.**
**O, hardan bisin ki azadlıq nədir?**
**Ölümü dərk edib qanmayan insan**
**Ağzı ot çeynəyən heyvan kimidir.**

**Günəş də aləmə kölgələr salır...**
**Həyat məhrumiyyət, məhdudiyyətdir.**
**Ömürdə çox şeylər yarımçıq qalır--**
**Ölümsə mükəmməl əbədiyyətdir!**

**Həyat qarşıdurma, dərin əkslik,**
**Ölüm o dünyaya səfərbərlikdir.**
**Həyat  bir ömürlük  ayrı-seçkilik,**
**Ölümsə əbədi bərabərlikdir.**

**Müdriklər yeganə bir şeyi bilir:**
**Ölümdən qüdrətli deyildir Zaman!!**
**Ölüm fəlsəfəsi Allahdan gəlir,**
**Ölüb Xaliqinə qovuşur İnsan.**

## SON QATAR

**(Bu şeiri 50 yaşına yetmədən dünyasını dəyişmiş bütün sabiq orta , texniki peşə və ali məktəb yoldaşlarıma, dost və tanışlarıma ithaf edirəm.)**

**Hər kəsin ömründən bir qatar keçir,**
**Hərənin əlində bir bileti var.**
**Kimsə qatarını yanılış seçir,**
**Hərdən səhv düşür tale-ünvanlar.**

**Heç kəs ilk vağzalda qalmaq istəməz,**
**Arzular ürəyi yollara çəkər.**
**Qoparar insanın taleyində səs**
**Bir qatar, bir vaqon, bir də ki təkər...**

**Gen dünya insanın başına dardır,**
**Çoxu doğmaların gözündən uzaq.**
**Hər kəsin qəriblik dastanı vardır--**
**Hamı ömür sürür özündən uzaq.**

**ÖLÜM VAĞZALIdır sonuncu ünvan.**
**Bütün həsrətlilər burda görüşür.**
**Hər kəsə son kərə qurulur DİVAN:**
**Hər bəxtə, taleyə bir son gün düşür...**

**Hər kəsin ömründən bir qatar keçir.**
**Hərənin əlində bir bileti var.**
**Çoxu ünvanını yanılış seçir--**
**Hamını bir yerə gətirir QATAR!!**

## KADR SİYASƏTİ

**Ey ağıldan seyrək, üzdən qəşənglər,**
**Mən sevə bilmədim sizi heç zaman...**
**Ömürdən xəbərsiz ölsə də, günlər**
**Qəlbində keçmişi dəfn etmir insan.**

**Xaliq boş vaxtında yaradıb sizi--**
**Yoxdur hüsnünüzdə bircə kəm-kəsir.**
**Dahini görməyir heç kəsin gözü,**
**Hamının baxışı sizlərdə gəzir.**

**Çoxunuz oturub vəzifələrdə,**
**Bütün iş uzunu kef soruşursuz.**
**Taleyin asılı olduğu yerdə**
**Günün saatıyla siz vuruşursuz.**

**Nə düşmən, nə dostsuz siz həqiqətlə,**
**Bir anda hər şeylə tez barışarsız.**
**Bir  yüngül ağılla, yumru sifətlə**
**Dünyada hamıdan xürrəm  yaşarsız.**

**Sizə can verənə satarsınız naz,**
**Gülər üzünüzə qapılar açıq;**
**Kövrək  qəlbinizə kimsə toxunmaz,**
**Taleyin özünə verərsiz acıq!**

*Ey ağıldan seyrək, üzdən qəşənglər,*
*Sizin gözünüzlə bizə gülürəm:*
*Başlara tuşlanır bütün tüfənglər,*
*Həyat ağıllını  sevmir,-- bilirəm!!*

## ŞAH ABBAS
## və
## VƏZİR  ALLAHVERDİ  XAN

**Aldın el gücünə düşməndən yurdu:**
**VƏTƏN  bölünmüşdü--bir TAM eylədin.**
**Elə ki, başında qızıl tac durdu--**
**Xalqın Qızıl Başın edam eylədin.**

**Sən həm Şah Abbassan, həm "cənnətməkan"?!**
**Bu xalqa həm düşmən, həm də oğulsan??.**
**Səni daş məzara gömsə də, zaman**
**Hələ ürəklərdə qorxu-nağılsan.**

**Ehtiram etmədin elin dilinə--**
**Farsları bağrının başına qoydun...**
**Qotur İsfahanın bircə telinə**
**Təbrizin minlərcə gözünü ovdun.**

**Tikdin karvan-saray, məhbəs və məscid...**
**Cəsus şəbəkəsi qurdun ölkədə.**
**Bu VƏTƏN, bu millət, bu dünya – şahid:**
**Müsbət bir tərəfin yoxdur heç nədə.**

**Baxıb nadanlarda şahsevənliyə**
**Bığaltı özünçün güldün, ha güldün...**
**Qanlı qılıncını,-Mənəm şah!!--deyə**
**Güllü ətəyinə sildin, ha sildin...**

**Nə qədər tac altda alçalır vüqar,**
**Vətən nadanlara əsir olacaq.**
**Nə qədər şahlıq var, şahsevənlik var--**
**Hayes ALLAHVERDİ--vəzir olacaq!!**
**(1989. Bakı)**

## FİL və AZADLIQ

**(Bakı. 20 Yanvar 1990-cı il.)**

**Filin  ayağını doğulan günü**
**Hindli nazik iplə bağlayır tirə.**
**Dartınıb, çırpınıb o filin geni,**
**Nəhayət,  itaət saxlayır tirə.**

**Bir baş çatısıdır müstəbid Xalqa:**
**Bir qul əsarəti çıxarmaz başdan...**
**İradə aparır insanı Haqqa,**
**Azadlığın yolu keçir savaşdan!!**

**Sən də tirə bağlı o Fil kimisən--**
**Hər zülmə, zalıma boyun əyirkən.**
**Başında oturmuş istibdadı sən**
**Salıb ayaq alta: əz, qurtar, Vətən!**

## XOVF

**(Bu şeir beş yaşında olan qızım Aynurun imzası ilə 19 mart 1991-ci ildə "İlnam" qəzetində, N-10/18. dərc edilib. Həmin gün Naxçıvandan Seyid ocağından--ana nənəsinin yanından uzun müddət sonra Bakıya dönən qızım evimizdə ilk dəfə kiçik NAMAZ xalçasını--canamazını yerə sərdi. Bu vaxt kiçik bacısının onunla səcdəgah üzərində zarafat etməsini xoş qarşılamayıb sərt hədələdi. Mən böyük qızıma ona bu hədəyə görə cəza verəcəyimdən qorxmağı söylədim. Qızım: mən bu dünyada Allahdan başqa heç kəsdən qorxmuram,--dedi. O gündən mən tərbiyə üsulumu dəyişdim. Bu şeir həmin gün həmin hadisənin təəssüratı ilə yazıldı.)**

**Xovfdur bu cahan büsbütün:**
**Çölümüz, içimiz xovfdur.**
**Xovfdur cəmi aşkarımız,**
**Cikimiz, bikimiz xovfdur.**

**Xovfdur bütün bu istibdad,**
**İmanımız, dinimiz xovfdur.**
**Xovfdur bu sürülməz gecələr,**

Ömrümüz, günümüz xovfdur.

Xovfdur hər gün yediyimiz,
Hər gün gördüyümüz xovfdur.
Xovfdur Vətəndən aldığımız,
Vətənə verdiyimiz xovfdur.

Xovfdur başımız üstündə;
Qəlbimizdə hər nə var xovfdur.
Xovfdur hər gün ölənlər,
Hər gün doğulanlar xovfdur.

Xovfdur qaldırdığımız bayraqlar,
Uğrunda öldüyümüz xovfdur.
Xovfdur üstündə ağladığımız.
Üzünə güldüyümüz xovfdur.

Xovfdur hər gün yazdığımız,
Hər gün oxuduğumuz xovfdur.
Xovfdur əlindən qaçdığımız,
Sözünə uyduğumuz xovfdur.

Xovfdur hər zülmü yaşadan,
Insanı qul edən xovfdur.
Xovfdur vicdanı susduran.
Namusu pul edən xovfdur.

Cahanda ən güclü QÜVVƏ:
Rüstəm Zal, Qırxquldur, Gavə--
Nə güllə, nə tüfəng-topdur.
Xovfdur! Xovfdur! Xovfdur!

## SONUN ƏVVƏLİ

**(Diktator Səddam Hüseyn edam edilən gün yazılıb)**

**Vaxtdır, hazırlaşın, gəlib çatıbsız:**
**Daha boynunuza kəndiri seçin.**
**Uca kürsülərdə xeyli yatıbsız--**
**Durmağa bir xeyli hüdürü seçin!**

**Boğub ədaləti, tapdayıb haqqı,**
**Fırlayıb geriyə fələyi, çarxı...**
**Dözümsüz görəndə dözümlü xalqı**
**Allah səbrlidir, səbiri seçin!**

**Torpaq əvəzinə Başa turp əkib,**
**Vətənə, millətə, haqqa dağ çəkib.**
**Daim dəbdəbəli imarət tikib,**
**İndi də ən kiçik qəbiri seçin!**

**Siz az vurmadınız Tarixə zərbə.**
**Üç badam--bir qozdur bu Neft müharibə.**
**Yolunuz bağlıdır Şərq ilə Qərbə:**
**Yaşamaq istəsəz Sibiri seçin!..**

## ÖLÜM SONATASI

**(Bu şeiri həyatdan küskünlərə ithaf edirəm)**

**Bir ucdan ölərək yox oluruq biz,**
**Əl çəkmir Əzrayıl heç birimizdən.**
**Səhra qumu kimi sovruluruq biz--**
**Qeybə çəkilirik öz ömrümüzdən...**

**Ölüm bu həyatın başının tacı--**
**Hamımızı fərqsiz yığır yanına.**

Mavi göy üzündə Ya Ölüm bacı
Xaliqdən yaxındır, bəlkə, insana?!

Həyatı çirkaba batmış insanı
Ölüm göz yaşından təmiz eləyir.
Həyatı qəpiyə dəyməz insanı
Ölüm həyat üçün əziz eləyir.

İnsanlar doğulur, insanlar ölür,
Hər şey əvvəlinə dönür bir anda.
Hər ölən könüldə bir günəş sönür,
Bir ümid azalır bütün cahanda.

Həyat yatıranı ümid oyadar,
Ölüm yatıranı heç nə oyatmaz.
Ölüm həyatları çəkən Son Qatar--
Yolunu bir kərə gedər, qayıtmaz...

Qəlbə ağrı verər doğma itkilər--
Necə də incidər duyğumuz bizi.
Çətin sağlığında könlümüz gülər,
Ölsək,--sevindirər ruhumuz bizi.

Allahdır yaradan hər bir bəndəni!
Bizi çoxmu sevir Xaliqdən Əcəl?
Bəs niyə dünyadan ölüb gedəni
Həyat məhv eləyir Ölümdən əvvəl?!.

Doğulluq bir kərə, öllük min kərə...
Beşikdən məzara yol-- tək Əcəldir.
Deyirəm, bəlkə də, məhz buna görə
Həyatdan, əslində, Ölüm gözəldir.

## ÇƏTİN YOL

**Daim çətin olub əyri yollardan**
**İnsana həyatda düz yolu getmək.**
**Nə var:  qayda pozub gəldisə hardan--**
**Gah sağı yerimək, gah solu getmək...**

**Düz yolun önündə neçə maniə,**
**Neçə təhlükə var, duman var, çən var...**
**Düz yolda  hər gündüz, gecə maneə,**
**Hər addım başında neçə düşmən var...**

**Yalan məktəbidir elə bil həyat,**
**Doğruya nə hörmət, nə də ki yer var.**
**Ağızda udulan oksigen deyil,**
**Yalanı hava tək udur insanlar...**

**Yalan vəzifəli,  yalan maşınla...**
**Doğru ömrü boyu piyada qalır.**
**Düzlük santimetr,  əyri arşınla**
**Dünyanın gözündə qiymətlər alır...**

**Ömürlər qısadır, arzular böyük...**
**Bayrağa dönənlər daha sağ deyil.**
**Ömürlər, talelər oyundur gerçək--**
**Arzular, ümidlər oyuncaq deyil.**

**Sevincdən uzağıq, dərddə başdayıq.**
**Baharın adı var, soyuq qışdayıq.**
**Beşikdən qəbirə biz savaşdayıq--**
**Bu dünya meydandır, boş qucaq deyil.**

**Ömrü məngənədə sıxır dar zaman.**
**Heç kəsə verilmir bir möhlət, imkan...**
**Ölüncən əlləşib çalışır insan:**
**Ehtiyac  kor pazdır, düz bucaq deyil.**

**BAKI nefti üçün çarpışır cahan.**
**Siyasət yürüdür yerindən duran...**
**Odlar Yurdumuzun bağrından çıxan**
**Azəri qanıdır, yanacaq deyil.**

**Yollarda yol kəsən yolçudan çoxdur.**
**Tarix addımlayır geriyə doğru.**
**Məqsədin heç yerdə düz yolu yoxdur,**
**Günəş də fırlanır əyriyə doğru...**

**...Boşluğa dirənib dayanmışam mən.**
**Önümdə nə uçrum, nə də sədd durur.**
**Əlimi üzmüşəm daha ümiddən,**
**Sinəmdə boşuna ürəyim vurur...**

**Ünvansız naməlum yola düşmüşəm,**
**Yolun nə əvvəli, nə sonu vardır.**
**Önümdə əbədi qaranlıq guşəm,**
**Arxamda boşluğun boz fonu vardır.**

**Dillər söz üyüdən dəyirman olub,**
**Ürəklər hisslərin məzarı burda.**
**Sovulmuş zəmiyə çəyirtgə dolub,**
**Kor gözlər ağlayır qup-quru yurda.**

**Səhrada su kimi qəhətdir vicdan.**
**Alıb aldatmaqdır hamının işi.**
**İrəli aparmır heç nəyi zaman,**
**Tərsinə fırlayır fələk gərdişi.**

**Boşluğa dirənib dayanmışam mən.**
**Önümdə nə uçrum, nə də sədd durur.**
**Əlimi üzmüşəm hər bir ümiddən,**
**Sinəmdə boşuna ürəyim vurur...**

**PS: bu şeir müəllifin "Ana ürəyi" poemasından götürülüb.**

## OLMUR

**Daha iki ayaqlı yaşamaq olmur,**
**Enək dörd ayağa-- əllərin üstə?!**
**Daha ağlı başda heç kim doğulmur.**
**Gedək məsləhətə ölülərin üstə?!**

**Yeyir canavar tək insanı insan.**
**Verilir ölüyə dirilər ehsan...**
**Məchul bir nöqtədə dayanıb zaman,**
**İllər gəlməyəcək illərin üstə.**

**Vətəndaş yurdunda çevrilib yada.**
**Bir addım başında durub min xəta.**
**Hələ bundan sonra qoca dünyada**
**Kimlər yeriyəcək kimlərin üstə?!**

**Mini pozan yerdə biri yazardır.**
**Həyatın hər anı ölüm- azardır.**
**Bəlkə, ən yaxşı yer soyuq məzardır--**
**Güllər qoyulacaq güllərin üstə.**
**PS: bu şeir müəllifin "Ana ürəyi" poemasından götürülüb.**

## KİM BİLİR?

**Öndə bir düşmən var--adı erməni,**
**Arxada neçədir onu kim bilir?**
**Kim açıb bir XALQa iki cəbhəni,**
**Nədir bu oyunun sonu kim bilir?**

**Xəstədir can verir AZƏRBAYCANım.**
**Axır quru yurda bir XƏZƏR qanım.**
**Ey mənim qardaşım, ey mənim canım,**
**Kim tökür bu qədər qanı kim bilir?**

**Bülbüllər ağlardır güllərə görə,**
**Çox başlar kəsilir dillərə görə...**
**Bu haqsız, mürvətsiz illərə görə**
**Haqq-hesab çəkilən anı kim bilir?**

**Allahmı unudub yoxsa bəndəni?!**
**Həmzə Koroğluya gəlir hədəni.**
**Hər azğın bir səmtə çəkir Vətəni,**
**Haradır millətin yönü kim bilir?**

**Dilimdən, qəlbimdən düşməyir VƏTƏN!**
**Dünya dəyişməzdir-- insanlar həmən.**
**Namərdcə arxamdan bir gün ya düşmən,**
**Ya da dost vuracaq məni kim bilir?!.**

**PS: bu şeir müəllifin "Ana ürəyi" poemasından götürülüb.**

## DÜNYANIN

**Qaçqını hakimdir, məskunu--məhkum,**
**Tərsinə fırlanır valı dünyanın.**
**Heç kəsin kitabın oxumur heç kim,**
**Tamam tapmacadır halı dünyanın.**

**Həmən köhnə hamam, həmən – dəyirman...**
**Bir ölü nöqtədə dayanıb zaman.**
**Bir qara qəpiyə dəymirkən İNSAN,**
**Dünyadan bahadır malı dünyanın.**

**Ölümlə yazılıb hər səhifəsi.**
**Ən salim yeridir qara məhbəsi.**
**"Müqəddəs ana"dır çal fahişəsi,**
**Təzə dil öyrədir lalı dünyanın.**

**Qəribdir vətəndaş, qürbətdir VƏTƏN.**
**Əksilmir başlardan bu duman, bu çən.**
**Eyni OX üstündə hey fırlanırkən,**
**Sağına boylanmır solu dünyanın.**

Ayırmaz yamanla yaxşının fərqin.
Gözəllik Kralı seçilir çirkin...
Yalan dəryasında batırkən hər gün
Sudan quru çıxır çulu dünyanın.

Qalxanın xəbəri yoxdur enəndən.
Bu günün xəbəri yoxdur dünəndən.
İnsanı həyata gəldiyi gündən
Aparır məzara yolu dünyanın...
PS: bu şeir müəllifin "Ana ürəyi" poemasından götürülüb.

## HƏR YOLUN BAŞINDA BİR ƏFİ İLAN

Hər yolun başında bir Əfi İlan,
Hər şirin dil altda bir zəhər yatır.
Hər əmin könüldə bir sonsuz güman,
Hər ünvan başında bir səfər yatır.

Könül, aslan kimi atıl həyata,
Əbədi məğlublar olmur dünyada.
Əyilmə düşmənə, satılma yada:
Hər savaş sonunda bir zəfər yatır.

Həyat bir məhbəsdir ömürdən öncə.
Uyma qanad açıb uçan cəfəngə.
Müdriklər inanmaz yüngül sevincə,
Hər xürrəm könüldə bir kədər yatır.

Hər qışın axırı güllü bahardır.
Hər Məcnun bir üzü Leylaya yardır.
Hər zülmün , zalımın bir sonu vardır:
Hər zülmət sonunda bir səhər yatır.
PS: bu şeir müəllifin "Ana ürəyi" poemasından götürülüb.

## QOCA DÜNYADA

**Bir can borcumuz var qoca dünyada**
**Uca Tanrımızın öz qarşısında.**
**Bu borc qaçılmazdır, cəhdlər bihuda:**
**Sərvət qarşısında, söz qarşısında...**

**Oğrular qanundan qalalar qurur,**
**Cinayət cəzaya qandallar vurur,**
**Yalan həqiqətin taxtında durur,**
**Düzü görən yoxdur göz qarşısında.**

**Başa da düşülmür kim--kimdir, nədir??**
**Xalqa kim doğmadır, kim biganədir.**
**Qarğalar bülbülə nəğmə öyrədir,**
**Kül oddan danışır köz qarşısında.**

**Ər başı namərdlər qoltuğundadır.**
**Ac ölkə vədlər bolluğundadır.**
**Koroğlu Həmzələr qulluğundadır,**
**Yaxşı boyun əyir pis qarşısında.**

**Ariflər züllətdə, əskiklər taxtda.**
**Geriyə fırlanır tarix də, vaxt da.**
**Mizamlar pozuqdur, əyarlar saxta,**
**Qızıl qiymətsizdir mis qarşısında.**

**Bütün diləyimiz qalır ürəkdə...**
**Yarı yuxudayıq, yarı gerçəkdə...**
**Həyatı məcburən əyri getsək də,**
**Durmuşuq ölümün düz qarşısında.**
**20.I.1990**

# MƏMMƏD ƏMİN RƏSULZADƏNİ ANARKƏN

**Sənə gün demirəm--gün batır, çıxır...**
**Heç zaman qaralmaz gündüzün sənin.**
**Haqqa, Həqiqətə, Vətənə baxır**
**Günəşdən işıqlı hər üzün sənin.**

**Azadlıq! İstiqlal! Zəfər!—dedin sən.**
**Yurdumdan əksilməz hünər!--dedin sən.**
**Bu uca BAYRAQa Qədər!--dedin sən:**
**Silinməz Tarixdən bir sözün sənin.**

**Yurdda at oynatdı hər azğın gədə...**
**Soyub yağmaladı xalqı min çetə.**
**Düşməni dərdinə gülən ölkədə**
**Ağladı Vətənə hər gözün sənin.**

**İzzət-- pul-parada, küfr--imanda?!.**
**Qurban həbsdəydi, cani – amanda...**
**Bu xəstə dünyada, xəstə zamanda**
**Dərdin dərmanıydın tək özün sənin.**

**Daim dəyişəcək bu aylar, illər...**
**Qovacaq bir-birin yenə fəsillər...**
**Gələcək, gedəcək neçə nəsillər--**
**Bir də olmayacaq əvəzin sənin.**

**PS:müəllifin "Ana ürəyi" poemasından. Eyniadlı kitabın 81-82-ci səhifəsi,**
**"Avropa" nəşriyyatı, Bakı-2013.**

## QƏZƏLLƏR:2014

**1**

**Uca Tanrı, özün qoru bizi hər cür bəlalərdən,**
**Əduyi-əğyarilərdən gələn min cür xətalərdən.**

**Şəhid getdi Qarabağın davasında bəy-oğlanlar,**
**Nə gözləsin Vətən indi, fərar etmiş gədalərdən?**

**Bürüyübdür gülizari bu gün şaxta, çovğuni-qar,**
**Açarmı gül bağçamıza zəif düşən ziyalərdən?**

**Varmıdır Möminə Xatun?.. Cəlaliyyə, Zübeydələr?..**
**Doğa yurda canın qoymuş Atabəyli fədalərdən!!**

**Körfəzi-Kəngəridən ta ki Dəmiri-Dərbəndiyə kimi,**
**Gələr bir gün Azəriyə Şah İsmayıl Atalərdən.**

**Oxu, ey Tar! Könül gülsün fələyin cövrinə qarşı**
**Sari simin çıxardığı döyüş ruhlu sədalərdən.**

**Səslən, ilham, Atabəylər Ordusuna ərən çağır:**
**Beyt-beyt düzək şeirə qılınc üzlü nidalərdən.**

**2**

**Nə ki başdan yuxarı başda duran var qələm,**
**Verib hər hökmü başa, çıxardar qərar qələm.**

**Bizə Adəm verəcək olsa, nə ki hökmü-qərar,**
**Salacaq qüvvədən o bir Pərvərdigar qələm.**

**Söz ağızdan ki çıxar, sovrulub yellərlə gedər,**
**Eləməz heç özünü boş söz ilə xar qələm.**

**Qışın ən qarlı çağı bülbüli-şeydamızkən,**
**Gül kimi xəndan olar ömürdə gülzar qələm.**

**Baş ağır gələr isə, öz bədənilə çəkidə,**

**Olar öz Vətənindən bir tərki-diyar qələm...**

**Könül ki Şirin üçün düşə dağa Fərhad tək,**
**Əyməz baş Xosrovlara tişeyi-vüqar qələm.**

**Atabəy gədaların önündə əyməzkən baş,**
**Saxlayar könlün uca əlində əşar-qələm.**
**PS: M.Füzulinin "Qələm" rədifli qəsidəsinin təsiri ilə yazılıb:**
**Sipehr-mənzilata, ol Füzuliyi-zarəm**
**Ki, hali-zarımı yazınca oldu zar qələm.**

**3**

**Nə qədər ömrüm var sürrəm yalnız canan ilə.**
**Ayırmam canı candan, canım candır canan ilə.**

**Gəl məni imtahana az çək, fələk, Məcnun mənəm:**
**Leyladan əl çəkmərəm hər ayrılıq, hicran ilə.**

**Neylirəm xoş günləri, eşq olsa da, cövri-cəfa,**
**Sürərəm ömrü, günü ömrüm boyu əfqan ilə.**

**Qış ötər, yaz qayıdar, açılar min güli-rəna,**
**Sulanar bağü-bağça gözlərimdən giryan ilə.**

**Seyid 50 yaşda idi nöqtə qoyanda qəzələ,**
**150 il çıxmaz deyə kimsə ismi-Şirvan ilə.**

**Gədalər zamanıdır: haqq piyadə, haqsız atlı—**
**Getmərəm bu yolu mən ölsəm də, bu dövran ilə.**

**Ey Atabəy, qəzəl eşqi deyirlər ki, ölüb gedir,**
**Şair adın yad eləyək "VAHİD" adlı divan ilə.**

**4**

**Yenə yar qəsd eləyir yara qurban canımıza,**
**Yenə can verək deyir yar canı-cananımıza.**

**Oxuyur min qəm ilə bülbüli-şeyda bu səhər,**
**Yenə matəm düşübdü güllü gülüstanımıza.**

**Bu qara bağrımızı yandırır həsrətlə nigar,**
**Yenə aləm bələnir dideyi-giryanımıza.**

**Dolaşıb ömrümüzün yolları da bir-birinə,**
**Çevrilib taleyi-bəxt zülfi-pərişanımıza.**

**Yenə bir ləhzə bizim yoxdu sevincdən payımız,**
**Yenə dərd, qüssə dönüb könüldə mehmanımıza.**

**Bizə nə cövri-cəfa eyləyibsə, yar eləyib,**
**Biz niyə şikayətçi olmuşuq dövranımıza?**

**Atabəy, gədaları tale başa çıxardıbsa,**
**Nə deyək gədalara aşiqi-heyranımıza?!**

## DÜRDANƏ

**Bir Tanrı sirridir bu yer, bu cahan.**
**Bəlkə də, hər şeydə dərin məna var.**
**Bəzən başa düşmür, anlamır insan**
**Dünyaya gəlməkdə, getməkdə nə var...**

**Buludu içməzsə quruyar dəniz.**
**Xanım, xatınlıqdan uzaqdır kəniz.**
**Arifə, cahilə bölünmüşük biz:**
**Bir dana başlı var, bir də danə var.**

**Oxuduq: çox sirdən olmadıq agah:**
**Bəndənin üzünə bağlıdır dərgah.**
**Gədədən bəy olmaz, nökərdən də şah--**
**"Peşkan"ı "Ferz" edən neçə xanə var.**

Həyatdan dərsini almaz hər insan.
Könlünü mehraba salmaz hər insan.
Yeyib içməyindən qalmaz hər insan--
Hər məscid yanında bir  meyxanə var.

Oxuyun qəlbimi kamanda, tarda,
Bağlıdır taleyim  bu ana yurda.
Namiqəm, ürəyim dəryadır orda
Əlli sədəf varsa,  bir dürdanə var.
*PS: Müğənni M. Əyyubova üçün*

## *SƏN QAYITMADIN*

Mən səni gözlədim sevdalı yazda,
Çiçəklər qayıtdı, sən qayıtmadın...
Mən səni gözlədim tənha payızda,
Küləklər qayıtdı, sən qayıtmadın...

Sən küsüb getmisən--Günəşim batıb.
Həyatım zülmətdir, taleyim yatıb.
Könül harayıma cənnəti atıb,
Mələklər qayıtdı, sən qayıtmadın...

Bu tənha qəlbimdə sonsuz ümid var:
Gözlərəm yolunu hər qış, hər bahar.
Qoşulub səninlə getmiş arzular,
Diləklər qayıtdı, sən qayıtmadın...

Tanış cığırlarda qərib tək azdım.
Könül bayrağını ruhuma asdım.
Daim  ünvanına üzrümü yazdım,
Vərəqlər qayıtdı, sən qayıtmadın...

Yazan bəxtimizi yazdı əksinə,
Dağ çəkdi Namiqin məğrur köksünə.

**Dönüb öz getdiyi yolu tərsinə**
**Fələklər qayıtdı, sən qayıtmadın...**
*PS: eloğlu müğənni Akif İslamzadə üçün.*

## EŞQ HEKAYƏSİ

**Hər kəsin könlünün eşq hekayəsi,**
**Hər kəsin başının macərası var.**
**Hər bağlı qapının açar-cəftəsi,**
**Hər dərdi-bəlanın bir çarəsi var.**

**Öz qışı, öz yazı vardır hər ilin.**
**Anası dağlardır ən coşqun selin.**
**Hər tikanlı gülü sevən bülbülün**
**Ərşə bülənd olan öz naləsi var...**

**Dəyişir durmadan qəlbin halları--**
**Əksilməz dövranın qeylü-qalları.**
**Hər açıq talanın öz maralları,**
**Hər yaşıl çəmənin öz laləsi var.**

**Hər zilə çıxmanın bir enən tonu,**
**Hər coşqun əzəlin bir sakit sonu,**
**Hər arif Leylanın dəli Məcnunu,**
**Hər şamın özünün pərvanəsi var.**

**Namiq, ömürdəndir bu gedən anlar...**
**(Torpağı doyurmur yediyi canlar)**
**Qırmızı mey içdi arif olanlar:**
**Hər dövrün Cəmşidi, piyaləsi var.**
*PS: müğənni Səkinə İsmayılova üçün.*

# İNTİHAR

**Bəlkə, ünvanımız bir düşəcəkdi,**
**Bizi bizə düşmən qollar ayırdı.**
**Bəlkə, həyatımız birləşəcəkdi,**
**Bizi taledəki yollar ayırdı.**

**Nifrətinə saxlamadın bir sınır.**
**Durur qəlbdə bıçaq kimi izlərin.**
**Dərdli könlün boş-boşuna çırpınır,**
**Bəs, haraya tikilibdir gözlərin?!**

**Mən  məhəbbətini itirmiş insan,**
**Soruşma həyatda kimin var sənin.**
**Sən mənə baxanda xoşbəxtsən inan,**
**Yerin yoxdusa da, göyün var sənin.**

**Nəyisə gözləyib hey darıxırsan,**
**Bəlkə də, səninçin var son mərhələ.**
**Uzaq üfüqlərə doğru baxırsan,**
**Nəyəsə ümidin qalıbdır hələ.**

**Sanma ki, son səngər səni bilmişəm,**
**Keç düşmən tərəfə, məni dəf elə.**
**Həyatda hamıyçın çoxdan ölmüşəm:**
**Sən də öz qəlbində məni dəfn elə.**

## O GÜNLƏR...

**Keçir xəyalımdan yenə o günlər--**
**Qəmli ürəyimə gülüşün dolur.**
**Qoy bilsin təzəcə könül verənlər**
**Ayrılıq ömürdən çox uzun olur...**

**Ayrıldın özün də bilmədən niyə,**
**İlk eşqin gözlərin ağladıb, ey yar?!**
**Könül ünvanına gəlmədin niyə,**
**Ümid yollarımı bağladıb, ey yar?!**

**Keçir gözlərimdən tənha surətin,**
**Ay kimi batırsan, çıxırsan yenə...**
**Uçurub divarın ilk məhəbbətin,**
**Könlümün evini yıxırsan yenə.**

**Dayan!!. Hər ömürün sonu var axı.**
**Düşüb saçımıza budur dən bizim.**
**Çox da etibarlı bilmə torpağı,**
**Silinib ordan da səninlə izim.**

**İlk eşq üzərində ailə olmur:**
**Ailə məhv olmuş eşq deməkdir...**
**Məhəbbət öldüsə, bir də doğulmur--**
**Eşqdən sonrası əsən küləkdir.**

**Məhəbbət dəyişkən yaz fəsli deyil,**
**Eşq-- sevən ürəyə bir dəfə gəlir.**
**Məhəbbət əbədi təsəlli deyil:**
**Könül kimi sevib, onunla ölür...**

## EY SEVDALI YAR!

T. üçün

Ey yar! Eşqimizin evidir dünya,
Bu yer yerimizdir, göy göyümüzdür.
Sevgisiz ömürdə yoxdur bir məna--
Bu eşq, bu məhəbbət hər şeyimizdir.

Sığmaz dünyalara könül duyğumuz.
İlk bahar gülləri--sevda ruzimiz.
Ay bizim hey batıb, doğan arzumuz,
Ulduzlar əbədi diləyimizdir.

Sevdamız günəştək hey nur yayacaq.
Dünya durduqca bu eşq yaşayacaq.
Sən mənə, mən sənə-- bağlıyıq ancaq:
Bu bizim ilahi taleyimizdir.

Namiqəm, qəlbimə min avaz gəlir.
100 illik bir ömür mənə az gəlir...
Qış gedir, dünyaya yenə yaz gəlir--
Bu bizim ayrılmaz ürəyimizdir.

## MƏNİM TƏNHA GÖZƏLİM

(Məhəbbətin 80-ci illərinə ithaf edirəm)

Qırılan sazımsan, sınan neyimsən,
Ağlayır kamanım, tarım hardasan?
Sən mənim taleyim, öz ürəyimsən,
Ey mənim bütövüm, yarım hardasan?

Nəyimə gərəkdir sənsiz can mənim?
Ayrılıq bərk tutub yaxamdan mənim.

**Sən də mi vurubsan arxamdan mənim,**
**Ey mənim bitməyən naləm hardasan?**
**Dərdimə ağlayır aləm hardasan?**

**Gəzir gülüstanda qara qarğalar.**
**Susubdur bülbülün dili hardasan?**
**Sənsiz bir xəzandır hər yaz, hər bahar,**
**Solub bağçamızın gülü hardasan?**

**Qıyma eşqimizi ellər qınasın.**
**Bu boş keçən aylar, illər qınasın.**
**Çiçəklər qınasın, güllər qınasın.**
**Ey mənim çiçəyim, gülüm hardasan?**
**Üzülüb həyatdan əlim hardasan?**

**Başımın üstündə ulduzum sönür,**
**Qəlbimdə həsrətin yanır hardasan?**
**Görüş yerlərimiz sənə səslənir,**
**Nakam eşqimizi anır hardasan?**

**Bir zaman səninlə hey deyib güldük,**
**Həyatın mənasın sevgidə bildik.**
**Biz ki heç ayrılıb gedən deyildik,**
**Vurdu aramızı dövran hardasan?..**
**Qırdı qəlbimizi hicran hardasan?..**
**Nə oldu, vəfasız canan, hardasan?..**

## ƏSMƏ, PAYIZ KÜLƏYİ !

**Dolub ayrılığın bulud gözləri.**
**Ağlayır ürəyin qırıq hissləri.**
**Silinir ömürdən yarın izləri--**

**Sən də ümidimi tale tək üzmə.**
**Əsmə, əsmə, payız küləyi, əsmə!..**

**Döyür qapımızı soyuq qış nədən?**
**Tərk edib yuvanı qaranquş nədən?**
**Gözəllər vəfasız olurmuş nədən?--**
**Qəlbimə  uzanan son yolu kəsmə,**
**Əsmə, əsmə, payız küləyi, əsmə!..**

**Unutdu əhdini niyə nazlı yar?**
**Gözəllərdə insaf, nə də rəhm var.**
**Öldürdü qəlbimi ağır intizar,**
**Dərdimin üstünə dərdini düzmə,**
**Əsmə, əsmə, payız küləyi, əsmə!..**

**Namiqəm,  gəzirəm yar sorağında.**
**Solubdur güllərim eşqin bağında.**
**Qəlbimin nigaran, qəmli çağında**
**Zamanə tək dəfnə məni tələsmə,**
**Əsmə, əsmə, payız küləyi, əsmə!..**
*PS: müğənni Yaqub Eyyubov üçün*

## NAKAM  MƏHƏBBƏT

**Bir  bağlı kitabam bu Yer üzündə:**
**Açıb, vərəq-vərəq cırıb atırsan.**
**Heç nə saxlamırsan eşqdən özündə,**
**Qəlbi ümid-ümid qırıb atırsan.**

**Bir axşam ömründən çəkildim səssiz,**
**Dözüb fəryadlara səbrimi basdım.**
**Sən elə bilmə ki, mən sənsiz öldüm:**
**Qəlbimə sənin də qəbrini qazdım.**

Baxma  gözlərimdə quruyan çaya,
Bu köhnə dünyada eşq təzə qalır...
Sənli-mənli günlər bütün dünyaya,
Ayrılıq əbədi tək bizə qalır...

Ölən eşqimizin qara günündə
Nədən ağ üzünü örtür əllərin?
Söylə, tək dururkən görüş yerində
Kimə göz yaşları tökür gözlərin?

Mənim məzarımdır bu ruhsuz bədən:
Ölmüşəm xəbərin heç yoxdur məndən.
Odla  Pərvanədir sevilən-sevən:
Sənin öz qəlbin də soyuqdur Səndən!

Tənha dayanmazlar qəbir başında;
Sanma ki, bu ölüm sənin suçundur.
Boğulma tökdüyün öz göz yaşında,
Ölüm bu dünyada hamı üçündür.

Hədəfsiz atəşdir insan taleyi--
Atılıb həyatda məqsədə çatmaz.
İmdada çağırma,  SƏN, qəlbsiz göyü--
Ölüm göy üzündə rəhm oyatmaz.

*PS: müğənni Qədir Məmmədov üçün*

## GÜN KÖLGƏ SALIR

Ah, necə unudum gözəl günləri,
O keçməş günləri, əzəl günləri...
Tökmə ayaq alta xəzəl günləri,
Ey ömrüm, ey günüm, tərk etmə məni.

**Axşamdır: qüruba gün kölgə salıb.**
**Könlümdə yarımçıq arzular qalıb.**
**Başımın üstünü buludlar alıb,**
**Ey ömrüm, ey günüm, tərk etmə məni.**

**Bağçada güllərim açmadan soldu.**
**Dünyanın dərdləri qəlbimə doldu.**
**Yar da çıxıb getdi-- qayıtmaz oldu,**
**Ey ömrüm, ey günüm, tərk etmə məni.**

**Gəzirəm ürəyi yar sorağında.**
**Göz ağlar ömrümün  hər varağında.**
**Könlümün  eşqimdən  ayrılığında**
**Ey ömrüm, ey günüm, tərk etmə məni**

## UNUTDUM

**(Bu şeiri bütün unutduğum insanlara ithaf edirəm.)**

**Sən mənim qəlbimi daşlara vurdun,**
**Eşqini başımdan atdım, unutdum.**
**Sevgi hisslərimi yelə sovurdun,**
**Könül acıların daddım, unutdum.**

**Sevən bir ürəyin sarı simiydim,**
**Mən sənlə Fərhadla Şirin kimiydim.**
**Eşqin dəryasında üzən gəmiydim,**
**Dərdin dəryasında batdım, unutdum.**

**Ürəkdə bir eşqim, min arzum vardı.**
**Eşqlə oynamağa nə lüzum vardı?**

**Sənə deyiləsi çox sözüm vardı--**
**Duyğumu ürəkdə yutdum, unutdum.**

**Səhvimi buraxdım bilmirəm nədə?**
**Günahı görmürəm özgə kimsədə.**
**Mən yolun sonuna yetmədimsə də,**
**Səbrimin sonuna çatdım, unutdum.**

**Namiqəm, yandırdı bağrımı hicran.**
**Axdı gözlərimdən yaş yerinə qan...**
**Deyirdin sən məni unudanmazsan,**
**Bax, qara torpaqda yatdım, unutdum.**
**Ax, qara torpaqda yatdım, unutdum.**

## İLK EŞQİN ROMANI

**Bir soyuq ulduz tək məndən uzaqsan--**
**Sənə nə ümidim, nə əlim çatar.**
**Gecənin yarısı oxunun bansan--**
**Səsin nə yatırar, nə də oyadar.**

**Qəlbimdə bir yuva qurmuşdun çoxdan.**
**Demə ki, bu eşqdən xəbərim yoxdur:**
**Səninçin geriyə işləyir zaman,**
**Mənim də irəli səfərim yoxdur...**

**Min dərdi olurmuş bir qız sevənin,**
**Heç çıxmaz yadımdan bu ilk məhəbbət.**
**Hələlik gözlərin çox gülür sənin,**
**Haçansa qəlbin də ağlayar, əlbət...**

Ey gözəl, boşluğa atıb özünü
Mənsiz çox ünvana yol gedəcəksən.
Sən məndən çevirib bu gün üzünü,
Sabah özünü də məhv edəcəksən.

Gülüm, ilk eşqindən yarıyan hanı?!
Aşiqin başını fəlakət sarar...
Bu qoca dünyada ilk eşq romanı
Sevinclə başlayıb, qəmlə qurtarar.

## HƏSRƏT NƏĞMƏSİ

A bəxtəvər, qarşımıza
Xonça tutan nar idi ya.
Sevda dolu başımıza
Bu gen dünya dar idi ya.

Bir can idik səninlə mən.
Gecən də mən, günün də mən.
Bütün aləm bizə düşmən,
Tale bizə yar idi ya.

Yada salaq o zamanı,
O çəməni, o səmanı...
Eşqimizin tərcümanı
Kaman idi, tar idi ya.

Necə oldu xoş o günlər,
Gözümüzdə yaş o günlər?!
Yar, dönəydi kaş o günlər,
O günlər ki, var idi ya!.

## MƏNƏ BİR SİQARET...

**Mənə bir siqaret yandırın, dostlar,**
**Uçsun tüstü-tüstü ömürdən zaman.**
**Bu fani dünyada harda ki eşq var,**
**Orda uzun olur ömürdən hicran...**

**Mənə bir siqaret yandırın, dostlar,**
**Kiçik ürəyimin böyük dərdi var.**
**Həyatda aşiqə çox ağlamazlar,**
**Şirin  romanların acı ardı var.**

**Mənə bir siqaret yandırın, dostlar,**
**Acı nikotini göz yaşı olsun:**
**Nə qədər əhdinə dönük nigar var,**
**Sükut  könüllərin sirdaşı olsun.**

**Mənə bir siqaret yandırın, dostlar,**
**Hər ağrı, acıyla ciyərim dolsun.**
**Bir vəfasız yara çəkdim intizar,**
**Dünyada İNSANA etibar olsun!**

## SON  PEŞMANÇILIQ

**Daha nə danışaq, bitmişdir hər şey,**
**Nöqtəsi qoyulub bu eşqin, gülüm!**
**Sən mənə bir yadsan, mən sənə ögey,**
**Nəyi dəyişəcək nifrət, kin, gülüm?**

**Bürünüb göy üzü çəkdiyim aha.**
**Ümidim zərrəcə yoxdur sabaha.**
**Mən öz sevgim ilə ölmüşəm daha,**
**Yaşaya bilmərəm səninçin, gülüm.**

**Çoxdan taleyimdən çıxıb getmisən,**
**Gözümdən, könlümdən tamam itmisən.**
**Bütün həyatımı bədbəxt etmisən,**
**Mənsiz yaşadığın gününçün, gülüm.**

**Eşqin hüzuruna gəlmərəm yenə.**
**Peşmanam dünyaya gəldiyim günə.**
**Bu nakam taleyi sən yazdın mənə--**
**Yaşa doğulmusan kiminçin, gülüm.**

## VÜSAL NƏĞMƏSİ

**(Bu şeiri eşq küslülərinə ithaf edirəm.)**

**Mənim kimi ayrılığın badəsin**
**Şərbət kimi içibsənsə, gələssən.**
**İlk eşqinin, ilk andının vədəsin**
**Bir ömür də keçibsənsə, gələssən.**

**Allahından imdad dilər qulları.**
**Gül solsa da, bülbül gəzər kolları...**
**Evinizdən evimizə yolları**
**Ürəyindən çəkibsənsə, gələssən.**

**Gün neyləsin, göyləri çən alıbsa,**
**Eşq neyləsin qəlbə hicran salıbsa.**
**Bu dünyada bir sevdiyin qalıbsa,**
**O dünyaya köçübsənsə, gələssən.**

**Qiyməti var ömürdə, yar, hər anın.**
**Çox güldürdün gözlərini hicranın.**

Ürəyinə məhəbbətin sultanın
Sən Namiqi seçibsənsə, gələssən!
Qıvraq. 1983-cü il.

## DOST OLAQ

Bu dünya bir qıl körpüsü,
Keçə bilirsən, dost olaq.
Yaxşı kəsdən yaman kəsi
Seçə bilirsən, dost olaq.

Bir var dəyər min yüzünə!
Üz vermə hər üzsüzünə.
Dost qapısın dost üzünə
Aça bilirsən, dost olaq.

Can bir olsun Söz canınnan!
Hər bir sözə döz canınnan.
Öz Sözünü öz canınnan
Uca bilirsən, dost olaq.

Nə mənası, de, kim hardan?
Kimdi anan, kimdi atan?..
Öz könlünü bu dünyadan
Qoca bilirsən, dost olaq.

# MÜƏLLIF HAQQINDA QISA MƏLUMAT

**Namiq Atabəyli (Fərəcov)— 1958-ci ilin 4 aprelində Kürdəmir rayonunun Sığırlı kəndində jurnalist ailəsində doğulub.**

**Atası—Rəşid Fərəcov veteran-jurnalist, yazıçı-publisisdir: 6 kitabın, o cümlədən 3 cild "Şirvannamə", "Aran səlnaməsi" və s. müəllifidir. Müəllifin atası, özü və kiçik övladı-- Gülnar BDU-nun (jurnalistika, filologiya, informatika fakültələrinin) məzunudurlar. Böyük qızı Aynur Atabəyli ixtisasca nono-biotexnoloqdur, ADNA-nı bitirib, bir müddət Türkiyənin İzmir şəhərində təhsilini artırıb və ixtisası üzrə çalışıb. Bədii əsərləri ilə də qardaş ölkədə tez-tez çıxış edir. Kiçik qızı Gülnar informatika və iqtisadi kibernetika üzrə mütəxəssisdir.**

**N. Atabəyli "Azərbaycan", "Dan Ulduzu", "İlham", "Həftə içi","Yeni Azərbaycan" və s. qəzetlərdə, "Ulduz", "Region+" jurnallarında müxtəlif vəzifələrdə çalışıb.**

**10 il Bakı şəhərində pedaqoji fəaliyyət göstərib.**

**1994-2004-cü illərdə Azərbaycan Respublikası Prezidentlərinin Mətbuat xidmətində böyük məsləhətçi olmuşdur.**

**İlk kitabı—"Azadlığın qədri" 1996-cı ildə Bakıda "İşıq" nəşriyyatında 3000 nüsxə ilə işıq üzü görüb.**

**Bədii yaradıcılığa, əsasən, tələbəlik illərində başlayıb. Dərc olunmuş xeyli şeir, poema, esse, marş, hekayə və tərcümələri var. İlk şeiri hələ orta məktəb illərində rayon qəzetində ("Arzular"), ilk poeması isə İİR-da ("Eol arfası"-şahlığın devrilməsi ilə bağlı) tələbəlik illərində dərc edilib.**

**BDU Elmi Şurasının qərarı ilə aspiranturada saxlanması qərara alınıb. Tələbəlik illərində elmi işləri Respublika Təhsil Nazirliyi, LKGİ MK, Tələbə Elmi-tədqiqat işləri üzrə Respublika Şurası tərəfindən "Qızıl medal" və Birinci dərəcəli Diploma (VIII Respublika elmi konfransında müvəffəqiyyətlərinə görə:1980/1981-ci illər) və habelə digər mükafatlara layiq görülmüşdür. Elmi yazıları BDU-nun tematik məcmuələrində nəşr edilmişdir.**

**Ali təhsili bitirib, Elmi Şuranın qərarı ilə aspiranturada saxlanılsa da, ailə ənənəsinə uyğun olaraq, həqiqi hərbi xidmətə getmiş, keçmiş SSRİ Silahlı Qüvvələrinin iki illik zabiti olmuşdur.**

**20 YANVAR soyqırımından sonra bitərəf-demokrat kimi siyasi fəaliyyətə başlamış, 20 YANVAR İctimai Tribunalının ((Xalq Təhqiqat Qrupu—1990) təşkilatçısı olmuş və uzun müddət Azər.SSR-in ALİ SOVETinin OOO135 saylı MANDATı ilə İmperiyanın 20 YANVAR cinayətinə qarşı davamlı jurnalist-təhqiqat işləri aparmışdır, bu barədə "Azərbaycan" qəzetində (fevral 1990-cı il , " Kimdir cavabdeh?") ilk araşdırma məqaləsinin həmmüəllifidir (tarixçi Rizvan Zeynalov ilə).**

**1991-ci ilin 2 fevralında "İLHAM" qəzetində dərc etdiyi— nəşrin şöbə müdiri olub—"Bir kərə yüksələn BAYRAQ" şeiri ilə İstiqlaliyyətimizin Üç rəngli Bayrağına sovet istilası şəraitində ilk bədii əsər**

**yazmış, həmin şeir Arif Məlikovun tövsiyyəsi ilə bəstəkar Ədviyyə Rəhmətova tərəfindən simfonik marş kimi Müsabiqə üçün bəstələnmişdir. Hazırda əsər Dövlət orkestrinin ifasında müsabiqə əsasında Qızıl Fondda saxlanılır.**

**Müəllifin ikinci poeması "Azərbaycan Bayrağı" ordenli qazi, qədim milli misgərlik abidələrimizin kolleksiyaçısı Şahid Həbibbullayevin həyat və fəaliyyətinə həsr etdiyi "Şahid" lirik-fəlsəfi əsəridir. Bu əsər ilk dəfə "TERRORİZM:qan çilənmiş torpaqlar" adlı çox cildliyin III Kitabında ("AVROPA" nəşriyyatı, Bakı—2010, səh.171-212) nəşr olunmuş və nəşrlə birgə Respublika Mədəniyyət və Turizm Nazirliyinin mükafatına layiq görülmüşdür.**

**Hazırda müəllif Milli İstiqlal Bayrağımızın qarşıdan gələn 100 illiyi (1918-2018) ilə bağlı "Azərbaycan Bayrağı" poeması üzərində çalışır.**

**Ötən il, 2013-cü ildə müəllif oxucuları ilə öz bədii səltənətində "Ana ürəyi" lirik-fəlsəfi son poeması ilə görüşmüşdür.Bu poema "Təzəpir" məscid-ziyarətgahın inşasına öz maiyyə vəsaitini sərf etmiş 115 yaşlı ağbirçək, Bakı neft milyonerləri ailəsindən Nabat xanım Aşurbəyovanın həya və fəaliyyətinin lirik tərənnümüdür.Kitabda habelə şairin milli-dini-mənəvi dəyərlərimizi tərənnüm edən bəzi şeirləri, məhəbbət poeziyası, habelə lirik-fəlsəfi yaradıcılığı da, əsasən, ilk dəfə oxuculara təqdim olunmuşdur.**

**”Vahidiyəm Azərbaycanımızın... ” qəzəllər, meyxana və müxtəlif şeirlər kitabı isə bu il dahi şairimiz Əliağa Vahidin(18. II. 1894.—30.IX. 1965.) anadan olmasının 120 İlliyi (1894-2014) münasibətilə müəllifin oxuculara Yubiley hədiyyəsidir. Burada 120 qəzəl, bir meyxana və müxtəlif lirik-fəsəfi, dini-lirik və mahnı üçün yazılmış əsərləri oxucuya təqdim edilir.**

# SON SÖZ ƏVƏZİ

**(Bir qəzəl)**

**Zülmət nə qədər zill ola, bir Dan yeri vardır,**
**Zalım da dönüb daş ola, insan yeri vardır.**

**Axtarma səxavət, nə də mərdlik boş ağızda,**
**Mərdlik edəcək hər kəsə meydan yeri vardır.**

**Dövran yetirib bircə Züleyxa,- demə, ey dil,**
**Say onları: bir gör neçə zindan yeri vardır?!**

**Çox insanı gördüm gülər üzlü bu həyatda,**
**Qəlbində, demə, İblisi-şeytan yeri vardır...**

**Bülbül kimi çox uyma yaza, qış gəlir öndən,**
**Ver könlünü bir tər gülə: imkan yeri vardır.**

**Baxma buna, ey dost, nə qədər mən fəqir olsam,**
**Qəlbimdə əsil dostlara mehman yeri vardır.**

**Bir gün verəcək, ey Ata, ellər sənə qiymət:**
**Yoxdursa da, dünyada özü, “Can!” yeri vardır.**

## BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ

**ŞAİR: NAMİQ ATABƏYLİ**
**BƏSTƏKAR: ƏDVİYYƏ RƏHMƏTOVA**
**(simfonik marş . Notu ilə)**

**Bir kərə yüksələn Bayraq,**
**Hürriyyətlər doğdu səni.**
**Bir kərə yüksələn Bayraq,**
**Əsarətlər boğdu səni.**

**Dünənimiz təkcə sənsən,**
**Sabahımız səndən keçir.**
**Dincliyimiz təkcə sənsən.**
**Savaşımız səndən keçir.**
**Bir kərə yüksələn Bayraq.**

**Qılınc vuran qolumuzsan,**
**Sən azadlıq yolumuzsan.**
**Simurq kimi doğulmusan,**
**Bir kərə yüksələn Bayraq.**

**Topla yenə gücümüzü,**
**Yenilməyən əzmimizi.**
**Nəsil-nəsil qaldır bizi,**
**Bir kərə yüksələn Bayraq.**

**PS: N. Atabəylinin bu şeiri ilk dəfə 1991-cı ilin 2 fevralında "İlham" (N-13) qəzetində Sovet işğalı və Hərbi Vəziyyət rejimi şəraitində "Atasoy" psevdonimi ilə dərc edilib. Müəllif özü qəzetdə ədəbi şöbənin müdiri olmuşdur. Daha sonralar əsər müəllifin "Azadlığın qədri" ("İşıq" nəşr., Bakı-1996 ) kitabında ilk səhifədə, habelə kitab halında nəşr olunmuş "Şahid" (Bakı-2010,) və "Ana ürəyi" (Bakı-2013: --"Avropa" nəşriyyatı) poemalarında Proloq yerində təkrar işıq üzü görmüşdür. 90-cı illərin ortasında bəstəkar Ədviyyə Rəhmətova bu şeirə Arif Məlikovun tövsiyəsi ilə eyniadlı simfonik Marş yazmış, əsər Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən ifa olunaraq, Müsabiqə əsasında Qızal Fonda daxil edilmiş və müxtəlif müsiqi dərsliklərinə salınmışdır.**

**Not: ¬**

# Bir kərə yüksələn bayraq

Sözləri:Namiq Atabəyli




Dü-nə-ni-miz tək-cə sən - sən,
Sa-ba-hı-mız sən-dən ke - çir, dinc-li - yi-miz sən - dən ke-çir.
Sa - va - şı - mız sən-dən ke - çir bir kə-rə yük - sə-lən bay-raq.
Qı-lınc vu - ran qo-lu - muz san,


sən a - zad - dıq yo - lu - muz - san, Bir kə - rə yük - sə - lən bay - raq
Bir kə - rə yük - sə - lən bay - raq,
Top - la ye - nə gü - cü - nü - zü, ye - nil - mə - yən əz - mi - mi - zi
Top - la ye - ni gü - cü - nü - zü, nə - sil, nə - sil qal - dır bi - zi


Qı-lınc vu-ran qo-lu - muz - san
Sən a - zad - lıq yo - lu - muz - san. Si - murq ki - mi do - ğul - mu - san,
bir kə - rə yük - sə - lən bay - raq
1.
2.
Bir kə - rə yük - sə - lən bay - raq
3

**Aşağıda müəllifin və atası Rəşid Fərəcovun 2014-cü ilədək Bakıda nəşr edilmiş kitablarından bəzilərinin üz şəkillərini görürsünüz:**




**"Şirvannəşr", 2009-cu il.**




**"İşiq" nəşriyyatı, 1996-cı il.**




**"Yazıçı" nəşriyyatı, 2012-ci il.**



**”Ana ürəyi” Yubiley kitabının surəti**







**Namiq Atabəyli. ”Ana ürəyi”. ”Təzəpir” məscidini inşa etdirmiş (1912- 1914) Bakı neft milyonçuları ailəsindən 114 yaşlı Nabat xanım Aşurbəyli haqqında poema.”Avropa” nəşriyyatı, 2013-cü il.**




**XX əsrin dahi klassiki Əliağa Vahidin (1894-1965) anadan olmasının 120 İlliyi münasibətilə N.Atabəylinin"Vahidiyəm Azərbaycanımın" Yubiley kitabı. Bakı-2014.**

**Vahidi bir biz də salaq, ey arifi-huşyar, yada,**
**Xatırlasın bu el bizi biz olmasaq bu dünyada.**

**Ey Ata, min hörmət ilə baş əyək o Məbuda biz:**
**Vahid adı nəsil-nəsil layiqlidir fəxarata!!**

## N. Atabəylinin əsərlərindən:

**1."Ana ürəyi" (2013) kitabını müəllifdən və Mərkəzi kitabxanadan elektron versiyda əldə edə bilərsiniz. Əlaqə tel.: 055-495-38-65**
**2."Şahid" lirik-fəlsəfi poemasını "Terrorizm : qan çilənən torpaqlar"(B--2010) kitabının elektron versiyasından oxuya bilərsiniz.Səh.:171-213.**
**PS: hər iki kitab "Avropa" nəşriyyatının nəşridir.**
**3."Azadlığın qədri" (B--1996, İşıq nəşriyyatı) kitabını Prezident Kitabxanasının elektron bölməsindən oxuya bilərsiniz.**
**4. Müəllifin KİV-də 258 elmi və publisistik məqalə, tərcümə və s. əsərləri M.F.Axundov ad. Mərkəzi kitabxanadan əldə edilə bilər.Bu yazılar "İlham", "Dan Ulduzu", "Azərbaycan", "Yeni Azərbaycan", "Cümhuriyyət", "Müxalifət", "Həftə içi" vəs. qəzetlərdə, "Ulduz", "Bakı-Təbriz" və s. jurnallarda, BDU-nun tematik məcmuələrində, habelə "Azərnəşr"in bir sıra Dövlət sifarişli toplularında işıq üzü görmüşdür.**

Bu kitabların əldə edilməsi üçün müəlliflə elekttron poçtla da əlaqə saxlamaq lazımdır. E-mail: namiq.atabeyli@gmail.com . namiq.atabeyli@yahoo.com



# MÜNDƏRİCAT:


**ÖN SÖZ: "VAHİDƏM, ŞAİRİ-AZADPƏRƏSTƏM"... ------------3-33**
**120 QƏZƏL -----------34-118**
**MEYXANA (MÜXƏMMƏS) ----118-122**
**MÜXTƏLİF ŞEİRLƏR : ---123-193**
**ŞİRVAN OĞLUYAM !!. ----------- 123**
**GÖZƏL ALLAHIM!!! ---------- 126**
**BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ (simfonik marş) ..127**
**ATALARA XİTAB .............. 128**
**ALİMLİK ................. 128**
**BAYRAQ ................... 130**
**BİZ ....................132**
**BURDAN QIRATLI KEÇDİ ...... 133**
**MƏRDLİK HEKAYƏSİ ........134**
**MƏTİNLİK NƏĞMƏSİ .........136**
**DAŞ ....... 137**
**BÖYÜK HƏQİQƏT ................. 138**
**KİMƏ NƏ?! ..................138**
**PAKLIQ .................. 139**
**ƏBƏDİ QÜRUR ....................140**
**AZADLIQ ......................141**
**KÖLƏLƏR VƏ AZADLAR ............141**
**QIZIL QARANLIQ .................... 142**
**ANALARIN QARTAL TALEYİ .. 143**
**ZƏFƏR NƏĞMƏSİ ......144**
**ƏBƏDİ CAVAB ........... 145**
**OSMAN PAŞA ............ 146**
**HƏSBİ-HAL ................147**
**ATABƏKİYYƏ ....................148**
**QARA QÜRBƏT ..................148**
**"DAŞ YUXULAR"A CAVAB ......... 149**
**BİR ŞAİRƏ CAVAB .................. 150**
**İNSAN ................... .151**
**DÜZ DEYİRSƏN, YEVGENİ!!...... 153**
**HAQQ VƏ HƏQİQƏT ............... 154**
**BİR STƏKAN ÇAY .............. 154**

**BU DÜNYA ----------- -156**
**İLAHİ!.. ------------ 156**
**SUALLAR VƏ CAVABLAR............. 157**
**ÖLÜM VƏ NİFRƏT ................. 158**
**RİCƏT .................... 159**
**QURBANLIQ QUZU .................... 160**
**OYUN ...................... 160**
**ÖLÜM FƏLSƏFƏSİ ....................... 161**
**SON QATAR ............................162**
**KADR SİYASƏTİ ............................ 163**
**ŞAH ABBAS və VƏZİR ALLAHVERDİ XAN--164**
**FİL və AZADLIQ ..................... 165**
**XOVF ………………… 166**
**SONUN ƏVVƏLİ ………………… 168**
**ÖLÜM SONATASI …………………. 168**
**ÇƏTİN YOL …………………… 170**
**OLMUR …………………… 172**
**KİM BİLİR? …………………… 172**
**DÜNYANIN …………………… 173**
**HƏR YOLUN BAŞINDA BİR ƏFİ İLAN …174**
**QOCA DÜNYADA …………………… 175**
**M.Ə. RƏSULZADƏNİ ANARKƏN …… 176**
**QƏZƏLLƏR:2014 …………………………… 177**
**DÜRDANƏ ............................................ 179**
**SƏN QAYITMADIN ........................ 180**
**EŞQ HEKAYƏSİ ............................. 181**
**İNTİHAR ...................................... 182**
**O GÜNLƏR... .................................. 183**
**EY SEVDALI YAR! .......................... 184**
**MƏNİM TƏNHA GÖZƏLİM ............184**
**ƏSMƏ, PAYIZ KÜLƏYİ ! ..............185**
**NAKAM MƏHƏBBƏT .....................186**
**GÜN KÖLGƏ SALIR .......................187**
**UNUTDUM ..........................188**
**İLK EŞQİN ROMANI ............... 189**
**HƏSRƏT NƏĞMƏSİ ...................... 190**
**MƏNƏ BİR SİQARET... ................... 191**
**SON PEŞMANÇILIQ ..........................191**

**VÜSAL NƏĞMƏSİ ............................ 192**
**DOST OLAQ ...................................... 193**
**MÜƏLLİF HAQQINDA QISA MƏLUMAT --səh.194**

**ƏLAVƏ VƏ QEYDLƏR.**

**( 1. Son söz əvəzi (Bir qəzəl)------------------ --196**
**2. BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ**
**(simfonik marş. Mətni və notu ilə)- -197**
**3.Müəllifin elektron və kağız daşıyıcılardakı**
**əsərləri.)------------------------------------------202**